RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 89 (9834) 3 may 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Azərbaycana yüksək nüfuz gətirən siyasət

Əlverişli geosiyasi coğrafiyada yerləşən, Avropa və Asiyanı birləşdirən Azərbaycanda məhz Prezident İlham Əliyevin şəxsi diqqəti və nəzarəti ilə yaradılan münbit zəmin respublikamızı beynəlxalq enerji, nəqliyyat qovşağına çevirib. Şimalla Cənubu, Şərqlə Qərbi birləşdirən nəhəng dəhlizlərin gerçəkləşməsi də Azərbaycanın səylərinin bəhrələridir desək, yanılmarıq.

Bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi və müxtəlif qütblər arasında, bir-birinə zidd ölkələrlə tarazlığa dayanan, balanslaşdırılmış siyasət, sözün əsl mənasında, ərazicə kiçik olsa da, Azərbaycanı dünyanın tək-tük sayılıb-seçilən, etimad olunan ölkələri sırasına ucaldıb. Regionda, eləcə də dünyada baş verən geosiyasi prosesləri dərindən təhlil edərək adekvat qərarlar verən Prezident İlham Əliyev diplomatik bacarığı ilə, atdığı praqmatik addımlarla Azərbaycanı qlobal məsələlərin həlledici güc mərkəzinə çevirib.

Azərbaycan fəal diplomatiya vasitəsilə Qlobal Şimal və Qlobal Cənub arasında mövqe fərqliliklərini aradan qaldırmaq üçün əzmlə çalışır, mühüm çağırışlar edir. XXI əsrdə hələ də bəzi ölkələr tərəfindən neokolonializm siyasətinin aparılmasına qarşı mübarizə aparır.

Xüsusi vurğulayaq ki, Azərbaycanın həyata keçirdiyi xarici siyasət kursu həm dünyanın hər bir qütbü ilə yüksək əlaqələrə malik olması, həm də bu siyasətin xalqımızın, ölkəmizin milli maraqlarına xidmət etməsi ilə əlamətdardır.

Təkcə aprel ayında Prezident İlham Əliyevin Türkiyəyə və Çinə səfər etməsi, həmçinin Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın, İran Prezidenti Məsud Pezeşkianın ölkəmizə gəlmələri Azərbaycanın yürütdüyü çoxşaxəli beynəlxalq siyasətin göstəricisidir.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 4-cü Antalya Diplomatiya Forumunda iştirak etmək üçün aprelin 10-da sözügedən ölkədə işgüzar səfərdə oldu. Antalyada dövlətimizin başçısı İlham Əliyevin Prezident Rəcəb Tayyib Ərdoğanla, Şimali Kiprin Prezidenti Ersin Tatarla, Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraayla, Gürcüstanın Baş naziri İrakli Kobaxidzeylə, Sudanın Suveren Keçid Şurasının Sədri Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhanla, Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşlərinin keçirilməsi isə Azərbaycanın beynəlxalq siyasətdəki mühüm rolunu bir daha təsdiq etdi.

Dünyada etibarlı tərəfdaş kimi ad qazanan Azərbaycanın, baxmayaraq ortada suyu bulandırmaq istəyənlər də var, Avropa İttifaqı (Aİ) ilə münasibətləri səmimiyyət üzərində qurulub. Buna görədir ki, sözügedən qurum ölkəmizlə münasibətləri inkişaf etdirməkdə maraqlıdır.

→ 7

## Azərbaycanın özü qədər əbədi



# Heydər Əliyevlə başlanan vətən və dövlətçilik məfkurəsinin intibahı

Heydər Əliyevin həyata keçirdiyi siyasət qlobal mahiyyətinə görə bənzərsiz tarixi mərhələdə Azərbaycanın gücünə və Azərbaycan ictimai fikrinin təməl daşına çevrildi. XX yüzilliyin sonunda Ərəbistandan Qafqaza qədər dalğalanan siyasi ziddiyyətlərin Azərbaycana yansımaması, ölkəmizin Şərqdə də, Qafqazda da müstəsna bir dünya dövləti kimi öz sabitliyini və hər mənada, müstəqilliyini qoruyub saxlaması, Azərbaycanın Şərqdə unikal, tolerant bir Avropa dövləti kimi təzahür etməsi Heydər Əliyev tərəfindən irəli sürülmüş milli məfkurənin ümummilli mahiyyətinə ən mükəmməl və etibarlı sübutdur.

→ 3

# Bakı şəhəri Xəzər rayonunun Mərdəkan qəsəbəsində yerləşən Pir Həsən ziyarətgahında təmir-bərpa işlərinin həyata keçirilməsi üçün vəsait ayrılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Xəzər rayonunun Mərdəkan qəsəbəsində yerləşən Pir Həsən ziyarətgahında təmir-bərpa işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə 550,0 (beş yüz əlli) min manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 may 2025-ci il*

# Dövlətin təməl sütunları




Azərbaycan Xalq Cümhuriyyəti dövründə - 1918-1920-ci illərdə onu qəbul etməyə macal tapılmamışdı. 1921-ci, 1925-ci və 1978-ci illərdə qəbul edilən konstitusiyalar isə SSRİ-nin, yeni daxil olduğu imperiyanın ali qanununa uyğunlaşdırılmışdı. 1991-ci ildə də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilsə də, yeni Konstitusiya yazılmadı. Prezident İlham Əliyev bunu həmin dövr ölkədə hökm sürən vəziyyətlə izah edir: "1991-1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır".

→ 5

# Yeni əməkdaşlıq mərhələsi

## Bu, Azərbaycanla Avropa İttifaqının əlaqələrinin inkişafına təkan verəcək



Bu günlərdə Avropadan Azərbaycana yeni bir münasibət sərgilənir. Hazırda Azərbaycanla Avropa İttifaqı arasında yeni bir mərhələnin başlanğıcı müşahidə olunur. Dünyada yaranmış geosiyasi şəraitin diktəsi hər iki tərəfi bərabərhüquqlu dialoqun inkişafına və tərəfdaşlığın möhkəmlənməsinə maraq göstərməyə səsləyir. Əvvəlki illərdə isti münasibətlərə əngəl yaradan amillər artıq yavaş-yavaş aradan qaldırılır, buzlar əriyir.

Avropa İttifaqı ölkəmizin regiondakı və dünyadakı rolunu, beynəlxalq enerji təhlükəsizliyinə verdiyi əvəzsiz töhfəni layiqincə qiymətləndirmək üçün yeni addımlar atır. Artıq Avropa İttifaqı Azərbaycanı regional sülh və sabitliyin əsas təminatçılarından biri kimi görür, ölkəmizin bu istiqamətdəki roluna yüksək dəyər verir. Reallıq onu göstərir ki, Azərbaycanla Aİ arasında münasibətlər niyyət bəyanatları səviyyəsindən xeyli irəli gedir.

→ 9



# Milli mətbuatımızın tarixi ənənələri, yüksək mənəvi dəyərləri qorunmalıdır

Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü demokratik proseslərin inkişaf etdiyi, fikir və söz azadlığına böyük önəm verildiyi ölkələrdə, o cümlədən Azərbaycanda da fəal şəkildə dəstəklənir. Dövlətimiz ölkədə insan hüquqlarının müdafiəsinə, söz və mətbuat azadlığı kimi vacib məsələlərə böyük diqqət və önəm verir. Azərbaycan dövləti azad sözün cəmiyyət həyatında üstün yer tutması, sərbəst şəkildə yayılması üçün həmişə zəruri addımlar atıb və atmaqdadır. Uzun və şərəfli bir yol keçmiş milli mətbuatımıza müstəqillik dövründə daim diqqət və qayğı göstərilib.

→ 11

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası

**Mayın 2-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib. YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iclasın gündəliyi haqqında məlumat verib.**





Əvvəlcə YAP Veteranlar Şurasının tərkibinə kooptasiya yolu ilə yeni üzvlərin daxil edilməsi məsələsinə baxılıb, Arif Xanoğlan oğlu Qaraşov və Fidumə Məmmədəli qızı Hüseynovanın Veteranlar Şurasının üzvlüyünə namizədliyi ətrafında müzakirələr aparılıb.

YAP Sədrinin müavini Əli Əhmədov, partiyanın İdarə Heyətinin üzvləri Hikmət Məmmədov və Bahar Muradova çıxış edərək hər iki şəxsin namizədliyini dəstəklədiklərini bildiriblər.

Müzakirələrdən sonra Arif Xanoğlan oğlu Qaraşov və Fidumə Məmmədəli qızı Hüseynovanın YAP Veteranlar Şurasının tərkibinə daxil edilməsi barədə qərar qəbul olunub.

Hər iki şəxs çıxış edərək göstərilən yüksək etimada görə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə təşəkkürlərini bildiriblər.

Ərazi bütövlüyü və suverenliyini tam bərpa edən ölkəmizin yeni dövrə qədəm qoyduğunu vurğulayan YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bu dönəmdə partiyanın bütün strukturlarının, o cümlədən Veteranlar Şurasının da üzərinə böyük məsuliyyətin düşdüyünü, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin müəyyənləşdirdiyi, eləcə də partiyanın Nizamnamə və Proqramından irəli gələn vəzifələrin günün tələbləri səviyyəsində mütəşəkkil və operativ yerinə yetirilməsinin qarşıda duran əsas məsələ olduğunu diqqətə çatdırıb.

YAP Sədrinin müavini Veteranlar Şurasının tərkibinə yeni daxil edilmiş şəxsləri təbrik edərək onlara göstərilən etimadı doğruldacaqlarına inamını ifadə edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra cari məsələlərlə bağlı müzakirələr aparılıb və müvafiq qərarlar qəbul olunub.

***"Azərbaycan"***

# Nazir Fərid Əhmədov İmişli şəhərində vətəndaşları qəbul edib

**Ədliyyə naziri Fərid Əhmədov 2 may tarixində İmişli şəhərində vətəndaşları qəbul edib.**










Qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Beyləqan, Biləsuvar, İmişli, Saatlı, Sabirabad və Zərdab rayon sakinlərinin ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.

# Müasir Azərbaycan Ulu Öndər Heydər Əliyevin şah əsəridir

**Mayın 2-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurası, YAP Qaradağ rayon təşkilatı və Qaradağ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Müasir Azərbaycan Ulu Öndər Heydər Əliyevin şah əsəridir" mövzusunda tədbir keçirilib.**



Əvvəlcə Qaradağ rayonunda Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri düzülüb.

Qaradağ rayonu, Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə öncə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev bildirib ki, Azərbaycanın güclü və qüdrətli dövlətə çevrilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun sözlərinə görə, Heydər Əliyev ideyaları əsasında uzaqgörən və məqsədyönlü siyasət həyata keçirən Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev xalqımıza şanlı dövlətçilik tarixinin ən möhtəşəm uğurlarını qazandırıb: "Bu nailiyyətlərin zirvə nöqtəsi isə 30 il ərzində Ermənistanın işğalı altında qalmış torpaqlarımızın azad edilməsi və ölkəmizin suverenliyinin tam bərpasıdır".

Çıxış edən Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov qeyd edib ki, müasir Azərbaycan tarixinin böyük bir dövrü görkəmli dövlət xadimi Heydər Əliyevin adı və fəaliyyəti ilə əlaqədardır. O deyib ki, Ulu Öndərin Azərbaycana rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. S.Mikayılovun sözlərinə görə, Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilib, dövlətimizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə çıxış edərək diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi mərhələlər dövlətçiliyimizin və xalqımızın intibahında tarixi əhəmiyyət daşıyıb: "Heydər Əliyevin hakimiyyətə birinci gəlişi xalqın həyatında dönüş nöqtəsi, çiçəklənmə dövrü oldu. 1993-cü ildə isə Ulu Öndər hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirdi, ölkəmizi məhv olmaq təhlükəsindən qurtardı. Dağılmaq ərəfəsində olan Azərbaycan dinamik inkişaf edən bir ölkəyə çevrildi. Bu, heç də asan başa gəlməyib. Azərbaycanı inkişaf yoluna çıxarmaq üçün böyük zəhmət sərf olunub. Odur ki, biz Heydər Əliyevin qurucusu olduğu Azərbaycanı daim qorumalıyıq".

YAP Veteranlar Şurasının sədri qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin genişmiqyaslı fəaliyyəti dövlətçilik məktəbidir və Heydər Əliyev yolunun alternativi yoxdur: "Millətinin və dövlətinin ali mənafeyini öz fəaliyyətində daim təməl prinsip kimi qəbul edən Ümummilli Lider müstəqil Azərbaycanın banisidir. Prezident İlham Əliyev bu gün Heydər Əliyev siyasətini uğurla davam etdirir. O, xalqımıza tarixi Zəfər bəxş etmiş Müzəffər Liderdir".

Çıxış edən YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynov deyib ki, müasir müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət əsasında inkişaf edir. Ümummilli Liderimiz müstəqil dövlətimizin sarsılmaz təməllərini atıb və bu təməllər üzərində daim inkişaf edirik: "Biz Azərbaycan vətəndaşları olaraq daim Heydər Əliyev siyasətinə sadiq olmalı, Prezidentimiz İlham Əliyevin ətrafında bundan sonra da sıx birləşməliyik".

YAP Veteranlar Şurasının üzvü Zərifə Quliyeva isə çıxışında söyləyib ki, Heydər Əliyev şəxsiyyəti Azərbaycanın müasir dövlətçilik tarixinin parlaq simasıdır. Xalqımızın yaddaşında silinməz izlər buraxan Ümummilli Lider Azərbaycan dövlətinin xilaskarı, memarı və qurucusudur. Onun sözlərinə görə, Ulu Öndər hakimiyyətdə olduğu bütün dövrlərdə respublikamız və xalqımız üçün müstəsna xidmətlər göstərib, həmin dönəmlərdə bütün sahələr inkişaf edib.

"Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycanı Prezident İlham Əliyev qalib dövlətə çevirib. Qazanılan bütün uğurların əsasında Heydər Əliyev siyasəti dayanır", - deyə Z.Quliyeva vurğulayıb.

YAP Veteranlar Şurasının üzvü Misir Mərdanov da çıxışında Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinin mühüm məqamlarından danışıb. Ulu Öndərin müstəsna xidmətlərinin hələ uzun illər tədqiqatçıların diqqət mərkəzində olacağını qeyd edən M.Mərdanov vurğulayıb ki, müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. O, Ümummilli Liderin ölkəmizin inkişafı istiqamətində başlatdığı nəhəng işlərin, möhtəşəm layihələrin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

İnteraktiv formada davam edən tədbirdə iştirakçıların sualları cavablandırılıb.

Daha sonra partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

***"Azərbaycan"***

# Bakıda IV Aqrobiznesin İnkişafı Forumu keçirilib

**Mayın 2-də Bakıda Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin (AKİA) təşkilatçılığı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) maliyyə dəstəyi ilə IV Aqrobiznesin İnkişafı Forumu keçirilib.**



AZƏRTAC xəbər verir ki, forum ötən ilin noyabrında Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasından (COP29) sonra Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi ilə FAO arasında iqlimə dayanıqlı kənd təsərrüfatının təşviqi istiqamətində həyata keçirilən əməkdaşlığın növbəti praktik nümunəsidir. Bu əməkdaşlıq çərçivəsində forumun əsas məqsədi aqrobiznesin davamlı inkişafı üçün innovativ maliyyələşmə mexanizmlərinin tətbiqi, yaşıl subsidiyaların təşviqi və ictimai-özəl dialoqun gücləndirilməsidir.

"Aqrobiznesin İnkişafı Forumu: Harmoniyaya gedən yol" mövzusuna həsr olunan tədbirdə Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Mərkəzi Bank, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycan Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının rəhbər şəxsləri, nazirliklərin tabeli qurumlarının, Azərbaycan Banklar Assosiasiyasının, ölkədə fəaliyyət göstərən bankların, həmçinin yerli və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Tədbirdən öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Vətən uğrunda canından keçən qəhrəman şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Açılış mərasimində çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, regionların və kənd təsərrüfatının inkişafı istiqamətində ardıcıl və məqsədyönlü siyasət həyata keçirildiyini diqqətə çatdırıb. Qeyd olunub ki, həyata keçirilən siyasət nəticəsində ölkənin dayanıqlı inkişafı təmin edilir. Kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən kiçik ailə təsərrüfatlarından iri aqroparklaradək bütün subyektlərin dəstəklənməsi əsas prioritetlərdəndir. Həmin dəstəyin mühüm komponentlərini subsidiyalar, güzəştli maliyyələşmə, texniki təminat və institusional təşviqlər təşkil edir. "4-cü Aqrobiznesin İnkişafı Forumu bu il "Harmoniyaya gedən yol" mövzusunda keçirilir. Bu, sadəcə, şüar deyil, iqtisadi inkişafla ətraf mühitin qorunması arasında tarazlığın yaradılması, dövlət və özəl sektor arasında güclü dialoqun qurulması, fermerlərin səsinin eşidilməsi və qərarların iştirakçılıq əsasında formalaşması deməkdir. Forumun proqramında təqdim olunacaq mövzular yaşıl maliyyələşmə, aqromaliyyələşmə həlləri, rəqəmsallaşma və dayanıqlılıq mexanizmləri, ölkəmizin aqrar siyasətinin gələcək istiqamətlərini formalaşdıracaq", - deyə nazir əlavə edib.

Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev çıxışında bildirib ki, qlobal iqlim müzakirələrinin ən ali platforması olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına evsahibliyinin Azərbaycana həvalə olunması isə göstərilən yüksək etimadın, beynəlxalq təşkilatlarla qurulan uğurlu əməkdaşlığın bariz nümunəsidir. COP29-a evsahibliyi etməklə ölkəmiz enerji, şəhərsalma, maliyyə, kənd təsərrüfatı, insan kapitalının inkişafı və digər sahələri əhatə edən qlobal təşəbbüslərə start verib. Həmin təşəbbüslər iqlim dəyişikliklərinə qarşı inklüziv yanaşmaları özündə birləşdirir. COP29 Sədrliyi, Kənd Təsərrüfatı Nazirliyi və FAO-nun birgə təşəbbüsü ilə təqdim olunan "Fermerlər üçün Bakı Harmoniya İqlim Təşəbbüsü" qadın və gənc fermerlərin imkanlarının artırılması, iqlimə davamlı kənd icmalarının qurulması və bilik mübadiləsinin gücləndirilməsi üçün yaradılıb. Həmin təşəbbüs 90-dan çox qlobal və regional proqramı bir araya gətirərək kənd yerlərində dayanıqlı inkişafı dəstəkləyir və investisiyaların bu sahəyə yönəldilməsinə köməklik edir.

Tədbirdə çıxış edən FAO-nun Avropa və Mərkəzi Asiya üzrə regional rəhbər müavini Nabil Gangi kənd təsərrüfatı, su və qida təhlükəsizliyinə təsir edən qlobal amillərdən, dayanıqlı kənd təsərrüfatı inkişafının təmin olunması yollarından danışıb. O, ötən ilin noyabrında Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını (COP29) yüksək səviyyədə təşkil edən Azərbaycanın qlobal iqlim gündəliyinin formalaşmasında aparıcı rol oynadığını, iqlim dəyişikliyi ilə bağlı öhdəliklərin yerinə yetirilməsinin vacib olduğunu vurğulayıb. Nabil Gangi iqlim dəyişikliyi, torpağın deqradasiyası, qida tələblərinin dəyişməsi və kənd miqrasiyasının mövcud olduğu müasir dövrdə yeni texnologiya və innovasiyalardan geniş istifadənin dayanıqlı inkişafa aparan körpü olduğunu qeyd edib. Bildirib ki, Azərbaycanda innovasiyaların, məhsuldarlığı və səmərəliliyi artırmaq üçün müasir texnologiyaların tətbiqinə önəm verilir, ərzaq istehsalının təhlükəsiz, dayanıqlı və ekoloji cəhətdən sağlam olmasını təmin edən qabaqcıl təcrübələrdən geniş istifadə olunur.

Tədbir çərçivəsində FAO-nun 80 illiyi və Azərbaycanla əməkdaşlığı çərçivəsində əldə olunmuş nailiyyətlərə dair hazırlanmış videoçarx nümayiş etdirilib.

Daha sonra kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimovanın moderatorluğu ilə "Azərbaycanda aqrobiznesin inkişafına baxış" mövzusunda yüksəksəviyyəli panel sessiya təşkil olunub. Paneldə Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli, Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini Balarəhim Quliyev, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, Mərkəzi Bankın sədr müavini Toğrul Əliyev, Banklar Assosiasiyasının icraçı direktoru Yunus Abdulov çıxış edərək, aqrobiznesin davamlı inkişafı üçün strateji dəstək mexanizmlərinin formalaşdırılması və tətbiqi, iqlimə dayanıqlılıq və davamlı inkişaf üçün aqrobiznesin innovasiyası imkanları mövzusunda fikirlərini bölüşüblər.

Forum çərçivəsində kənd təsərrüfatı sektorunda "İlin fermeri" nominasiya üzrə qalib gəlmiş 3 fermerə və 2 nümunəvi təsərrüfatın rəhbərinə mükafatların təqdim olunması mərasimi də keçirilib. Fermerlərə aqrar sahədə qazandıqları nailiyyətlərə görə fəxri fərman və dəyərli hədiyyələr təqdim edilib.

IV Aqrobiznesin İnkişafı Forumunda həmçinin Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Rəşad Hüseynov "Azərbaycanın aqrobiznes sektorunda əsas tendensiyalar, çağırışlar və imkanlar" mövzusunda təqdimat keçirib.

Forum işini "Maliyyə təşviqləri və aqromaliyyələşmə həlləri" və "2024-cü ildə aqrobiznesin inkişafı üçün subsidiya mexanizmlərinin təkmilləşdirilməsi" mövzularında "dəyirmi masa"larla davam etdirib. Mütəxəssislər təqdimatlar edib, aqrar sektora göstərilən dövlət dəstəyi, bu sahənin inkişafı istiqamətində həyata keçirilmiş tədbirlər, aqrar sahənin investisiya imkanları və yeni çağırışlar, aqrar biznes sektorunda investisiya perspektivləri, bu istiqamətdə qabaqcıl təcrübələr, aqrar sahəyə innovativ yanaşmaların tətbiqi yolu ilə dövlət və özəl sektorun birgə kapital investisiyası imkanları, aqrar sığortanın əhəmiyyəti, aqrar sahənin dayanıqlı inkişafı ilə bağlı fikirlərini bölüşüblər.

"Dəyirmi masa"lar zamanı fermerlər, assosiasiyalar, aqroparklar və aqroşirkətlərin də aqrobiznesin inkişafı istiqamətində fikirləri dinlənilib.

Həmçinin iştirakçıların sualları cavablandırılıb, aidiyyəti qurumlar da daxil olmaqla əsas maraqlı tərəflərin rəyləri öyrənilib.

Forumun bağlanış mərasimində çıxış edən Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Yalçın Camalov bildirib ki, bu forum çoxtərəfli iştirakçılığa və institusional əməkdaşlığa əsaslanan bir platforma rolunu oynamaqla mühüm funksiyanı yerinə yetirir. Forum aidiyyəti dövlət qurumlarının, eləcə də sahibkarlıq və bank sektorunun nümayəndələrinin aqrobiznesin tənzimlənməsi və dəstəklənməsi istiqamətində apardığı işlərin vahid bir platformada təqdiminə şərait yaratmaqla aqrar sektorun strateji inkişafı baxımından olduqca əhəmiyyətlidir.

Bununla da IV Aqrobiznesin İnkişafı Forumu işini başa çatdırıb.

1923 *Azərbaycanın özü qədər əbədi* 2025

# Heydər Əliyevlə başlanan vətən və dövlətçilik məfkurəsinin intibahı



**Ümummilli Lider Heydər Əliyev əvvəl milli məfkurəni, sonra müstəqil dövləti yaratdı. Bu baxımdan, minillik dövlətçilik tariximizə milli məfkurəyə istinad edən ilk və yeni Azərbaycan dövlətinin qurucusu kimi daxil oldu.**

Heydər Əliyevin həyata keçirdiyi siyasət qlobal mahiyyətinə görə bənzərsiz tarixi mərhələdə Azərbaycanın gücünə və Azərbaycan ictimai fikrinin təməl daşına çevrildi. XX yüzilliyin sonunda Ərəbistandan Qafqaza qədər dalğalanan siyasi ziddiyyətlərin Azərbaycana yansımaması, ölkəmizin Şərqdə də, Qafqazda da müstəsna bir dünya dövləti kimi öz sabitliyini və hər mənada, müstəqilliyini qoruyub saxlaması, Azərbaycanın Şərqdə unikal, tolerant bir Avropa dövləti kimi təzahür etməsi Heydər Əliyev tərəfindən irəli sürülmüş milli məfkurənin ümummilli mahiyyətinə ən mükəmməl və etibarlı sübutdur.

Milli düşüncənin intibahı, milli ruhu diri saxlamaq meyli onun tərcümeyi-halının ən işıqlı tərəfini təşkil edir. Bu kontekstdə onun obrazını necə xarakterizə etmək olar? Həm azərbaycançılıq ruhunu bütün siyasi-mənəvi aşımalardan bütöv və zədəsiz çıxaran böyük azərbaycanlı, həm də bütün dünya mədəniyyət və dəyərlərinə tolerant və multikultural aspektdən yanaşmağı bacaran dünya insanı! Heydər Əliyev üçün hər zaman əsas amal milli birlik, milli vəhdət olmuşdur. Onun azərbaycançılıq təliminin ana yapısında dayanan başlıca məqam elə bundan qaynaqlanırdı. Ümummilli dəyərləri ideoloji baxımdan ilk dəfə o təsbit etdi. İqtisadi coğrafiyanı böyük quruculuq işləriylə, mənəvi coğrafiyanı isə milli-mənəvi dəyərlərin Azərbaycana qaytarılmasıyla gerçəkləşdirdi. Azərbaycanın qapılarını Dədə Qorqudun, Babəkin, Nizaminin, Nəsiminin, Hüseyn Cavidin, Şəhriyarın üzünə taybatay açmaqla, əslində, Azərbaycanın məfkurəvi necəliyini müəyyənləşdirdi. 1993-cü ildə isə xalqımız Heydər Əliyevi hakimiyyətə təkcə Azərbaycanı hərbi-siyasi böhrandan qurtarmaq üçün deyil, həm də Ümummilli Liderin azərbaycançılıq əsərinin ən ciddi səhifələrini yaratmaq üçün dəvət edirdi. Çünki bu mənəvi abidənin - siyasi Azərbaycanın sirri 1969-cu ildən başlayaraq Heydər Əliyevin üslubunda kəşf olunmuşdu.

* * *

Heydər Əliyev milli müstəqilliyi qazandığımız 1990-cı illərdə, eləcə də hakimiyyətdə olduğu sovet epoxası daxilində ədəbiyyatı nəinki iqtisadiyyatın, eləcə də siyasətin, gücün ayağına vermədi. Bütün fəaliyyəti dövründə ədəbiyyata, onun müxtəlif dövrlərində yaşayıb-yaratmış ədiblərinə qədirşünas mövqedən yanaşan Ümummilli Liderin rəhbər kimi özəlliyi bəlkə də elə buradan başlayır. Dəfələrlə qeyd etmişdir: "... ədəbiyyatı o qədər sevirəm ki, ədəbiyyatla, şeirlə, bizim mədəniyyətlə görüşmək mənim üçün həmişə çox xoşdur." Ona görə də ədəbiyyat məsələləri onun apardığı siyasi xəttin tərkib hissəsi olmuş, ədəbi-tarixi yaddaşı qorumaq amalı bütün fəaliyyəti dövründə funksionallığını itirməmişdir.

Hakimiyyətdə olduğu bütün dönəmlər Heydər Əliyevin ədəbiyyata, sözə, sənətə olan sevgisi kimi qabarıq önə çıxır. Və yalnız təzahür olaraq hasilə gəlmir, konsepsiya, təlim səviyyəsində gerçəkləşir. Heydər Əliyev xalqı və dövləti qorumağın, uca tutmağın, onun milli kimlik və mənlik qürurunun gizləndiyi, ehtiva olunduğu məqamların nələrdə, hansı dəyərlərdə ehtiva olunduğunu bilirdi. "Ən çox sevdiyin şair kimdir?" sualına Şəhriyar, "ən çox sevdiyin şeir hansıdır" sualına isə Səməd Vurğunun "Azərbaycan" şeiri deyə cavab vermişdir. Əslində, onların hər ikisi böyük öndər üçün Azərbaycan demək idi. Onun Şəhriyar sevgisi də, Səməd Vurğunun "Azərbaycan" şeirini oxuyarkən kövrəlməsi də, Hüseyn Cavidin nəşinin vətənə qaytarılma fədakarlığı, onlarla sənətkarımıza qoydurduğu abidələr, keçirtdiyi yubiley tədbirlərinin də əsas xətti millətə yönəlik olan sevginin gücünə söykənirdi.

Zəngin dövlətçilik təcrübəsi və geniş dünyagörüşə malik dövlət xadimi olan Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyinin birinci dövrü ondan hansı məzmunda danışmağa əsas verir? Zənnimcə, daha çox xalqın itirilmiş intellekt və emosiya potensialının geri qayıdışında, ondakı milli müəyyənlik və özünüifadə imkanlarının bərpa olunmasında siyasi iradə nümayiş etdirən lider olaraq. Bu baxımdan, 1969-82-ci illər sovet imperiyası daxilində respublikamızda həm də milli varlığın idrak məqamıdır. 1970-ci illərdə Moskva siyasi dairələrində kifayət qədər nüfuz sahibi olan Heydər Əliyev bundan xalqının milli kimliyinin və müəyyənliyinin dərki üçün yararlandı. Bütün siyasi fəaliyyəti boyu əsas diqqətini xalqın tarixi şəxsiyyətlərinin yaradıcılığının poetik dövriyyəyə gətirilməsinə, yaddaş faktına çevrilməsinə, milli genefondun varlıq göstəriciləri olmaları işinə sərf etdi. N.Gəncəvinin, İ.Nəsiminin, M.P.Vaqifin, M.Ş.Vazehin, N.Nərimanovun heykəllərinin qoyulması, onların irsini dirçəltmək imkanları sovet epoxası daxilində ağlasığmaz əzmkarlıqdan hasilə gəlirdi və siyasi lider olaraq Heydər Əliyevin bütün fəaliyyətinin prioritet istiqamətini təşkil edirdi.

## Heydər Əliyevlə yaddaşlaşan klassika

1970-ci illərdə ümumən respublikamızda klassik mədəni irsimizin öyrənilməsi baxımından tamamilə yeni mərhələ başladı. Həmin mərhələ bilavasitə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Adil Babayev yazır ki, "Şərqin ən böyük dastanı olan "Kitabi-Dədə Qorqud"u adi döyüş əsəri kimi qiymətləndirirdilər və onun araşdırılmasının qarşını alırdılar. Amma milli-mənəvi dəyərlərimizi, dilimizi sovet dövründə tamamilə sıradan çıxarmaq məqsədi qoyulsa da, reallaşdıra bilmədilər. Heydər Əliyev abidənin millətə qaytarılmasında böyük işlər gördü".

Eləcə də böyük Azərbaycan şairi İmadəddin Nəsimi ilə bağlı Heydər Əliyevin gerçəkləşdirdiyi işlər bu şairin irsinin yeni təfəkkür qatına, milli şüur və yaddaşa bədii-estetik çalar qatmasını izləməyə imkan verir. Həmin vaxta qədər Nəsimi divanı yalnız bir dəfə, görkəmli ədəbiyyatşünas Salman Mümtaz tərəfindən 1926-cı ildə ərəb əlifbası ilə çap olunmuşdu. 1972-ci ildə türkmən ədəbiyyatşünası Qullayev həmin divanın dili üzərində müəyyən türkmənləşmə əməliyyatı apararaq yenidən çap etdirmiş, şairi türkmən ədəbiyyatının klassiki kimi təqdim etmişdir. Ancaq Heydər Əliyevin müdaxilə və müqaviməti nəticəsində bu saxtalaşdırma siyasəti uzun çəkmir, rəsmi dairələrdə tanınmasına yol verilmir və şairi Azərbaycan ədəbiyyatının dəyərli klassiki kimi tanıtmaq, təbliğ etmək yönündə davamlı tədbirlər planı start götürür. Heydər Əliyevin sərəncamı əsasında 1973-cü ilin 13 sentyabrında İmadəddin Nəsiminin 600 illik yubileyi keçirilir. Elə həmin il Həmid Araslının tərtibatı ilə Nəsiminin divanı çap olunur. Bütün ölkə Nəsimi əhvali-ruhiyyəsində olur, şairin şəkli həmin dövrdə çap olunan bütün ölkə qəzetlərinin loqosuna çevrilir. Əsərləri ingilis və fransız dillərinə tərcümə edilir, haqqında xarici ölkələrin və beynəlxalq təşkilatların mətbuat orqanlarında bir neçə məqalə çap olunur. UNESCO-nun "Kuryer" jurnalında Nəsimi haqqında məqalə dərc edilir. Heydər Əliyev Nəsiminin yubileyinin təkcə Bakıda deyil, Moskvada da keçirilməsinə nail olur. 1980-ci ilın fevral ayında Bakının mərkəzi parklarından birində Nəsiminin abidəsi qoyulur və heykəlin açılış mərasimində şəxsən özü iştirak edir. Beləcə, sovet ideologiyasının birbaşa marağında olduğu Nəsimini milli ədəbi-tarixi yaddaşdan çıxdaş etmək niyyətinin qarşısı böyük siyasətçi tərəfindən alınır.

Böyük Azərbaycan şairi Nizami Gəncəvinin irsinə də Heydər Əliyevin münasibəti konseptual səciyyə daşıyırdı. 1981-ci ilin avqust ayında Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında qərar isə nizamişünaslıqda əsaslı dönüş yaratmışdır. Bu məqamla bağlı X.R.Ulutürkün "Gündəliy"ində əhəmiyyətli bir epizod yer alır: "Xəmsə" yaradıcısının anadan olmasının 840 illiyi bayramı keçiriləndə böyük qazax şairi Oljas Süleymenovun verdiyi sual yadımdadır:

- Axı 840 yuvarlaq rəqəm deyil, niyə tələsirsiniz?

- Tələsməyimiz əbəs deyil. Biz Nizami ilə bəşəriyyəti qovuşdurmağa tələsirik. Nizami elə bir sənətkardır, elə bir dahidir ki, hər il bayramını keçirməyə dəyər".

Yaxud 1982-ci ilin 14 yanvarında Şuşada M.P.Vaqif məqbərəsinin açılışı Heydər Əliyev üçün əbədiləşən tarixi yaddaş baxımından əhəmiyyətli hadisə, mənəviyyata, mədəniyyətə qoyduğu böyük abidə idi. Həsən Həsənovun "Gələcək haqqında... xatirələr" məqaləsində bu məqamla bağlı maraqlı epizod yer alır: "Bir dəfə Heydər Əliyev gözlənilmədən məndən soruşdu: "Sən şair Vaqifi tanıyırsanmı?" Mən cavab verdim: "Əlbəttə, tanıyıram". O, mənə diqqətlə baxdı və dedi: "Yox, sən hamısını bilmirsən". Sonra söhbət bizim cari kommunist və beynəlmiləlçi vəzifələrimizdən uzaq mövzuya keçdi. Heydər Əliyev dedi ki, Şuşada Vaqifin məqbərəsini tikməyi qərara alıb. Məqbərənin layihəsi hazırlanır, yer seçilib, tikinti başa çatandan sonra məqbərənin təntənəli açılışını və Vaqif poeziya bayramını keçirmək nəzərdə tutulur. Heydər Əliyev sözünə davam edərək dedi: "Sən bu məsələləri ən yaxın vaxt üçün prioritet məsələ kimi qəbul etməlisən. İstəyirəm ki, sən mənim əsas məqsədimi biləsən. İndiki halda Vaqif bizim üçün sadəcə şair, məqbərə sadəcə qəbirüstü abidə, bayram sadəcə şeirlər oxumaq deyil, Vaqif bizim üçün Azərbaycanın dövlət xadiminin rəmzidir və belə də olacaq. Şuşadakı məqbərə bizim üçün Qarabağ xanlığının timsalında Azərbaycan dövlətçiliyinin rəmzi, poeziya bayramı bu torpaqda Azərbaycan dilinin əbədi təntənəsinin rəmzidir".

Önəmli bir faktın - 1978-ci ildə Heydər Əliyevin səyi nəticəsində dəyişdirilmiş Azərbaycan Sovet Sosialist Respublikasının Dövlət Himni məsələsi üzərində dayanmaq istəyirəm. 1945-ci ildə Səməd Vurğun və Süleyman Rüstəmin müəllifliyilə yaradılmış Azərbaycan Sovet Sosialist Respublikasının Dövlət Himninin sözlərinin müəlliflər cərgəsinə Hüseyn Arifin də qoşulmasıyla 1978-ci ildə yeni redaksiyada işlənildi. Qəribədir, Stalinin adı Azərbaycan himnindən məhz 1978-ci ildə çıxarıldı. "Rəhbərimiz Stalindir - bizim həyat növrağımız" misrası Azərbaycan himninin mətnindən Stalindən 25 il sonra məhz Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə çıxarıldı ki, bu da tarixi bir qanunauyğunluğun göstəricisiydi.

Azərbaycanın dəyərlərini tanıtdırmaq və 1937-ci ildə ziyalılığın sındırılmış vüqarını dirçəltmək, reabilitasiya etmək Heydər Əliyev diplomatiyasının çıxış nöqtəsini təşkil etmişdir. Nə qədər gerçəkləşə bildi bu missiya? Zənnimcə, bütün hallarda bənzərsiz fədakarlıq nümunəsi meydana qoyuldu. Hər halda istər ölkə daxilində gedən siyasi proseslərə, məhəlli ziddiyyətlərə, istərsə də dünya siyasətində Azərbaycana qarşı aparılan əks-təbliğatlara, mürəkkəb diplomatik çəkişmələrə baxmayaraq və onlara önəm verməyərək Heydər Əliyev SSRİ kimi nəhəng imperiyanın daxilində Azərbaycanın müstəqilliyə aparan yollarını aydınlaşdırdı.

Bu məqamda bir məsələni də vurğulamağa ehtiyac var. Heydər Əliyev yalnız qorumurdu, yalnız himayə etmirdi, yalnız cəsarət aşılamırdı. O, həm də sahib çıxmağı bacarırdı. Gücünün yetdiyi qədər milli-mənəvi dəyərlərin qorunmasına çaba göstərirdi. Bu barədə əlbəttə, kifayət qədər təcrübə və bacarıq sahibi idi, amma bununla yanaşı (və daha əsas!), millətinə və xalqına can yanğısı vardı. Böyük şairimiz Məhəmməd Füzuli ilə bağlı Heydər Əliyevin qatlaşdığı çətinliklər və onun bu istiqamətdə əzmkar fəaliyyəti fikirlərimizə əyani sübutdur. Heydər Əliyevin böyük Azərbaycan şairi Məhəmməd Füzulinin qəbrinin qorunması və məqbərəsinin tikilməsi ilə bağlı gördüyü çöxyönlü işlər - SSRİ XİN qarşısında qaldırdığı məsələ, Bağdaddakı səfirlik ilə yazışmaları, ölkə ziyalıları ilə danışıqları və sair bu kimi yorulmaz, inadlı və əzmkar mübarizələri bu siyasi liderdən hər cür yüksək məzmunda danışmağa əsas verir.

Bir neçə faktın üzərində dayanmaq istəyirəm. 1959-cu ildə Bəxtiyar Vahabzadənin "Gülüstan" poeması çap olundu. Poema çap olunan kimi ciddi rezonans doğurdu, müəllifini həbs olunmaq təhlükəsi gözləyirdi. Niyə? Çünki ilk dəfə olaraq, orada azadlıq, milli dil, milli varlıq problemləri qoyulmuşdu və sovetin qılıncının at oynatdığı bir zamanda belə məqamlara varmaq bağışlanmırdı. Heydər Əliyev bu zaman dövlət təhlükəsizliyi orqanlarında çalışırdı. Vəzifəsindən irəli gələn səlahiyyəti isə millətin milli-mənəvi dərdlərinin tərcümanı olmağa, onun ehtiva olunduğu məqamları qorumağa imkan verirdi. Çıxışlarında həmin məsələ ilə bağlı fikirləri var. Deyir ki, "mən hələ Dövlət Təhlükəsizliyi Komitəsində işləyən zaman Bəxtiyar Vahabzadənin həbs olunması məsələsi meydana çıxmışdı. "Gülüstan" poemasını yazmışdı. Ondan ötrü o zaman həbs etmək məsələsini qoymuşdular. O vaxt mən onu xilas etdim, qoymadım həbs olunsun. Nəinki qoymadım, onunla dəfələrlə söhbətlər apardım, öz məsləhətlərimi verdim. Belə bir insan o vaxtlar böyük fəlakət qarşısında idi. Nəyə görə? Heç bir cinayət yox idi. Ona görə ki, millətini sevirdi, millətin qayğıları haqqında yazılar, şeirlər yazırdı".

Yaxud yazıçı Mövlud Süleymanlının "Dəyirman" povesti. "Qırx ilin yeddi görüşü" əsərində yazıçı Mövlud Süleymanlı qeyd edir ki, "o zaman mənim "Dəyirman" povestim təzə çıxmışdı. Əsər böyük səs-küyə səbəb oldu, Yazıçılar Birliyində povest ətrafında geniş müzakirə aparıb amansız tənqidlərə məruz qoydular. Daha sonra yazıçılar əsəri götürüb Heydər Əliyevin yanına gediblər. Heydər Əliyev soruşub ki, nə var bu əsərdə. Deyiblər ki, sovet ideologiyasına zidd məqamlar var, hələ yoldaş Əliyev, altından xətt də çəkmişik, əsərdə 73 ədəd söyüş yer alıb. Heydər Əliyev altından xətt çəkilmiş sözün birini oxuyub və gülərək deyib, baho, ona qalsa, gərək rus xalqı Şoloxovu məhkəməyə verə".

Heydər Əliyev ədəbiyyatı sevməklə bərabər, yeri gələndə yazıçını yazıçıdan qoruyurdu, himayə edirdi, azad sözün, azad düşüncənin yanında dayanırdı. Bəlkə də bütün sənət adamlarını tək-tək tanıyaraq ona hamilik edir, arxasında durmaq kimi ümdə vəzifələri həyata keçirirdi. Böyük ədəbiyyatşünas alim Yaşar Qarayev "Müstəqillik dövrünün milli öndəri" məqaləsində yazır ki, "60-cı illərə qədər Azərbaycanda "dissident" olmaq mümkün idi. Yəni şair və yazıçıların buna "imkanları" var idi. 1969-cu ildən sonra bu imkan aradan qaldırıldı. Bəziləri təəccüb edir ki, niyə Azərbaycanda "altmışıncıların" sandıqdan, yasaqdan çıxan əsərləri olmadı? Çünki sandığa ehtiyac olmadı. Hətta Moskvada, mərkəzi jurnallarda çap edə bilmədikləri əsərlərini yazıçılar Bakıda çap edirdilər..."

1980-cı ilin 27-31 oktyabrında Heydər Əliyev "Ədəbiyyatların dostluğu - xalqların dostluğudur" adı ilə Bakıda Ümumittifaq konfransı təşkil etdi. Dünyanın bir çox ölkələrindən ora şair və yazıçılar dəvət olunub. Məruzəçi də özü oldu. Ədəbiyyatşünas alim İmamverdi Əbilov "Dünənin, sabahın çağdaş dahisi" kitabında yazır ki, "məhz həmin konfransdakı nitqi ilə Heydər Əliyev etnos-millət-bəşəriyyət bağlılığının harmoniyasına yeni istiqamətdə aydınlıq gətirdi. O, sadəcə, nitq söyləmədi, Şərq-Azərbaycan mədəniyyətinin mədəni dünya üçün nadir sərvət olduğunu, mənəvi missiya daşıdığını qonaqlara məharətlə aşıladı. Mirzə Fətəli Axundzadənin "Şərq poeması"ndan, Səməd Vurğunun "Zamanın bayraqdarı" əsərindən parçalar söylədi - həm azərbaycanca, həm də rusca. Vyaçeslav Sukaçev, Aleksandr Smerdov, Vasili Bıkov, Aqniya Barto, Zoya Kedrina, kubalı və hindistanlı qonaqlar salondakı təntənəli sükutdan, tükənməz alqışlardan heyrətə düşmüşdülər. Yanaşı əyləşdiyim hindistanlı yazıçı Prakaş Bharti çətin danışdığı rus dilində mənə qəribə sual verdi:

- Ваш руководител поет или прозаик?

Yəni qonaq, ölkə rəhbərinin yazıçı olduğuna tam inanmışdı, indi isə onun hansı sahə üzrə yazıb-yaratdığını bilmək istəyirdi.

Heydər Əliyev unikal yaddaşa sahib şəxsiyyət idi. Turan Cavidin xatirələrində bu böyük insanla bağlı mühüm faktlar yer alır. Bu faktlarla Azər Turanın "Cavidnamə" əsərindən tanış olmaq mümkündür: "1983-cü ildə Moskvadan yayda istirahət üçün Bakıya gəlmişdi Heydər Əliyev. 1983-ün 24 sentyabrında Azdramada "İblis"ə baxmağa gəldi. Tamaşadan sonra müzakirədə əsəri elə dəqiq təhlil elədi ki... İkinci dəfə 1984-cü ildə sentyabrın 15-də Rus Dram Teatrında "Şeyx Sənan"a baxdı, rəhmətlik Zərifə xanımla birgə. Birinci hissədən sonra məni qonaq otağına çağırdı və içəri girən kimi, "tamaşada bir neçə obrazı ixtisar ediblər", - söylədi. Düz deyirdi. Sonra isə musiqidən danışdı. Fikrətin musiqisini çox təriflədi və kor ərəbin mahnısını ifa elədi, sözləri və melodiyanı dəqiq ifa edirdi. Təəccüb ediləcək bir hal idi. Dramaturgiyanı yaxşı bilirdi, duyurdu. O, Cavidi Şekspirlə deyil, Höte ilə müqayisə etməyin tərəfdarıydı. "Faust"la "İblis"i müqayisə edirdi".

## Özünəqayıdışın Cavid intibahı

Heydər Əliyev siyasətinin dissident ruhu 1982-ci ildə daha bir müdhiş hadisə ilə nəhayətsiz miqyas aldı. Böyük Azərbaycan şairi Hüseyn Cavidin nəşinin Sibir çöllərindən vətənə gətirilməsi haqda sərəncam verdi Heydər Əliyev. Bu hadisəni Heydər Əliyevin siyasi fəaliyyətinin şah əsəri saymaq olar. Axı söhbət 1937-ci ilin repressiya dalğasının güdaza verdiyi faciə qəhrəmanından gedirdi. 1982-ci il, sovet dövrü hələ bitməmişdi, heç buna işarələr belə yox idi. Rəsmi sənədlər üzərində bəraətlər verilib, amma düşüncədə hələ də repressiya havası, qorxusu, ürpərtisi, həyəcanı davam edirdi. Dildə repressiyaya məruz qalanlar haqda gerçəklər tüğyan edirdi, amma kağız üzərində yanlış elmi-ədəbi yalanlar meydan sulayırdı. Çünki xof hələ çəkilməmişdi, ideoloji yanlışlığa uğrama qorxusu gerçəklərdən daha öndə idi. Heydər Əliyev bu addımı ilə gerçəyi qorxulardan önə çıxartdı, Cavidin nəşini vətənə qaytarmaqla elə ilk növbədə, qorxunun üzərindəki örtüyü götürüb atmağa müvəffəq oldu.

1982-ci ildə Cavidin qayıdışı ilə milli mədəniyyətin yeni epoxası başlayır. Bu artıq türkçülüyə, turan əxlaqına dönüş idi!

Cavidin nəşinin niyə məhz Naxçıvanda basdırılması da ayrı özəlliyi ilə diqqət çəkir. Nəriman Həsənzadənin xatirələrində buna əmin oluruq: "Bir də Təbriz nisgili var idi Heydər Əliyevin. Hüseyn Cavidin nəşini uzaq Sibirdən vətənə gətirmişdi. Cavidi niyə Naxçıvanda basdırmaq istədi, burda yox? Söhbət gedirdi bu barədə həmin ərəfələr. Mən yanında durmuşdum, kimlərləsə söhbət edəndə dedi elə Naxçıvan yaxşıdı ki, Təbrizdən gələndə onu ziyarət eləyib gələcəklər. Bura qədər dərin düşünürdü Heydər Əliyev".

Cavidlə bağlı missiya bununla yekunlaşmır. Həmin vaxt Heydər Əliyevin göstərişi ilə Naxçıvanda Hüseyn Cavidə məqbərə tikilməsi qərara alınır. Lakin 1982-ci ildə respublikadan gedəndən sonra bu yöndə heç bir iş görülmür. Liderin 1993-cü ildə ölkəyə rəhbər kimi qayıdışından sonra işlərə yenidən təkan verilir. Naxçıvanda Hüseyn Cavidin əzəmətli məqbərəsi hazırlanır. Bu gün həmin məqbərədə Cavidlər ailəsinin - Cavidin, Mişkinazın, Ərtoğrulun və Turan Cavidin məzarları yan-yanadır.

* * *

1980-ci illər... Heydər Əliyev hakimiyyətdən uzaqlaşdırıldı. Meydanda isə 1970-1980-ci illərin - Heydər Əliyev zamanının reallaşdırdığı gerçəklər sırası vardı. Ölkə və xalq adına görülən nəhayətsiz əməllərin özülünün qoyulduğu mərhələ vardı. Hamının və hər kəsin vurğulayacağı bu gerçəyin üzərinə tarix yenidən qayıdacaqdı. Çünki 1970-1980-ci illərin milli özünüdərk mərhələsi Heydər Əliyevin müəyyənləşdirdiyi əxlaqi-milli-mədəni aktın müstəsna modeli idi. Cari prosesin, yazılan əsərlərin, bütöv ədəbi hərəkatın ideya zəmini rolunda çıxış edən aparıcı sima oldu Heydər Əliyev. Sovet epoxası daxilində bütün ölkə miqyasında sosial-tarixi, ədəbi-estetik qanunauyğunluqlarla müasir ədəbiyyatın özünün bədii-fəlsəfi ənənəsi arasında əlaqə, körpü rolunu Heydər Əliyev icra etdi. Ədəbiyyatın uzun illərin mənəvi təmassızlığından sonra yeni bir bədii-fəlsəfi zirvədən keçmişə, özünə qayıtma dövrü məhz Heydər Əliyevin payına düşdü. Bu mərhələ milli özünüdərk, milli mənlik şüurunun dirçəldilməsinə canatım illəri kimi Heydər Əliyevin simasında dolğun mövcudluğunu yaşadı. Bu mənada, 1960-1980-ci illər ədəbiyyatında Heydər Əliyev obrazı həmişə dominantdır. Onu yetirir, stimul verir, poetikasından tutmuş problematikasına qədər alt məqamda iştirak edir. Bu, Heydər Əliyev ədəbiyyatıdır!

## Xilaskarlıq missiyası

Hakimiyyətinin ikinci mərhələsində də Heydər Əliyev inadla millətin yaddaş kultuna sədaqətinin bərpa edilməsi prosesini gerçəkləşdirmişdir. 1990-cı illərdə dahi şairimiz Məhəmməd Füzulinin 500, Mirzə Cəlilin 128, ilk möhtəşəm söz abidəmiz olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin elmi ictimaiyyət tərəfindən beynəlxalq səviyyədə keçirilməsi ədəbi irsə layiqli münasibətin izharına ən yaxşı nümunə olmaqla yanaşı, dövlət başçısının hansı məsələlərdə dəstək aradığını, mənəvi ülfət tapdığını bəlli edir. Daha sonra bu missiya klassik sənətkarlarımızın taleyinə münasibətdə davamını tapmağa başladı. Klassiklərimizin yubileylərinin keçirilməsi barədə sərəncamlar imzalayan Heydər Əliyev qeyd edirdi ki, "Respublikamızın bu ağır dövründə böyük yubileylər keçirilməsi, şübhəsiz ki, müəyyən qədər çətinliklərlə üzləşəcək. Ancaq bunlara baxmayaraq, həyatımızın mənəvi sahəsi heç vaxt unudulmamalıdır. Çətinliklər nə qədər çox olsa da, mədəniyyətə, mədəni irsimizə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik". Yaxud bir müsahibəsində bildirirdi ki, "Elmimizlə, mədəniyyətimizlə çox ehtiyatlı davranmalıyıq. Belə şeyləri bazar iqtisadiyyatının ayağına vermək olmaz".

Məhəmməd Füzulinin bütün əsərləri (külliyyatı) altı cilddə nəşr edildi. Haqqında sanballı elmi monoqrafiyalar, tədqiqat əsərləri ortaya qoyuldu. Yubileyi həm Azərbaycanda, həm bütün türk-islam aləmində, həm də Rusiya və Avropada böyük təntənə ilə keçirildi.

1990-cı illərdə yenidən hakimiyyətə gələn Heydər Əliyevin müasir ədəbiyyat kontekstində yerinə yetirdiyi "yaradıcılıq" missiyasının realizəsi bir tərəfdən klassik ədəbiyyatı yaşatmaqla bağlı idisə, digər tərəfdən çağdaş ədəbi prosesi gəlişdirmək məqsədilə atılan bir sıra addımlarla əlamətdar oldu. Yaradıcılıq aləminə yeni istedadlı müəlliflərin gəlməsində rol oynayan, sonradan maddi çatışmazlıqlar ucbatından uzun fasilələrlə işıq üzü görən, hətta bağlanmaq təhlükəsi ilə üzüzə duran ədəbi orqanların: "Azərbaycan", "Literaturnı Azərbaycan", "Ulduz", "Qobustan" jurnallarının və "Ədəbiyyat qəzeti"nin ölkə prezidentinin xüsusi qərarı ilə müntəzəm surətdə dövlət büdcəsindən maliyyələşdirilməsi ədəbi prosesin gəlişməsində əsaslı rol oynadı.

## Heydər Əliyev zamanı

"Zaman keçir, hər şey durulur və Heydər Əliyevin 40 illik siyasi yaradıcılığı bu gün müstəqillik təntənəsini yaşayan Azərbaycanımızın əsasını təşkil edir. Biz desək də, deməsək də, Azərbaycanda inkişaf etmiş, böyümüş, artmış, tikilmiş, yenidən qurulmuş hər nə varsa, onun adıyla bağlıdır! Bunu danmaq mümkün deyil... Bu tarixdir!", - yazır yazıçı Mövlud Süleymanlı. Heydər Əliyevdən bəhs edən bütün mətnlər, əslində, bu məqama israrlıdır: Heydər Əliyev tarixdə qalıcı şəxsiyyətdir. Öyünə biləcəyimiz TƏKlərdəndir!

* * *

Biz Ümummilli Liderin vətən, yurd, xalq adına gördüyü nəhayətsiz əməllərdən bəhs etdik. Amma Heydər Əliyevin ən dəyərli əsərlərindən biri Azərbaycan Prezidenti İlham Əliyevdir. Heydər Əliyevin uğurlu siyasi kursunun bariz örnəyi!

Bu gün Heydər Əliyev həm də İlham Əliyevin simasında yaşayır, əbədi davam edən tarixə çevrilir. 44 günlük Zəfər salnaməsinin hər səhifəsində Heydər Əliyevin rolu, gücü, iradəsi olduğu danılmaz faktdır. Çünki Heydər Əliyevin hakimiyyətdə olduğu dövrlərdə qazandığı ən böyük nailiyyət məhz buna yetmək olmuşdur: milli varlığın idrak məqamına! O, dövlətin rəmzinə çevrilmiş ilk siyasi lider oldu və kifayət qədər ibrətamizdir ki, belə bir hadisə Azərbaycan tarixində ilk dəfəydi ki, baş verirdi. Belə hadisələri isə tarix sonradan təshih etmir. Çünki yüz illər keçəndən sonra tarix daha çox həqiqətin dilində danışır.

Heydər Əliyev Azərbaycanın siyasət dilini dünyaya təlim edən ilk azərbaycanlı oldu. Bu mənada, yüz illər keçəndən sonra da tarix Azərbaycan barədə qurucunun, baninin, Ümummilli Liderin, yəni Heydər Əliyevin üslubunda danışacaq!

***Elnarə AKİMOVA,***
***Milli Məclisin deputatı,***
***YAP İdarə Heyətinin üzvü,***
***filologiya elmləri doktoru***

1923 Azərbaycanın özü qədər əbədi 2025

# Tənəzzüldən tərəqqiyə

## Ulu Öndər Heydər Əliyev idmanın inkişafını dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevirdi





**Sovet dövründə Azərbaycanda bütöv bir idman ənənəsi formalaşmışdı. İstər fərdi, istərsə də kollektiv idman növlərində fərqlənən idmançılarımız dünya və ittifaq miqyasında tanınırdılar. Amma müstəqilliyimizin ilk illərində ölkəmizin düşdüyü böhranlı vəziyyət idmanı da tənəzzülə uğratmışdı. İdmana münasibət son dərəcə aşağı səviyyədə idi və unudulmuş sahələrdən birinə çevrilmişdi. Bunun obyektiv səbəbləri olsa da, subyektiv səbəbləri daha çox idi. İdman meydançalarının və zalların ayrı-ayrı adamların əlinə keçməsi, idman avadanlıqlarının dağıdılması 1991-1993-cü illərdə geniş vüsət almışdı.**

İdmanın tənəzzüldən xilas olması və inkişaf etdirilməsi üçün, şübhə yox ki, ilk növbədə, dövlətin idmana münasibətində dəyişklik yaranmalı idi. Belə dəyişiklik 1993-cü ilin ikinci yarısında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xilaskarlıq missiyasını öz üzərinə götürməsindən sonra başlandı.

### Olimpiya hərəkatında dirçəliş

Xalqın tələbi ilə hakimiyyətə qayıdan böyük şəxsiyyət Heydər Əliyev ölkədəki xaosu sabitliyə çevirəndən sonra, tezliklə idmanı yenə diqqət mərkəzinə gətirdi. Bununla da idmana münasibət kökündən dəyişdi. İdmanın inkişafı, gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinin gücləndirilməsi məsələləri dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrildi.

1993-cü ildə müxtəlif sahələri təmsil edən bir qrup gənci qəbul edərək, onların arzu və istəklərini dinləyən, gəncliyin və idmanın dövlətin qayğısına ehtiyacının olduğunu deyən Heydər Əliyev bədən tərbiyəsi və idmanın geniş vüsətlə inkişafı üçün şəraitin yaradılacağını bildirmişdi. Məhz bu baxımdan, sözügedən sahənin bir mərkəzdən idarə olunması, dövlətin gənclər və idman siyasətinin həyata keçirilməsi üçün Heydər Əliyevin 26 iyul 1994-cü ildə imzaladığı fərmanın böyük tarixi əhəmiyyəti var idi. Bu fərmanla respublikamızda Gənclər və İdman Nazirliyi yaradıldı. 1994-cü il ölkəmizin idman həyatında dönüş ili oldu. Həmin ildən müstəqil Azərbaycan dövləti idmana və bədən tərbiyəsinə sahib çıxdığını, bu sahənin dövlət siyasətində önəmli yer tutduğunu rəsmən bəyan etdi.

Nazirliyin yaradılması ilə bərabər, idmançıları sevindirən digər məqam Ulu Öndərin "İdmana xüsusi qayğını öz üzərimə götürürəm. Əmin olun ki, siz bu qayğını daim hiss edəcəksiniz" deməsi oldu. Doğrudan da, o gündən sonra idmançılarımız bu qayğını həmişə öz üzərlərində hiss etdilər. Vətənin bayrağını, şərəfini hər şeydən üstün tutaraq, beynəlxalq arenada bir-birindən möhtəşəm qələbələrə yol açdılar. Təkcə idmançılar deyil, bütün idman ictimaiyyəti bu qayğı və diqqəti hiss etdi və bunu heç vaxt unutmadı.

Heydər Əliyev idman potensialını üzə çıxarmaq, bundan səmərəli istifadəni təmin etmək məqsədilə bu sahəyə xüsusi diqqətlə yanaşırdı. O, vaxtaşırı idmançılarla görüşür, onlarla səmimi ünsiyyətdə olur və qayğıları ilə maraqlanırdı. Hələ ötən əsrin 70-ci illərində Azərbaycanın adlı-sanlı idmançılarını dəfələrlə qəbul edərək onların problemləri ilə birbaşa məşğul olması yaddaşlara əbədi həkk olundu. Müstəqillik illərində də, yenidən hakimiyyətə qayıtdıqdan sonra da bu ənənəni davam etdirən Heydər Əliyev, ölkə həyatının o vaxt üçün daha önəmli olan taleyüklü məsələləri ilə gecə-gündüz məşğul olmasına baxmayaraq, vaxt tapıb idman və bədən tərbiyəsi sahəsinin inkişafını diqqətdən kənarda qoymurdu.

Heydər Əliyev Azərbaycanda idmanın kütləviliyinə nail olmaq, bədən tərbiyəsi və idmanı geniş coğrafi məkanda inkişaf və təbliğ etdirmək, yüksək nailiyyətlər əldə etmək və dünyaşöhrətli idmançılar hazırlamaq üçün bu sahədə birbaşa məşğul olan qurumlar qarşısında bir sıra məsələlərin reallaşdırılması vəzifəsini qoymuşdu. Bunlar mövcud idman bazalarının, stadionların, idman qurğularının qorunması, bərpa edilməsi və çağdaş dünya tələblərinə cavab verən yenilərinin inşası, onların idman avadanlıq və ləvazimatları ilə təchiz edilməsi, idman məktəblərində, klublarında yeni bölmələrin açılması və fəaliyyətinin genişləndirilməsi, Azərbaycan çempionatlarının keçirilməsi, idmançıların beynəlxalq yarışlara hazırlığının və bunlarda iştirakının təmin edilməsi, yüksək nəticələr əldə etmiş idmançıların mükafatlandırılması, digər ölkələrlə idman əlaqələrinin və əməkdaşlığın gücləndirilməsi, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi və yeniləşdirilməsi, məşqçi və müəllimlərin peşəkar səviyyələrinin artırılmasından ibarət idi.

Ulu Öndərin dövlətimizə rəhbərlik etməsi bütün sahələrlə bərabər bədən tərbiyəsi və idmanın qayğıları ilə gündəlik maraqlanması idmançılarımıza yüksək əhvali-ruhiyyə bəxş edir, bu istiqamətdə həyata keçirilən tədbirlər onları daha böyük səylə mübarizə aparmağa ruhlandırırdı. Elə bunun nəticəsi idi ki, idman nailiyyətlərinin qazanılması istiqamətində yaranmış müəyyən boşluqdan sonra 1994-cü ildə Azərbaycan idmançıları rəsmi beynəlxalq yarışlarda 12 qızıl, 15 gümüş və 22 bürünc medal qazandılar.

Heydər Əliyev yuxarıda qeyd edilən bütün bu tədbirlərin həyata keçirilməsini təmin etmək, sürətləndirmək məqsədilə 1995-ci il martın 5-də verdiyi fərmanla Azərbaycanda idman fondu yaratdı. İdman fondunun olması ölkəmizdə sağlam həyat tərzinin təbliğ edilməsinə, uşaq və yeniyetmələrin idmana kütləvi surətdə cəlb edilməsinə, bu sahəyə marağın artmasına, maddi-texniki bazanın möhkəmləndirilməsinə, Azərbaycan idmanının beynəlxalq idman ailəsinə inteqrasiya olunmasına təminat verdi. İdmanın inkişafı üçün prezident fondundan əsaslı vəsait ayrıldı.

Heydər Əliyev əldə edilmiş nəticələrlə vaxtaşırı ciddi maraqlanır, idmançı və məşqçilərin əməyini yüksək dəyərləndirirdi. Əldə edilmiş nailiyyətləri təhlil edən və bu uğurların qazanılmasında əzmlə, bacarıqla çalışmış idmançı və məşqçilərin zəhmətini yüksək qiymətləndirən Ulu Öndər Heydər Əliyev, elə həmin ilin mart ayında fərman imzalayaraq bir qrup idmançı və mütəxəssisi "Şöhrət" ordeni və "Tərəqqi" medalı ilə təltif etdi. Həmin gün, yəni 1995-ci il martın 5-də Bakı Əl Oyunları Sarayında ölkəmizin milli yığma komandalarının XXVI Yay Olimpiya Oyunlarına hazırlığını nümayiş etdirmək məqsədilə keçirilən idman baxışında iştirak edən Ulu Öndər yüksək nailiyyətlər əldə etmiş idmançıların və onların məşqçilərinin, eləcə də idman xadimlərinin işinə yüksək qiymət verərək respublikada bədən tərbiyəsi və idmanın bütün qayğılarını öz üzərinə götürdüyünü bir daha bəyan etdi.

Heydər Əliyev Bakı Əl Oyunları Sarayındakı çıxışı ilə bütün idmançılara yeni mübarizlik, iradə və qətiyyət aşıladı. İdmançı və mütəxəssislərə təqdim etdiyi dövlət mükafatları ilə Heydər Əliyev həm də müstəqil, gənc Azərbaycan dövlətində bu yeni ənənənin əsasını qoydu.

Normal şərait yaradılması ilə bərabər, idmançılara maddi və mənəvi dəstəyin də mühüm rol oynadığını gözəl bilən Ümummilli Lider onların sosial problemlərinin həllini həmişə diqqət mərkəzində saxlayırdı. İdmançı və mütəxəssisləri, idman xadimlərini yüksək dövlət mükafatlarına, prezident təqaüdünə layiq görməsi, Atlanta və Sidney qəhrəmanları ilə hərarətli görüşü və onları səmimi təbrik etməsi, hər il Avropa və dünya çempionatlarından uğurla dönən idmançıların dövlət tərəfindən mükafatlandırılması barədə tapşırığı idman ailəsinin bütün üzvlərini bu böyük şəxsiyyətin, doğma vətən və xalq üçün alovlu ürək sahibinin gördüyü işlər onları hələ neçə-neçə illər öz əməlləri ilə cavab verməyə səsləyirdi.

### İdmanda yüksəliş erası

Unutmayaq ki, 1992-1997-ci illərdə Milli Olimpiya Komitəsinin (MOK) fəaliyyəti heç də istənilən səviyyədə deyildi və qənaətbəxş sayıla bilməzdi. Çünki bu sahədə fəaliyyət planı lazımi səviyyədə qurulmamışdı.

Həmin dövrdə MOK qarşıda duran ümdə vəzifələrin həyata keçirilməsi üçün kənarda qalmamalı, aparıcı rol oynamalı idi. Təəssüf ki, MOK belə bir mövqe tuta bilmədi, ümumən, qurumun fəaliyyətinin ilk beşilliyi dövründə Milli Olimpiya Hərəkatında durğunluq hökm sürdü. Belə bir vəziyyət isə ölkə rəhbərliyini, idman ictimaiyyətini qane etmirdi. Çünki Olimpiya Oyunlarında yüksək nəticələr göstərmək lazım idi.

MOK-un 1997-ci il iyulun 31-də keçirilmiş növbəti Baş Məclisində bütün məsələlərin müzakirəsi zamanı bəlli oldu ki, istedadlı idmançılarımızın, məşqçi və mütəxəssislərimizin bir qismi ölkədən gedib, idmançıların məşq və yarışlarda iştirakı, onların sosial vəziyyəti acınacaqlı haldadır. MOK-un nəinki beynəlxalq idman qurumları ilə, hətta ölkənin idman təşkilatları ilə belə əlaqəsi yox idi.

Bu vəziyyətlə barışmayan Baş Məclis MOK İcraiyyə Komitəsinin yeni tərkibini seçdi. Səsvermə nəticəsində həmin vaxt Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Məclisin deputatı olan İlham Əliyev MOK-un prezidenti seçildi.

Elə ilk günlər göstərdi ki, MOK çox düzgün və qətiyyətli addım atır. Komitə ilk növbədə mövcud durumu düzgün qiymətləndirməklə idmanımızı dirçəltməyin yollarını dəqiq müəyyənləşdirib hərəkətə keçdi. Olimpiya hərəkatının real vəziyyəti öyrənildi, mövcud problemlər aşkara çıxarılaraq araşdırıldı.

İlham Əliyevin rəhbərliyi altında Milli Olimpiya Komitəsinin görməli olduğu işlər həddən artıq çox idi. Bunların sırasında beynəlxalq əlaqələrin qurulması və genişləndirilməsi olduqca vacib rol oynayırdı. Qarşıya çıxan bütün problemləri bacarıqla həll edən İlham Əliyev Olimpiya hərəkatının məqsəd və vəzifələrini, fəaliyyət sisteminin ardıcıl istiqamətlərini də müəyyənləşdirdi.

Beləliklə, İlham Əliyevin MOK-un prezidenti seçilməsindən sonra ölkədə bədən tərbiyəsi və idman geniş vüsət aldı, respublikamız beynəlxalq Olimpiya hərəkatına qoşuldu, bu sahədə sistemli şəkildə işlər görüldü.

### Dahi şəxsiyyətin layiqli davamçısı

Ümummilli Lider Heydər Əliyevin inkişaf strategiyasını dövrün çağırışlarına adekvat şəkildə daha da zənginləşdirib onu real həyatda böyük uğurla tətbiq edən İlham Əliyevin rəbhərliyi altında son 22 ildə Azərbaycan tərəqqi parametrlərinə görə bu gün dünya liderləri ilə bir cərgədə addımlayır. Azərbaycan Prezidenti istər daxili, istərsə də xarici siyasətdə tutduğu mövqe, həyata keçirdiyi fəaliyyət sayəsində ölkəmizi daim zirvələrə yüksəldir. Bunların fonunda Azərbaycan mövcud olduğu regionda lider ölkə statusunu möhkəmləndirməklə yanaşı, dünya miqyasında daha böyük nüfuz sahibinə çevrildi.

Məhz Prezident İlham Əliyevin sayəsində Azərbaycan dünyada ağalıq iddiasında olan böyük dövlətləri, netokratiyanın, yeni əsrin məhsulu olan infoimperializmin tədqiqat obyekti olmaqdan, onun əyalətlərindən birinə çevrilməkdən xilas oldu. Əksinə, Azərbaycanla hesablaşıldı, onun mövqeyi mütləq mənada nəzərə alındı. Ən əsası isə Azərbaycan xalqı beynəlxalq müstəvidə cərəyan edən proseslər nəticəsində yaranan mürəkkəb konfiqurasiya şəraitində cənab İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində tarixi Qələbəsini qazandı, düşməni ərazisindən rədd etdi. Müzəffər Ali Baş Komandanın iradəsi, ordumuzun şücaəti, dövlətimizn qüdrəti işğal faktına son qoydu, tarixi torpaqlarımız yenidən əsl sahiblərinə qovuşdu. Bu, artıq kimsənin dəyişə bilməyəcəyi yeni mühüm reallıqdır.

İşğaldan azad edilən ərazilərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün dünyaya səs salan abadlıq-quruculuq işlərinə başlanılıb, qısa zaman kəsiyində bu istiqamətdə böyük məsafə qət edilib. Bu yerlərdə dövrümüzün ən qabaqcıl tələblərinə cavab verən, qabaqcıl texnologiyaların tətbiqi ilə yaradılan modern infrastruktur həm işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialından səmərəli istifadə edilməsində, həm də oraya qayıdacaq insanların normal həyat şəraiti ilə təmin olunmasında mühüm rol oynayır.

Həyata keçirilən abadlıq-quruculuq işlərinin müəllifi olan İlham Əliyev bərpa prosesinin, müvafiq infrastrukturların ərsəyə gəlməsi ilə bağlı layihələrin icrasına şəxsən nəzarət edir. Dövlətimizin başçısı postmüharibə dövründə dəfələrlə işğaldan azad olunan ərazilərdə səfərdə olub, burada müxtəlif infrastruktur obyektlərinin təməlini qoyub, bəzilərinin isə açılışını edib. Prezident İlham Əliyev azad olunmuş ərazilərin bərpası, yenidən qurulması prosesində yenə dünya üçün nümunə olacaq bir konsepsiya həyata keçirir.

Vətən müharibəsindən sonra işğaldan azad edilən ərazilərdə zəruri infrastrukturun yaradılması indi ən müxtəlif istiqamətləri əhatə edir. Bu yerlər üçün hazırlanan və artıq bəzilərinin, konkret halda təqdimatı olan Ağdamın baş planından belə bəlli olur ki, həmin ərazilərdə ən müasir tələblərə cavab verən idman infrastrukturunun qurulması da əsas diqqət mərkəzində yer alır.

Azərbaycanda modern idman infrastrukturunun yaradılması istiqamətində çoxsaylı vacib layihələr həyata keçirilib, mühüm tədbirlər görülüb və hazırda bu proses böyük bir vüsətlə davam edir.

### Qarabağ idman mərkəzinə çevrilib

Təkcə bir faktı qeyd etmək kifayətdir ki, beynəlxalq Olimpiya hərəkatının fəal üzvlərindən olan Azərbaycanda onlarla Olimpiya-İdman kompleksləri inşa olunub, digər idman obyektlərində əsaslı yenidənqurma işləri aparılıb. Bunun nəticəsidir ki, Azərbaycanın idman infrastrukturu ölkəmizə çoxsaylı beynəlxalq idman yarışlarına evsahibliyi etmək imkanı qazandırır. İndi yeni Olimpiya-İdman komplekslərinin, digər idman müəssisələrinin inşa olunacağı əsas məkanlardan biri məhz işğaldan azad edilən ərazilər olacaq.

Bu günlərdə Mingəçevirdə və işğaldan azad olan Suqovuşanda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilmiş "Prezident Kuboku-2025" beynəlxalq reqatasına yekun vurulub. "Kür" Olimpiya Tədris-İdman Mərkəzində təşkil olunan yarışın son günündə müxtəlif məsafələrə kayak-kanoe və akademik növdə mübarizə baş tutub. Turnirdə Azərbaycanla yanaşı, Estoniya, Gürcüstan, Almaniya, Yunanıstan, Macarıstan, Hindistan, Qazaxıstan, Qırğızıstan, Latviya, Litva, Moldova, Polşa, Serbiya, Cənubi Afrika Respublikası, İspaniya, Tacikistan, Türkiyə, Ukrayna və Özbəkistanı təmsil edən idmançılar müxtəlif məsafələr üzrə qüvvələrini sınayıblar.

Yarışların son günündə İvan Vorobyanski/Hüseyn Həsənov cütlüyü (2009-2010) 200 metr məsafəyə kayak yarışında gümüş, eyni yaş kateqoriyasında Vacib Babayev/Nuran Rəhimli tandemi isə bürünc mükafata sahib çıxıb.

Eyni növdə Əziz Əhmədli/Kamal Tağıyev cütlüyü (2011-2012) ikinci, Sənan Cəfərzadə/Tahir Mövsumov dueti (2011-2012) isə üçüncü yeri tutub. Nurlan Paşayev/Cahangir Məmmədli cütlüyü (2006-2007) akademik avarçəkmədə fəxri kürsünün ikinci pilləsinə qalxıb. Elvin Əliyev/Niyaz Malikov cütü (2007-2008) kanoe qayığında 200 metr məsafəyə yarışı üçüncü sırada bitirib.

Beləliklə, Azərbaycan avarçəkənləri turniri 15 medalla başa vurublar. Milli komandanın üzvləri daha əvvəl 1 qızıl, 3 gümüş və 5 bürünc medal əldə ediblər.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*




# Konstitusiya və Suverenlik İli 2025



# Dövlətin təməl sütunları

**Prezident İlham Əliyev hər il xalqın həyatında, düşüncəsində və identikliyində əhəmiyyətli rolu olan bir tarixlə bağlı sərəncam imzalayır. Bununla dövlət başçısı ictimaiyyətin, o cümlədən ziyalıların diqqətini istər tarixi şəxsiyyət olsun, istərsə də ölkənin bu günündə və gələcəyində həlledici bir məqamın mahiyyətinə yönəldir.**

İl ərzində fikir və qələm sahibləri onu hərtərəfli öyrənməklə, tədqiq etməklə bir tərəfdən öz kimliyində hansısa keyfiyyətləri təsdiqləmiş, hətta kəşf etmiş olur, digər tərəfdən varislik prinsipini qoruyaraq onu gələcək nəslə ötürür. 2025-ci il Azərbaycan xalqının canı və qanı ilə qoruduğu suverenliyinin və onun təsdiqi olan Ali Qanunun - Konstitusiyanın ili elan edildi.



### Konstitusiya - suverenliyin güzgüsü

Antik dövrdən bu günə kimi öz müstəqilliyini bəyan edən xalq mütləq bu addımın sabitliyini qoruyan qanunu da təsdiq edir, möhürləyir. Hazırda qüvvədə olan Konstitusiyamız sayca dördüncü hesab edilsə də, o, suveren Azərbaycanın ilk Ali Qanunudur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə - 1918-1920-ci illərdə onu qəbul etməyə macal tapılmamışdı. 1921-ci, 1925-ci və 1978-ci illərdə qəbul edilən konstitusiyalar isə SSRİ-nin, yəni daxil olduğu imperiyanın ali qanununa uyğunlaşdırılmışdı. 1991-ci ildə də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilsə də, yeni Konstitusiya yazılmadı. Prezident İlham Əliyev bunu həmin dövr ölkədə hökm sürən vəziyyətlə izah edir: "1991-1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır". Başqa sözlə desək, suverenlik aktı qəbul edilsə də, onu təsdiqləmək iradəsi hələ yox idi, möhkəmlənməmişdi. Təsadüfi deyil ki, məhz həmin vaxtlarda Azərbaycan öz ərazisinin böyük hissəsini itirdi, ölkə dərin maddi və mənəvi böhran içində idi, xalq suverenliyini deyil, sabahını belə düşünməkdə çətinlik çəkirdi, dərin bir ümidsizlik içində idi.

20 sentyabr 1994-cü ildə Bakıda "Əsrin müqaviləsi" bağlandı - Azərbaycan lider ölkələrlə eyni sırada öz imzasını qoydu, öz sözünü dedi və öz varlığını təsdiqlədi. Bunun möhürü kimi 1995-ci ildə suveren Azərbaycanın ilk Konstitusiyası Ulu Öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanıb təqdim edildi. Əslində, bununla suverenliyə və Ulu Öndərin də dediyi kimi, "müstəqilliyin əbədi və dönməz olduğuna" inamla səs verildi və yekdilliklə onu qorumağa məsul edildi. Onun özünün də dediyi kimi, "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun".

Bu tarixi və taleyüklü Ali Qanunun qəbulunun tam 25-ci ildönümündə Azərbaycan Vətən müharibəsində torpaqlarını işğaldan azad etdi. 2024-cü ildə isə Prezidentin sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edildi. Başqa sözlə desək, Konstitusiya və Suverenlik bir-birini tamamladı. Bunun məntiqi davamı olaraq, Prezident İlham Əliyevin də dediyi kimi, "Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir".

### Konstitusiya - ədalətin güzgüsü

Konstitusiyanın fəlsəfi mahiyyətindən belə məlum olur ki, o, hər mənada - əqidə, vicdan, hərəkət, düşüncə azadlığının legitimləşməsidir. Söhbət hər hansı Konstitusiya maddələrinin hərfi mənasından deyil, onun insan həyatındakı inikasından gedir. Alman filosofu Kant deyir: "İnsan necə də zəifdir, çünki qanuna tabedir, amma insan həm də çox ucadır, çünki o qanunu özü yazır". Məntiqlə əgər qanun insanın öz yazdığına tabe olmaqdırsa, bu qanunu nə qədər yüksək mənəviyyatlı, azad düşüncəli, təmiz əqidəli biri yazarsa, yaxud yazılmağına nəzarət edərsə, bir o qədər insanlar uca və dəyərli qanunlara baş əymiş olacaqlar. Deməli, hər Konstitusiya - qanun-insan qarşılığının, tandeminin inikasıdır və bunu özündə əks etdirməlidir.

Aristotelin dediyinə görə, əksər konstitusiyaların müəllifləri praktiklik baxımdan uğursuzluğa düçar olurlar, çünki əslində, o, artıq var olan şərait əsasında qurulan bir sistem olmalıdır. Başqa sözlə desək, ali sənəd yalnız nəzəriyyə kimi tərtib ediləndə gerçək həyatla ilk qarşılaşmada onun uğursuzluğu ortaya çıxır. Konstitusiyaların təhlilindən belə məlum oldu ki, onlar iki əsas simanın inikası olur: onun tərtibinə rəhbərlik edənin və kimə xidmət edirsə, onun. Ulu Öndərin dediyi kimi, "Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir". Əgər tərtib edən öz maraqlarını üstün tutursa, həmin Konstitusiyanın ömrü də onun ömrü qədər olur, hakimiyyət dəyişən kimi, Ali Qanun da aliliyini itirir. Əgər tərtib edən xalqın, dövlətin ruhunu anlaya bilirsə, onun marağını daha üstün görürsə, onun ömrü elə xalqın ömrü qədər olur, hətta arada dövrün tələblərinə uyğun olaraq müəyyən düzəlişlər edilsə belə ana xətt, əsas mahiyyət toxunulmaz qalır. Məhz bu halda Konstitusiya həm dövlətin suverenliyinin təsdiqi, həm də xalqın söykəndiyi möhkəm dayaq rolunu oynaya bilir. Ümummilli Lider Heydər Əliyev demişdir: "Konstitusiya Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü təmin edən Konstitusiyadır və əminəm ki, bu, daimi olacaqdır. Xalqımız bu Konstitusiyanın müddəalarından istifadə edərək Azərbaycanın dövlət müstəqilliyini əbədi edəcəkdir. Yeni Konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün əsaslar yaratmış, bütün təminatları vermişdir. Bizim borcumuz bu təminatlardan, Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir".

Deyilənlərdən məntiqli və əsaslı bir nəticə alınır: Konstitusiyanı yazan xalq kimliyini, bütün spesifik xüsusiyyətlərini nəzərə aldığı halda aliləşir, çünki təməldə dövlət-xalq vəhdəti durmalıdır. Bu, bir tərəfdən həmin Konstitusiyanın uzunömürlüyünün təminatı hesab edilir, digər tərəfdən xalqın öz Ali Qanununa hörməti möhkəmlənir.

Hər hansı qanunu onun aid olduğu sahənin adamları əzbərləyir, yeri gəldikcə tətbiq edir. Konstitusiya isə əzbərlənəcək kitab deyil, hər gün yaşanan, hətta mexanikləşən bir qanunauyğunluqdur. Bunu qəbul etməyən, anlamayan insan bir vətəndaş kimi kimliyini, azadlığını tanımır. Prezident İlham Əliyev bildirmişdir: "Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüz illər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir". Bu mənada demək olar ki, Konstitusiyanın dərki insanı məhz bir fərd çərçivəsindən çıxarıb vətəndaşa çevirir, cəmiyyətin həyatında müəyyən məsuliyyət daşıdığını, eyni zamanda hüquqlarının olduğunu ona öyrədir. Daha vacibi isə həmin vətəndaşa başlıca missiyasını izah edir: bu torpaq, bu tarix və bu dövlətin gələcəyi sahib olduğun qədər sənindir.

### Konstitusiya - iradənin güzgüsü

Rəsmi olaraq Konstitusiya dövlətin siyasi, hüquqi və iqtisadi sistemlərinin əsaslarını müəyyən edən normativ hüquqi akt olaraq tərif edilir. Nəzəri baxımdan isə o, xalq və dövlət arasında müqavilə hesab edilir. Məsələyə nisbətən fərqli rakursdan baxanda onu həm də iradənin güzgüsü kimi görmək mümkündür.

Ali Qanunda öz əksini tapan prinsiplər, hüquqi normalar, əslində, xalq və dövlətin iradəsinin kəsişmə nöqtəsini ifadə edir. Albert Eynşteynin yazdığına görə, Konstitusiyanın gücü bütünlüklə hər vətəndaşın onu qorumaq əzmindədir. Maraqlıdır ki, hər nə qədər müəyyən məsələlərdə anlaşılmazlıq, hətta narazılıq yaşansa da, məhz həmin nöqtədə tam razılaşma mövcuddur. Hətta dövlət Konstitusiyada dəyişiklik etmək istəyəndə də səs hüququ olan hər vətəndaş məhz ümumxalq referendumunda öz münasibətini bildirməlidir.

Bununla yanaşı, Konstitusiya həm də dövlət və xalq birliyinin iradəsinin göstəricisidir. Başqa sözlə desək, xalq və dövlətin keşiyində durduğu Vətənə, onun suverenliyinə təhlükə yarananda, yaxud onun inkişafı üçün güclər birləşdirilməli olanda hər Ali Qanun hər iki ideyanın vəhdətinin ifadəsinə çevrilir. Prezident İlham Əliyev demişdir: "Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır".

Məsələnin maraqlı tərəflərindən biri də budur ki, istər işğal dövründə, istər 44 günlük müharibədə, istərsə də sonra ölkə ərazisinin və suverenliyinin bərqərar edilməsi üçün atılan addımların hər birində Konstitusiya maddələri əsas tutulurdu. Məhz belə yanaşmanın məntiqli əks-sədası kimi işğalçını öz gələcək mənfur niyyətindən birdəfəlik çəkindirmək üçün Azərbaycan tərəfi ondan öz Konstitusiyasında bunun qarşısını almağı tələb edir. Bu, artıq iki dövlətin deyil, öz ərazisinin bütövlüyünü qoruyanla işğalı özünə ali məqsəd hesab edən iki konstitusiyanın qarşılaşmasıdır. Eyni zamanda onların arxasında duran iki iradənin üz-üzə gəlməsidir. Əslində, bu iradənin gücünü qarşı tərəf gördüyünə görə, konstitusiyaların qarşılaşmasında da hansının üstün gələcəyini təxmin etmək çətin deyil.

Cənab İlham Əliyev 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməklə bir neçə məsələni aktuallaşdırıb. Birincisi, insanlara həm özünə, həm də tabe olduğu, müdafiə etdiyi, eyni zamanda aliləşdirdiyi qanuna təkrar baxmaq imkanı verib. İkincisi, bu Ali Qanunun işığında hər insanı özünü bir vətəndaş kimi dəyərləndirməyə çağırıb. Nəhayət, üçüncüsü, bu Ali Qanunun sahibi olan xalqın kimliyini, tarixini düşünməyə vaxt verib. Əslində, bunların hər biri hər zaman üzərində dayanılmalı olan məsələlərdir, sadəcə Prezident bu sərəncamla bütün bunların həm də dövlət üçün əhəmiyyətini önə çəkib.

*Könül BÜNYADZADƏ,*
*AMEA-nın müxbir üzvü*

# Bakıda "İctimai proseslər media müstəvisində" mövzusunda forumun açılış mərasimi keçirilib



**Mayın 2-də Bakıda Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "İctimai proseslər media müstəvisində" mövzusunda forumun açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, forumun keçirilməsində məqsəd medianın maarifləndirici funksiyasının və ictimai rəyin formalaşmasında proaktiv həssas rolunun artırılması, mediadan müxtəlif aktual məsələlərə qarşı mübarizədə düzgün istifadə, həssas məlumatların cəmiyyətə müəyyən prinsiplərə uyğun şəkildə ötürülməsi, media, dövlət qurumları və digər tərəflər arasında koordinasiyanın təkmilləşdirilməsidir.

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, həmçinin Vətən uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Sonra "Konstitusiya və Suverenlik İli"nə həsr edilmiş videoçarx nümayiş olunub.

Mərasimdə çıxış edən Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov ölkəmizin media gündəminin aktual əhəmiyyət kəsb edən ictimai məzmunlu məsələlərinin müzakirəsini hədəfləyən forumun artıq ikinci ildir dövlət-media dialoqunu formalaşdıran səmərəli platforma kimi fəaliyyət göstərdiyini vurğulayıb. 2025-ci ilin Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edildiyini xatırladan icraçı direktor bildirib ki, Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı misilsiz xidmətləri sırasındadır.

Ə.İsmayılov həmçinin qeyd edib: "Son illərdə media və kommunikasiya fəaliyyətinin müasir formada təşkil edilməsinin nəticəsidir ki, ölkəmizə qarşı qarayaxma kampaniyaları aparan tərəflərin həqiqi niyyətləri yerli mediada operativ formada ifşa olunur, cəmiyyətdə neqativ xəbər axınına qarşı dayanıqlı təbii müqavimət - informasiya immuniteti gücləndirilir".

İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva bildirib ki, hüquqi dövlət quruculuğunun əsas prinsiplərindən birini müstəqil medianın mövcudluğu, fikir, söz və mətbuat azadlığı təşkil edir. Media cəmiyyətin hüquqi maariflənməsində, baş verən proseslər barədə məlumatların operativ və obyektiv formada ictimaiyyətə çatdırılmasında, bununla da ictimai rəyin formalaşdırılmasında əhəmiyyətli rol oynayır. Media eyni zamanda effektiv ictimai nəzarət vasitəsi kimi çıxış edir. Onun sözlərinə görə, son illər rəqəmsal texnologiyalara sürətli keçid, media mühitinin müasirləşməsi və bu qəbildən olan digər innovasiyalar keyfiyyətcə yeni media mühitini formalaşdırmaqdadır. Lakin bu transformasiya fonunda bəzi ciddi risklər də meydana çıxa bilər. Onlar sırasında dezinformasiya, nifrət nitqi, şəxsi həyatın toxunulmazlığına müdaxilə, rəqəmsal təqib, kiberzorakılıq, təhsildən yayındırma, zərərli sahələrə meyillilik, aqressiv davranışlara səbəb olma halları ilə bağlı risklər xüsusilə qeyd olunmalıdır.

Ali Məhkəmənin Kollegiya sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Sənan Hacıyev çıxışında diqqətə çatdırıb ki, məhkəmə fəaliyyətinə dair informasiyanın açıqlığı öz növbəsində xüsusi yanaşma tələb edən məsələlər dairəsinə aiddir. Belə ki, bu, istənilən məlumata deyil, vətəndaşların şəxsi həyatına toxunmayan, o cümlədən şəxsi və ailə sirri təşkil etməyən məlumatlara əlçatanlığı nəzərdə tutur. Bu baxımdan, fikir və söz azadlığından istifadə edilərkən digər şəxslərin şərəf və ləyaqətinə, şəxsi həyat toxunulmazlığına qanunsuz müdaxilənin yolverilməz olduğu diqqətdən kənarda qalmamalıdır.

Onun sözlərinə görə, media məkanında şəxslərin şərəf və ləyaqətinin müdafiəsi məsələlərinə müəyyən qədər diqqət ayrılsa da, təəssüf ki, vətəndaşların şəxsi həyatının toxunulmazlığı, şəxsi və ailə sirri kimi konstitusion hüquqlarının qorunması ilə bağlı vəziyyət heç də ürəkaçan deyil. Belə ki, xüsusən televiziya verilişlərində bu hüquqlara qanunazid müdaxilə adət halı alıb. Göstərilənlər nəzərə alınaraq, bu istiqamətdə müvafiq hüquqi tənzimləmənin həyata keçirilməsi məqsədilə yaxın zamanda Ali Məhkəmə tərəfindən mühüm qərarların qəbulu nəzərdə tutulub.

Konstitusiya Məhkəməsinin hakimi Kamran Şəfiyev çıxışında qeyd edib ki, Azərbaycanda hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirilən islahatlar ölkəmizdə siyasi, iqtisadi və hüquq sisteminin köklü dəyişdirilməsindən ibarət olmaqla, dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edib. Azərbaycan Konstitusiyasında sosial ədalət konsepsiyası geniş formada öz əksini tapıb. Burada iqtisadiyyatın azad inkişafına təminat verməklə ölkənin hər bir vətəndaşının rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin təmin edilməsi funksiyası olaraq dövlətin üzərinə qoyulub.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov bildirib ki, ölkəmizdə rəqəmsal inkişaf sahəsində atılan mühüm addımlar media məkanında tərəqqi və müasir tələblərə uyğunlaşma üçün münbit şərait yaradır. Bu yaxınlarda uğurla həyata keçirilmiş onlayn layihələr, internet sahəsində qazanılan nailiyyətlər informasiyaya əlçatanlığı əhəmiyyətli dərəcədə artırıb, ucqar bölgələrdə yaşayan vətəndaşların da müxtəlif mənbələrdən operativ məlumat əldə etmələrinə şərait yaradıb.

Vurğulayıb ki, rəqəmsal media ictimai nəzarət, şəffaflıq və sosial məsuliyyət funksiyalarını daha da gücləndirməklə yanaşı, alternativ informasiya mənbələrinin formalaşmasına və ictimaiyyətin məlumatlara çıxışının təmin edilməsinə töhfə verir. İnsanların gündəlik həyatında uğura, müsbət davranış modelinə və düzgün həyat tərzinə nail olmalarında media böyük rol oynayır.

Forum işini "Konstitusiya və Suverenlik İli"ndə media gündəmi", "Nəqliyyat infrastrukturunda davamlı həllər media müstəvisində", "Təhlükəsiz rəqəmsal media mühiti: məlumatlı istifadəçilər" mövzularında panel sessiyaları ilə davam etdirib.

# Dövlətimiz istənilən təhdidi vaxtında aşkara çıxarmağa və qarşısını almağa tam qadirdir



**Milli Məclisdə "Azərbaycanın media resurslarına 20 fevral hücumları: kibermüdaxilədən dezinformasiyaya" mövzusunda ictimai müzakirə keçirilib.**

Mayın 2-də Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının "Azərbaycanın media resurslarına 20 fevral hücumları: kibermüdaxilədən dezinformasiyaya" mövzusunda ictimai müzakirəsi keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, müzakirədə Milli Məclisin deputatları, ölkənin beyin mərkəzlərinin nümayəndələri, media və vətəndaş cəmiyyətinin təmsilçiləri, kibertəhlükəsizlik sahəsində mütəxəssislər, ekspertlər və digər şəxslər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan müvəqqəti komissiyanın sədri Ramid Namazov bildirib ki, cari il fevralın 20-də ölkə ərazisində fəaliyyət göstərən bir sıra aparıcı media resurslarına qarşı kiberhücumlar həyata keçirilib. Budəfəki hücumlar əvvəlkilərdən miqyası və istifadə edilən vasitələr baxımından fərqlənib. Bu hücumlar nəticəsində Azərbaycanda fəaliyyət göstərən ondan çox aparıcı media resursuna qarşı koordinasiyalı və siyasi motivli kiberhücumlar həyata keçirilib.

Aparılan araşdırmalar nəticəsində bu hücumların ölkəmizdə indiyə qədər qeydə alınmış ən ciddi kibermüdaxilə hadisələrindən biri olduğu məlum olub. İlkin nəticələrə görə, hücumlar zamanı əsasən xüsusi xidmət orqanları tərəfindən geniş istifadə olunan "saxta bayraq" (false flag) əməliyyatlarının tətbiq edildiyi müəyyənləşib.

Kiberhücumun mənbəyi barədə danışan müvəqqəti komissiyanın sədri diqqətə çatdırıb ki, kiberhücum aktının təhqiqatı bir-birindən asılı olmayan iki müstəqil peşəkar komanda tərəfindən aparılıb və əldə olunan nəticələr üst-üstə düşüb. Araşdırma çərçivəsində sistem qeydləri və zərərverici proqram izləri təhlil edilib, hücum edənlərin davranış analizi aparılıb. Nəticədə hücumların yüksək səviyyədə təşkilatlanmış, yalnız texniki deyil, eyni zamanda da psixoloji təsir yaratmağa yönəlmiş kibercasus qrupu tərəfindən həyata keçirildiyi məlum olub. Qeyd olunub ki, bu qrup beynəlxalq kibertəhlükəsizlik mütəxəssisləri tərəfindən dövlətə bağlı aktor kimi təsnif edilir.

Diqqətə çatdırılıb ki, bu kiberhücumlar üçün təhrikedici bəhanə kimi bəzi media resurslarının həmin məsələlərlə bağlı süjetlər və araşdırma materialları hazırlamalarından istifadə edilib. Əsas məqsəd media sahəsindəki etibara zərbə vurmaq və rəqəmsal təhlükəsizliyi sarsıtmaq olub. Hücumun məqsədi bir qədər öncə baş vermiş bu hadisələrə görə iz buraxmadan qisas almaq niyyəti daşıyıb.

Bununla yanaşı, kiberhücumlar zamanı "saxta bayraq" əməliyyatlarına bənzər üsullardan istifadə olunaraq qeyri-qanuni hesab edilən qruplaşmaya məxsus loqo və "Qurani-Kərim"dən ayələrin yer aldığı təxribat xarakterli şəkillərin hücuma məruz qalan saytlar üzərindən yayıldığı və bununla da izlərin çaşdırılmasına cəhd edildiyi müəyyən olunub.

Paralel şəkildə, bir sıra xarici media resurslarında ölkəmizin media resurslarına qarşı DDoS hücumlar həyata keçirildiyinə dair dezinformasiya kampaniyasının aparıldığı da aşkarlanıb. Halbuki nə "Global Media Group", nə də digər müvafiq qurumlar tərəfindən həmin gün və sonrakı dövrdə kiberhücumun növü ilə bağlı hər hansı rəsmi açıqlama verilməyib.

Kiberhücum barədə ətraflı məlumat verən "Global Media Group"un İdarə Heyətinin üzvü Orxan Məmmədov baş vermiş insident və müzakirə olunan mövzu ilə bağlı fikirlərini bildirib.

Sonra hadisələrin xronologiyası barədə danışan Ramid Namazov deyib ki, hücumun əsas hədəfi "Global Media Group"a daxil olan resurslar olub. Hadisə zamanı qrupun daxili infrastrukturu zərərverici proqramla yoluxdurulub, sistem inzibatçısına məxsus kompüter ələ keçirilib və ehtiyat nüsxələrin saxlanıldığı serverə giriş təmin edilib. Hücum nəticəsində veb-server məlumatları məhv edilib, ehtiyat nüsxələr silinib və infrastruktura giriş məhdudlaşdırılıb. Eyni zamanda diqqətə çatdırıb ki, hücuma məruz qalan media resurslarının kibertəhlükəsizliyinin təmin edilməsi məqsədilə aidiyyəti qurumlar tərəfindən dərhal müvafiq addımlar atılıb.

Bildirilib ki, hücum zamanı istifadə olunan IP ünvanları və domenlər müəyyən edilib. Araşdırmalar nəticəsində məlum olub ki, hücumların bir hissəsində ölkədaxili IP ünvanlarından da istifadə olunub. Bununla belə, həmin şəxslərin Azərbaycan vətəndaşı deyil, əcnəbi olduqları qeyd olunub.

Ekspertiza nəticəsində istər hücum zamanı istifadə edilən texniki üsullar, istərsə də davranış modelləri hücumun xarici ölkə ilə əlaqəli xüsusi qrupa məxsus olduğu aşkar edilib. Bu qrup xüsusi əhəmiyyətli kiberəməliyyatlar həyata keçirən mütəşəkkil dəstədir. Kibercasusluqla məşğul olan bu qrupun fəaliyyəti əsasən hökumət qurumlarını, xarici diplomatik nümayəndəlikləri, habelə siyasət, müdafiə, enerji, media və digər kritik sahələri hədəf almaqdan ibarətdir. İş metodlarına gəlincə isə, bir çox üsullardan, kibermüdaxilə alətlərindən istifadə edirlər. Onlardan biri də uzun müddət öncədən hədəfin sistemlərinə daxil olaraq, orada möhkəmlənmək və lazım olan anda hərəkətə keçməkdən ibarətdir. Məhz tətbiq etdikləri bu metod və siyasi məqsəd daşıyan motivləri onları digər kibercinayətkar qruplardan fərqləndirir.

Tədbirdə Milli Məclisin deputatları Zaur Şükürov, Rizvan Nəbiyev, Sevil Mikayılova, Nigar Məmmədova, Rasim Musabəyov, Nurlan Həsənov, Samir Vəliyev, Əminə Ağazadə çıxış ediblər. Onlar qeyd ediblər ki, kiber məkanda casusluq, təxribat və dezinformasiya kampaniyaları genişlənməkdədir. Kiberhücumlar hadisələri manipulyasiya etmək üçün əsas vasitələrə çevrilir. Millət vəkilləri son zamanlar Azərbaycanın yaratdığı yeni reallıqları həzm edə bilməyən qüvvələr tərəfindən ölkəmizə qarşı hibrid təhdidlərin intensivləşdiyini və bu təhdidlərin media resurslarına kiberhücumlar şəklində də özünü göstərdiyini bildiriblər. Deputatlar rəqəmsallaşmanın sürətlə yayıldığı bir dövrdə kiberhücumlardan qorunmağın aktuallığını vurğulayıblar, bu sahədə maarifləndirmənin və insanların zəruri vərdişlərə yiyələnməsinin əhəmiyyətini qeyd ediblər. Bildirilib ki, kiberhücumların qarşısının alınması üçün mövcud hüquqi və texniki imkanların təkmilləşdirilməsi vacibdir.

Çıxış edənlər media subyektlərinə kiberhücumların qarşısının alınması, bu istiqamətdə müvafiq cavab tədbirlərinin həyata keçirilməsi, media işçilərinin kiberhücumlarla mübarizəyə dair təlimlərə cəlb edilməsi ilə bağlı fikirlərini bölüşüblər, qeyd və təkliflərini səsləndiriblər.

Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının sədri Ramid Namazov müzakirələrdə səslənən fikirləri ümumiləşdirərək media resurslarının kibertəhdidlərdən qorunması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi, o cümlədən bu sahədə qanunvericiliyin təkmiləşdirilməsi, media subyektlərinin kibertəhlükəsizlik biliklərinin və bacarıqlarının artırılması ilə bağlı bəzi tövsiyələri səsləndirib.

Ramid Namazov əlavə edib ki, dünyanın ən güclü kibercasus qruplarından biri tərəfindən həyata keçirilmiş bu hücumun icraçılarının dəqiq şəkildə müəyyənləşdirilməsi informasiya təhlükəsizliyi sahəsində milli maraqlara əsaslanan siyasətin uğurla həyata keçirildiyini bir daha təsdiqləyir. Sonda vurğulanıb ki, dövlətimiz formasından asılı olmayaraq istənilən təhdidi vaxtında aşkara çıxarmağa, qarşısını almağa və onu neytrallaşdırmağa tam qadirdir.

*"Azərbaycan"*

# Məhkəmədə Ermənistanda yüksək vəzifələr tutmuş şəxsin qondarma rejimdə "nazir vəzifəsinə" təyin olunduğu açıqlanıb



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası mayın 2-də davam etdirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmə prosesi zərərçəkmiş şəxslərin ifadələri və sualları cavablandırması ilə davam etdirilib.

Zərərçəkmiş şəxs, Qaradağlı kənd sakini Rafiq Quliyev Ermənistan silahlı qüvvələrinin kəndə hücumlar etməsi, mülki şəxsləri və avtobusları atəşə tutması, azərbaycanlılara işgəncə verilməsi, onların qətlə yetirilməsi və s. barədə danışıb və kəndin işğalı ilə bağlı sualları cavablandırıb.

"Bizə deyirdilər ki, Qarabağ ermənilərindir, çıxın gedin", - deyə R.Quliyev qeyd edib.

O, Qaradağlı kəndi işğal olunan zaman özünün, atasının və anasının Ermənistan hərbçiləri tərəfindən girov götürüldüyünü bildirib. Zərərçəkmiş şəxs kəndə hücum edənlər arasında muzdluların da olduğunu deyib.

R.Quliyev baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında özünün, atası Əlastan Quliyevin digər azərbaycanlılarla birlikdə "KamAZ"lara yığılaraq Xankəndiyə aparıldığını, yolda "Bəylik bağı" adlanan yerdə maşını saxlayaraq girovların bir qisminin qətlə yetirildiyini bildirib.

Zərərçəkmişin atası Ə.Quliyev bir müddət girovluqda qalandan sonra Ermənistan hərbçilərinin verdiyi işgəncələr nəticəsində ölüb. "Anam 13 gün girovluqda saxlanıldıqdan sonra qaytarıldı. Mən isə 45 gündən sonra girovluqdan azad edildim. Girovluqda olan zaman bizi hər gün axşam döyürdülər. Hər gün bir tikə çörək, azca su verirdilər ki, ölməyək, sağ qalaq. Amma işgəncə verməkdə davam edirdilər", - deyə o əlavə edib.

R.Quliyev yaralı ola-ola ona işgəncə verildiyini də vurğulayıb.

Zərərçəkmiş şəxs, Xocavənd rayonunun Axullu kənd sakini Namik Hüseynov təqsirləndirilən şəxsləri televiziya vasitəsilə tanıdığını söyləyib. Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandırarkən o, vaxtilə Hadrutda kinomexanik işlədiyini, 1988-ci ildən Qarabağın Azərbaycandan ayrılaraq Ermənistana verilməsi barədə erməniəsilli əhali arasında təbliğatların başlandığını bildirib.

N.Hüseynov 1989-cu il sentyabrın 25-də qanunsuz erməni silahlı birləşmələrinin azərbaycanlıların məktəbinə hücum etməsi və həmin vaxt yaralanması barədə də danışıb: "Gördüm İsanı öldürəcəklər, mən də yaxınlaşdım. İndiki kimi yadımdadır, qırmızı geyimdə beş nəfər çıxdı. Orada bizi vəhşicəsinə döydülər. Bu barmağımı görürsünüz? Onu həmin vaxt sındırdılar. Başımı partlatmışdılar, sonradan 13 tikiş qoyuldu".

Zərərçəkmiş şəxs, Qaradağlı Kənd Xalq Deputatları Sovetinin sədri olmuş Cavay Hüseynov ifadəsində Ermənistan silahlı qüvvələrinin kəndə dəfələrlə hücum etməsindən və özünün yaralanmasından danışıb. Zərərçəkmiş bildirib: "İnsanlar təsərrüfatla, heyvandarlıqla məşğul idilər. Onlar heç bir müharibə, münaqişə istəmirdilər".

C.Hüseynov Qaradağlı kəndinin ətrafındakı yaşayış məntəqələrinin sakinlərinin erməniəsilli olduqlarını, 1990-cı ilin noyabrından başlayaraq Qaradağlıya giriş-çıxışda ciddi maneələrin yarandığını bildirib. Bu səbəbdən də Qaradağlıya ərzaq vertolyotlarla daşınırmış. Zərərçəkmiş qeyd edib ki, bir müddət sonra Ermənistan silahlı qüvvələri vertolyotların da hərəkətinə imkan verməyib. 1992-ci il yanvarın 9-da o, Ağdamdan Qaradağlı kəndinə ərzaq gətirərkən vertolyot Ermənistan hərbçiləri tərəfindən atəşə tutulub.

C.Hüseynov kəndin "Alazan" raketləri, pulemyotlar və avtomatlar ilə mütəmadi şəkildə atəşə tutulduğunu, nəticədə ölənlərin və yaralananların olduğunu bildirib.

Zərərçəkmiş şəxs dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zaman 1992-ci il yanvarın məlumatlarına istinad edərək həmin vaxt Qaradağlı kənd sakinlərinin sayının 1166 nəfər olduğunu söyləyib.

Məhkəmə prosesində zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri də elan edilib.

Fasilədən sonra təqsirləndirilən şəxs Davit İşxanyan Xocavənd rayonunun işğalı ilə bağlı dövlət ittihamçılarının suallarını cavablandırıb. O, Xocavənd rayonunun Heşan kəndində dünyaya gəldiyini, həmin kənddə əhalinin 600-650 nəfər olduğunu bildirib. O, bacısının və Qriqori İşxanyan adlı qardaşının olduğunu vurğulayaraq deyib: "Qriqori təxminən 1988-1990-cı illərdə Levon Mirzoyan adına kolxozun mühasibi olub".

O, suallara cavabında Emil Balayanı tanıdığını, onun kolxoz sədri olduğunu deyib və əlavə edib: "Amma qardaşım mühasib olanda rəhbər deyildi, sonradan kolxoza rəhbər təyin olundu".

Növbəti suallara cavabında isə o, 1991-ci il iyunun 26-27-də Qaradağlı kəndində olmadığını iddia edərək bildirib: "İyunun 26-da gələcək həyat yoldaşımın ad gününü qeyd etmək üçün Xankəndiyə getmişdim".

Bu zaman prosesdə Emil Balayanın 1991-ci il iyunun 28-də istintaqa verdiyi ilkin izahat elan edilib. E.Balayan həmin izahatında azərbaycanlıların yaşadıqları Qaradağlı kəndindəki fermaya hücum üçün necə hazırlaşdıqlarını, hücumda kimlərin iştirak etdiyini açıqlayıb, hücum edənlərin özü ilə yanaşı, Balayan Emil Vartanoviç, Avakyan Armin Rodikovic, Qabrilyan Monik Aramoviç, İşxanyan Araik Yeqoroviç, Arapityan Armin Arzikovic, İşxanyan Davit Rubenoviç, Koçaryan Davit Maksimoviç, Qriqoryan Andranik Karlenovic, İşxanyan Qriqori Rubenoviç, Koçaryan Aras Maksimovic, Sevumyan Vrenik Karlenoviç olduqlarını bildirib və əlavə edib: "Bütün bunlara başçılıq edən Valodiya Xaçaturyan idi".

D.İşxanyan baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin ünvanladığı növbəti suallara cavabında 1992-ci ilin sentyabrında hərbi xidmətə çağırıldığını, daha sonra 28-ci "Xocavənd batalyonu"nda tabor komandiri təyin olunduğunu bildirib. Təqsirləndirilən şəxs "Xocavənd müdafiə rayonu"nun komandirinin Monte Melkonyan, müavininin isə Movses Akopyan olduğunu deyib.

"Taborumda 430-480 hərbçi var idi. Digər taborlarda say daha az və ya daha çox olurdu. Tapşırıqları qərargahdan alırdım. Taborun sərəncamında qumbaraatanlar, pulemyotlar, "Kalaşnikov" avtomatları var idi", - deyə o əlavə edib.

D.İşxanyan Ağdərənin yuxarı hissəsinin işğalı əməliyyatında, Kəlbəcər rayonu istiqamətində Çərəkdarın və Xudavəngin, Füzuli rayonunun iki istiqamətində, o cümlədən Aşağı Veysəlli istiqamətində kiçik bir yüksəkliyin işğalında iştirak etdiyini bildirib.

Təqsirləndirilən şəxs "Emil Balayanın sizinlə ədavəti var idimi ki, sizin və qardaşınızın adını çəksin" sualına cavab verməkdən yayınaraq bildirib ki, o, şənbə və bazar günləri kənddə növbə çəkilməsi ilə məşğul olub.

Bu zaman dövlət ittihamçısı Vüsal Əliyev elan edib ki, digər erməniəsilli şəxslər (Aleksandr Qriqoryan və digərləri) də E.Balayanın ifadəsinə bənzər ifadələr verib, eyni adları çəkiblər.

Ardınca təqsirləndirilən şəxs Levon Mnatsakanyan Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandırıb. O, 2015-2018-ci illərdə Azərbaycanın vaxtilə işğal altında olmuş ərazilərində qondarma rejimin "müdafiə ordusunun komandanı" vəzifəsini, buna qədər isə hərbi sahədə bir sıra vəzifələr tutduğunu təsdiqləyib. O, qondarma rejimin "ordusu"nda xidmətə 1992-ci ilin sentyabrında başladığını bildirərək qeyd edib: "Motoatıcı taborun komandirinin müavini vəzifəsində başladım".

O, Xocavənd əməliyyatlarında iştirak etmədiyini, Xocalıda isə, ümumiyyətlə, ilk dəfə 1990-cı illərin ikinci yarısında olduğunu deyib.

Təqsirləndirilən şəxs bildirib ki, 1992-ci il oktyabrın 2-də Şuşa rayonunun Şırlan kəndində yerləşən tabora gedərkən yaralanıb.

Levon Mnatsakanyan Azərbaycanın Şuşa şəhərinin işğalı əməliyyatına rəhbərlik etmiş "Komandos" ləqəbli general-mayor Arkadi Ter-Tadevosyanı Ermənistanda xidmət etdiyi zaman tanıdığını deyib. Bildirib ki, həmin vaxt Arkadi Ter-Tadevosyan ordu üçün mütəxəssis hazırlayırdı.

Təqsirləndirilən şəxs Arkadi Qukasyan dövlət ittihamçılarının suallarına cavabında Xocavəndin işğalında və Qaradağlıdakı qətliamlarda hansı qüvvələrin iştirak etməsi barədə məlumatsız olduğunu iddia edib.

O, Aşot Qulyan və Monte Melkonyan ilə şəxsən tanış olmadığını da iddia edib.

A.Qukasyan dövlət ittihamçısı Fuad Musayevin həmin adamları tanımadan onları qondarma rejimin "qəhrəmanı" adı ilə təltif etməsi barədə suala isə konkret cavab verə bilməyərək, bununla bağlı "komissiya"nın təqdimatının olduğunu söyləyib.

O, Artur Aqabekyanla təxminən 1994-1995-ci ildən sonra tanış olduğunu və onu 1999-cu ildə qondarma rejimin "daxili işlər naziri" "təyin" etdiyini bildirib.

"Bildiyim qədərilə Ermənistan Müdafiə Nazirliyində xidmət edirdi", - deyə A.Qukasyan əlavə edib.

Xatırladaq ki, A.Aqabekyan 2000-2007-ci illərdə Ermənistan Respublikası müdafiə nazirinin müavini olub, habelə Ermənistanda bir sıra digər yüksək vəzifələrdə çalışıb.

Məhkəmənin növbəti iclası mayın 5-nə təyin olunub.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə erməniəsilli 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Azərbaycana yüksək nüfuz gətirən siyasət



**Ötən iki onillik ərzində böyük inkişaf yolu keçən, milli maraqları qətiyyətlə təmin edən Azərbaycan cənab İlham Əliyevin yürütdüyü siyasət sayəsində dünyanın hər yerindən görünən, beynəlxalq səviyyədə hər addımı maraqla və diqqətlə izlənilən, əksər ölkələrin qarşılıqlı hərtərəfli əlaqələr qurmaq üçün çalışdığı nüfuzlu ölkəyə çevrilib. Cənubi Qafqazın aparıcı aktoru olan ölkəmiz, həm də beynəlxalq arenada oynadığı fəal rolla, yeni və ədalətli dünya nizamının qurulması istiqamətindəki çağırışları, bu yöndə atdığı əməli addımlarla böyük rəğbət qazanıb.**

Əlverişli geosiyasi coğrafiyada yerləşən, Avropa və Asiyanı birləşdirən Azərbaycanda məhz Prezident İlham Əliyevin şəxsi diqqəti və nəzarəti ilə yaradılan münbit zəmin respublikamızı beynəlxalq enerji, nəqliyyat qovşağına çevirib. Şimalla Cənubu, Şərqlə Qərbi birləşdirən nəhəng dəhlizlərin gerçəkləşməsi də Azərbaycanın səylərinin bəhrələridir desək, yanılmarıq.

Bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi və müxtəlif qütblər arasında, bir-birinə zidd ölkələrlə tarazlığa dayanan, balanslaşdırılmış siyasət, sözün əsl mənasında, ərazicə kiçik olsa da, Azərbaycanı dünyanın tək-tük sayılıb-seçilən, etimad olunan ölkələri sırasına ucaldıb. Regionda, eləcə də dünyada baş verən geosiyasi prosesləri dərindən təhlil edərək adekvat qərarlar verən Prezident İlham Əliyev diplomatik bacarığı ilə, atdığı praqmatik addımlarla Azərbaycanı qlobal məsələlərin həlledici güc mərkəzinə çevirib.

Azərbaycan fəal diplomatiya vasitəsilə Qlobal Şimal və Qlobal Cənub arasında mövqe fərqliliklərini aradan qaldırmaq üçün əzmlə çalışır, mühüm çağırışlar edir. XXI əsrdə hələ də bəzi ölkələr tərəfindən neokolonializm siyasətinin aparılmasına qarşı mübarizə aparır.

## Beynəlxalq siyasətdə Azərbaycanın mühüm rolu

Xüsusi vurğulayaq ki, Azərbaycanın həyata keçirdiyi xarici siyasət kursu həm dünyanın hər bir qütbü ilə yüksək əlaqələrə malik olması, həm də bu siyasətin xalqımızın, ölkəmizin milli maraqlarına xidmət etməsi ilə əlamətdardır.

Təkcə aprel ayında Prezident İlham Əliyevin Türkiyəyə və Çinə səfər etməsi, həmçinin Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın, İran Prezidenti Məsud Pezeşkianın ölkəmizə gəlmələri Azərbaycanın yürütdüyü çoxşaxəli beynəlxalq siyasətin göstəricisidir.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 4-cü Antalya Diplomatiya Forumunda iştirak etmək üçün aprelin 10-da sözügedən ölkədə işgüzar səfərdə oldu. Antalyada dövlətimizin başçısı İlham Əliyevin Prezident Rəcəb Tayyib Ərdoğanla, Şimali Kiprin Prezidenti Ersin Tatarla, Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraayla, Gürcüstanın Baş naziri İrakli Kobaxidzeylə, Sudanın Suveren Keçid Şurasının Sədri Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhanla, Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşlərinin keçirilməsi isə Azərbaycanın beynəlxalq siyasətdəki mühüm rolunu bir daha təsdiq etdi.

Dünyada etibarlı tərəfdaş kimi ad qazanan Azərbaycanın, baxmayaraq ortada suyu bulandırmaq istəyənlər də var, Avropa İttifaqı (Aİ) ilə münasibətləri səmimiyyət üzərində qurulub. Buna görədir ki, sözügedən qurum ölkəmizlə münasibətləri inkişaf etdirməkdə maraqlıdır.

Aprelin sonlarında Azərbaycana səfər edən Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın Prezident İlham Əliyevlə görüşü zamanı Aİ-nin Azərbaycanla əlaqələri yüksək dəyərləndirdiyini və bu münasibətləri daha da inkişaf etdirməkdə maraqlı olduğunu qeyd edib. Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində çox uğurlu və səmərəli əməkdaşlığın olduğunu vurğulayan qonaq ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş rolunda çıxış etdiyini deyib.

O, nəqliyyat bağlantıları mövzusuna toxunaraq, bu xüsusda da çox mühüm regional bir dövlət olan və vacib geosiyasi məkanda yerləşən Azərbaycanın rolunun əhəmiyyətini vurğulayıb.

## Azərbaycan Çin əlaqələri daim yüksələn xətlə inkişaf edir

Ölkəmizin xarici siyasət kursunda dünya nəhəngi Çinlə əlaqələr hər zaman prioritet təşkil edib. Tarixi İpək yolunun birləşdirdiyi Azərbaycanla Çinin ötən il Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Astanada keçirilən zirvə toplantısı çərçivəsində Birgə Bəyannamə qəbul etməsi isə iki dost ölkənin əlaqələrini strateji tərəfdaşlıq müstəvisinə qaldırıb.

Bu baxımdan, aprelin 22-dən 24-dək Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfərində olması mühüm əhəmiyyət kəsb etdi. Səfər zamanı Pekində Azərbaycan Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpinin "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" imzalandı. Həmin bəyanatda deyilir ki, tərəflər xalqlarının seçdiyi və milli şərtlərə uyğun olan inkişaf yolunu seçməkdə bir-birini möhkəm dəstəkləyir, hər iki ölkənin təməl maraqlarının, suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün qorunmasında bir-birinə qətiyyətli dəstək verirlər.

Pekində Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsi zamanı sözügedən bəyanatın mühüm mahiyyətindən bəhs edən Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycanla Çin arasında bəyanatın imzalanması ölkəmiz üçün həqiqətən mühüm nailiyyətdir: "Sizə deyə bilərəm ki, Azərbaycan öz bölgəsində bir çox ölkə ilə və həmçinin bəzi Avropa ölkələri ilə Strateji Tərəfdaşlıq haqqında bəyanatlar imzalayıb, lakin Çin ilə bəyanat onların daxilində ən güclüsüdür. Məhz buna görə bu sənədin xüsusi vacibliyi bir daha göz qarşısındadır".

## Möhkəm təməl üzərində inkişaf edən dövlətlərarası münasibətlər

Aprelin 28-də İran Prezidenti Məsud Pezeşkianın ölkəmizə səfər etməsi də Azərbaycanın yürütdüyü xarici siyasətin mühüm hadisəsi kimi şərh edilməlidir. Bu onu göstərdi ki, qonşu dövlətlərlə münasibətlər Azərbaycanın xarici siyasətində hər zaman xüsusi yer tutur.

Azərbaycanın İrana münasibəti həmişə xoşməramlı olub. İki ölkənin əlaqələrinin pozulması istiqamətində həyata keçirilən bütün maraqlı dairələrin mənfur planları ölkəmizin nümayiş etdirdiyi siyasi iradə sayəsində puç edilib. Məsud Pezeşkianın səfəri də bir daha göstərdi ki, İranla əlaqələrin möhkəmləndirilməsi və münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə qalxması üçün hər hansı maneə yoxdur və hazırda bu əlaqələrin möhkəmləndirilməsi üçün tarixi imkan yaranıb.

"Xalqlarımız əsrlər boyu mehribanlıq, qardaşlıq şəraitində yaşayıb. Bu gün dövlətlərarası münasibətlərimiz bu möhkəm təməl üzərində inkişaf edir. İran Prezidentinin Azərbaycana rəsmi səfəri əlaqələrimizin yüksək səviyyədə olmasının təzahürüdür", - deyə aprelin 28-də İran Prezidenti Məsud Pezeşkianla birgə mətbuata bəyanatlarla çıxışı zamanı dövlətimizin başçısı söylədi.

Göründüyü kimi, Azərbaycan qlobal proseslərin müsbət yöndə gedişatına təsir göstərəcək aktiv və təsirli fəaliyyəti ilə dünyanın diqqət mərkəzindədir. Bu gün ölkəmizin beynəlxalq arenada oynadığı mühüm rol Prezident İlham Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının təzahürüdür.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Sumqayıtda ağacəkmə aksiyası keçirilib











**Sumqayıt şəhərində "Konstitusiya və Suverenlik İli" çərçivəsində Sumqayıt Bulvarı ərazisində ağacəkmə aksiyası keçirilib.**

AZƏRTAC xəbər verir ki, aksiyada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər.

Aksiya çərçivəsində 150-yə yaxın ağac əkilib. Aksiyada "ASAN xidmət" könüllüləri də iştirak ediblər.

Şəhərin ekoloji mühitinin yaxşılaşdırılması, yaşıllıq sahələrinin genişləndirilməsi və gələcək nəsillər üçün sağlam mühitin formalaşdırılmasına töhfə verən bu təşəbbüs Sumqayıtda ekoloji layihələrin davamlı şəkildə həyata keçirilməsi və şəhərin inkişaf strategiyasının vacib istiqamətlərindən biridir. Bu çərçivədə şəhərdə yaşıllaşdırma tədbirləri mütəmadi olaraq keçirilir, müxtəlif ağac növlərinin əkilməsi və ekosistemin qorunması istiqamətində ardıcıl işlər görülür. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Vətən müharibəsi qazisi, birinci qrup əlil Əzizov Rəvan üçün inşa edilən evlə də tanış olublar. Görüş xoş təəssüratla yadda qalıb.

# *Su TAO:* "Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Cənubi Qafqazda çox mühüm ölkədir"

**"Azərbaycan Prezidenti İlham Əliyev Çin lideri Si Cinpinin "Bir kəmər, bir yol" təşəbbüsünə ilk cavab verən ölkələrdən biri olub və bu təşəbbüs çərçivəsində Cənubi Qafqazda çox mühüm mərkəz ölkə kimi çıxış edir. Azərbaycan xüsusilə nəqliyyat, o cümlədən quru və dəniz marşrutları baxımından Cənubi Qafqazda mühüm coğrafi mövqeyə malikdir. O, Xəzər dənizində əsas nəqliyyat qovşağıdır. Bakı Xəzərin ən mühüm liman şəhərlərindən biri kimi mühüm strateji əhəmiyyətə malikdir".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Çin Dövlət Şurası yanında İnkişaf Mərkəzinin Avrasiya Cəmiyyətinin İnkişafı üzrə Tədqiqat İnstitutunun direktor müavini Su Tao bildirib.



Azərbaycan və Çin arasında "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində əməkdaşlığın ilk növbədə nəqliyyat və logistika sahəsinə əsaslandığını bildirən Su Tao bu əməkdaşlığın Cənubi Qafqaz regionunun ümumi infrastrukturunun inkişafı və iqtisadi yüksəlişi üçün həyati əhəmiyyət kəsb etdiyini deyib. Onun sözlərinə görə, bu əməkdaşlıq Çin üçün ticarət məhdudiyyətlərini və tariflərini aşmaqda, dünyaya açılmağa davam etməkdə və qlobal ticarət niyyətlərini inkişaf etdirməkdə həlledici rol oynayır.

"Ona görə də hesab edirəm ki, Çin ilə Azərbaycan arasında, xüsusən də "Bir kəmər, bir yol" çərçivəsində nəqliyyat sahəsində əməkdaşlığın böyük perspektivləri var. Azərbaycan Prezidenti İlham Əliyevin Çinə səfəri zamanı Çin ilə Azərbaycan arasında bir çox mühüm sənədlər imzalandı. Təbii ki, bunlardan ən əlamətdarı Çin və Azərbaycan arasında Hərtərəfli Strateji Tərəfdaşlığın yaradılması haqqında sənəddir. Qlobal miqyasda Çinin bu cür tərəfdaşlıqları məhdud saydadır və Cənubi Qafqaz regionunda Azərbaycan Çinlə belə münasibəti quran ilk ölkədir ki, bu da onu xüsusilə əhəmiyyətli edir", - deyə çinli ekspert əlavə edib.

Su Taonun sözlərinə görə, imzalanan digər mühüm sənəd beynəlxalq multimodal daşımalar haqqında sazişdir: "Bu çox əhəmiyyətli sənəddir. Çünki o Çin və Azərbaycan arasında nəqliyyatda, xüsusən də Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafında əməkdaşlığın təşviqində istiqamətləndirici rol oynayacaq".

# Azərbaycanın xarici siyasətinin uğurları

## Baş katib: "Zəngəzur dəhlizinin inkişafı İspaniya biznesi üçün mühüm imkanlar açır"

**AZƏRTAC ispaniyalı ekspert, Panavropa İttifaqının baş katibi Karlos Uriarte Sançeslə müsahibəni təqdim edir.**



*- İspaniya şirkətləri üçün "Cənub qaz dəhlizi" və Qafqaz üzərindən keçən beynəlxalq enerji marşrutları ilə əlaqəli layihələrdə hansı perspektivlər mövcuddur?*

- İlk növbədə qeyd etmək lazımdır ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Cənub Qaz Dəhlizi üzrə Məsləhətçi Şura yaradılıb. "Cənub qaz dəhlizi" Avropada ən iri layihədir: bu layihə yeddi ölkəni əhatə edir və 3,500 kilometr məsafəyə yayılır. Layihənin tərkibinə Cənub Qafqaz Boru Kəməri (SCP), Trans-Anadolu Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) daxildir ki, bunlar Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Bu kontekstdə "Enagas" şirkəti Trans-Adriatik Boru Kəmərinin səhmdarıdır və bir sıra digər beynəlxalq tərəfdaşlarla birlikdə layihəni həyata keçirir.

Bundan əlavə, "Enagas" şirkəti ötən ilin noyabr ayında Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak edib.

*- Azərbaycan ilə İspaniya arasında mövcud iqtisadi əməkdaşlıq səviyyəsini necə qiymətləndirirsiniz? Əməkdaşlığın genişləndirilməsi üçün hansı sahələr daha perspektivli görünür?*

- Ticarət mübadiləsi arasında yaxşı inkişaf var, lakin ikitərəfli iqtisadi əməkdaşlığın böyük potensialını nəzərə alaraq, bu səviyyə daha yüksək ola bilər. İspan şirkətlərinin Azərbaycandakı əsas fəaliyyət sahələri kənd təsərrüfatı və ərzaq sektoru, bərpaolunan enerji mənbələri, infrastruktur (avtomobil yolları, limanlar, hava limanları) və turizmdir. Həmçinin tibbi texnologiyalar və neft-qaz sahələrində də perspektivlər açılır. İspaniya Azərbaycanda enerji (neft və qaz), infrastruktur, nəqliyyat və logistika sahələrinə maraq göstərir və öz mövqeyini gücləndirir, eləcə də kənd təsərrüfatı və ərzaq sahəsində iştirakını artırır. Maliyyə sektoru, turizm və bərpaolunan enerji sahələrinə də maraq artmaqdadır. Xüsusilə Azərbaycanın iqtisadiyyatın diversifikasiyası strategiyası çərçivəsində kənd təsərrüfatı, nəqliyyat, turizm və informasiya-kommunikasiya texnologiyaları (İKT) kimi prioritet sahələrin inkişafına xüsusi diqqət yetirilməlidir. Energetika əməkdaşlığın ən mühüm sahəsi olaraq qalır: Azərbaycan neft və təbii qaz istehsalında ən böyük istehsalçılardan biridir və bu məhsulların əhəmiyyətli hissəsi İspaniyaya ixrac olunur.

Bundan əlavə, Azərbaycan meyvə, qoz-fındıq və digər kənd təsərrüfatı məhsullarının istehsalını fəal şəkildə inkişaf etdirir, ixracını şaxələndirir və beynəlxalq bazarlarda, o cümlədən İspaniya bazarında mövqeyini gücləndirir.

*- İspaniyadan Azərbaycana birbaşa sərmayələrin artmasına hansı addımlar kömək edə bilər?*

- İspaniyadan Azərbaycana birbaşa sərmayələrin stimullaşdırılması üçün bir neçə əsas addım atıla bilər. İlk növbədə hüquqi və normativ bazanın gücləndirilməsi, şəffaflıq və hesabatlılıq prinsiplərinin təşviq edilməsi, mülkiyyət hüquqlarının aydın və etibarlı təminatlarının verilməsi, eləcə də müstəqil və ədalətli məhkəmə sisteminin yaradılması məqsədilə məhkəmə islahatlarının aparılması vacibdir. Həmçinin sərmayədarlara cəlbedici stimulların verilməsi, o cümlədən vergi üstünlükləri, subsidiyalar və gömrük rüsumlarından azad olunma da mühüm rol oynayır. Sərmayələrin cəlb edilməsində informasiya kampaniyaları, həmçinin ispan sərmayədarları ilə Azərbaycan hökumətinin və biznes dairələrinin nümayəndələri arasında birbaşa görüşlər və forumların təşkil edilməsi əhəmiyyətli rol oynaya bilər. Bu, qarşılıqlı etimad və anlayışın güclənməsinə kömək edəcək.

Bundan əlavə, İspaniya və Azərbaycan şirkətləri arasında tərəfdaşlıq qurulmasının dəstəklənməsi təcrübə mübadiləsini sürətləndirəcək və qarşılıqlı faydalı əlaqələrin qurulmasına təkan verəcək. Mənim fikrimcə, bu tədbirlərin həyata keçirilməsi Azərbaycanın ispan biznesi üçün sərmayə cəlbediciliyini əhəmiyyətli dərəcədə artıracaq, birbaşa xarici sərmayələrin axınının artmasına və ölkənin iqtisadi inkişafının güclənməsinə səbəb olacaq. Mən əminəm ki, Azərbaycan artıq düzgün istiqamətdə irəliləyir. İqtisadiyyatın diversifikasiyası və transformasiyası istiqamətində aydın bir iradə müşahidə olunur. Bu kontekstdə Prezident İlham Əliyev tərəfindən qəbul edilən strateji qərarlar ölkənin gələcək rifahı üçün əsas yaradacaq - eləcə də vaxtilə məşhur "Əsrin müqaviləsi" Azərbaycanın tarixində yeni bir dövr açıb. Azərbaycan Prezidentinin dəyişməz və islahatçı ruhu Azərbaycanın Cənubi Qafqaz və Xəzər regionunun aparıcı qüvvələrindən birinə çevrilməsinə imkan yaradıb.




*- İspaniya şirkətlərinin Azərbaycanda, xüsusilə də işğaldan azad edilmiş ərazilərdə "yaşıl energetika" sahəsində layihələrə cəlb edilməsi nə dərəcədə realdır?*

- İspaniya şirkətlərinin Azərbaycanda, o cümlədən azad edilmiş ərazilərdə "yaşıl energetika" sahəsində layihələrə cəlb edilməsi olduqca real görünür. Bu həm İspaniyanın bərpaolunan enerji sahəsində qazandığı təcrübə, həm də Azərbaycanın "yaşıl texnologiya"ların inkişafına artan marağı ilə əlaqədardır. Bir tərəfdən İspaniya bərpaolunan enerji sektorunda əhəmiyyətli bacarıqlara malikdir. Ölkə külək enerjisi sahəsində dünya liderlərindən biridir, külək turbinləri ixrac edir, külək və günəş enerjisindən elektrik istehsalı sahəsində, daxili güc istehsalı sahəsində mühüm uğurlar əldə edib. Həmçinin İspaniya qarşısına 2030-cu ilə qədər istehsal olunan enerjinin 74 faizinin bərpaolunan mənbələrdən olmasını hədəfləyən iddialı məqsədlər qoyub.

Digər tərəfdən Azərbaycanın erməni işğalından azad edilmiş əraziləri, xüsusən infrastrukturun aktiv şəkildə inkişaf etdirilməsinə ehtiyac olan kənd rayonlarında "yaşıl energetika" layihələrinin həyata keçirilməsi üçün unikal imkanlar təklif edir. Beləliklə, İspaniyanın qabaqcıl təcrübəsi ilə Azərbaycanın günəş və külək enerjisi sahəsindəki potensialı birləşərək "yaşıl energetika" sahəsində uğurlu əməkdaşlıq üçün əlverişli şərait yaradır.

*- Aqrobiznes, ərzaq və yüngül sənaye sahəsində birgə müəssisələr ikitərəfli tərəfdaşlıq üçün artım nöqtələri ola bilərmi? Azərbaycan bazarı İspaniya şirkətləri üçün satış və istehsal əməkdaşlığı baxımından nə dərəcədə maraqlıdır?*

- Hal-hazırda Azərbaycan aqrobiznes, ərzaq və yüngül sənaye sahələrində Qazaxıstan, Özbəkistan və Tacikistan kimi ölkələrlə uğurla birgə müəssisələr inkişaf etdirir. Bu dövlətlər Azərbaycanla mədəni baxımdan daha yaxın olub, türkdilli cəmiyyətə daxil olurlar və ümumi keçmiş sovet irsinə sahibdirlər. Eyni zamanda İspaniya yüksək inkişaf etmiş və dünyaca məşhur aqrosənaye kompleksi, ərzaq və yüngül sənayesi ilə məşhurdur ki, bu da əməkdaşlıq üçün əlverişli şərait yaradır. Azərbaycan bazarı və istehsal əməkdaşlığı imkanları, Azərbaycanın strateji yerləşməsi davamlı iqtisadi inkişafı və infrastruktura olan aktiv investisiyaları səbəbindən ispan şirkətləri üçün əhəmiyyətli maraq kəsb edir. Azərbaycan, Avropa və Asiya arasında körpü kimi qəbul edilir və böyüyən regional bazara giriş imkanı təqdim edir.

Bundan əlavə, hər iki ölkə iqtisadi tərəfdaşlığı gücləndirmək üçün, o cümlədən iqtisadi dialoq və qarşılıqlı anlaşma memorandumu imzalamaq kimi təşəbbüslər vasitəsilə aktiv addımlar atır ki, bu da xüsusilə kiçik və orta müəssisələr arasında əməkdaşlığın genişlənməsinə kömək edir.

Nəhayət, qeyd etmək lazımdır ki, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə iqtisadi əlaqələrinin möhkəmlənməsi ispan şirkətləri üçün yalnız Azərbaycanda deyil, daha geniş regional bazarda da öz mövqeyini genişləndirmək üçün əlavə perspektivlər açır.

*- İspaniya Azərbaycanın Avropa İttifaqı (Aİ) ilə ticarət, iqtisadi inteqrasiya və Avropa bazarlarına çıxış məsələlərində körpü rolunu necə oynaya bilər?*

- İspaniya Azərbaycanın Avropa İttifaqı ilə iqtisadi inteqrasiyasının körpüsü ola bilər, ölkənin coğrafi yerləşməsi, Aİ ilə güclü əlaqələri və inkişaf etmiş işgüzar əlaqələri sayəsində ticarət və investisiyaların inkişafına töhfə verə bilər. İspaniya ticarət maneələrinin aradan qaldırılması, Azərbaycan ilə Aİ arasında ikitərəfli razılaşmaların təşviqi, ticarət prosedurlarının sadələşdirilməsi və xərclərin azaldılması sahəsində mühüm rol oynaya bilər. Eyni zamanda İspaniya biznes strukturları arasında birbaşa əlaqələrin qurulmasına, investisiyaların cəlb olunmasına və birgə təşəbbüslərə maliyyə dəstəyi göstərilməsinə dəstək verə bilər. Əhəmiyyətli istiqamətlərdən biri də mədəni və təhsil mübadilələrinin inkişafıdır, bu isə qarşılıqlı anlayışın möhkəmlənməsinə, təcrübə mübadiləsinə və insan kapitalının inkişafına kömək edir.

Bundan əlavə, tarixən və iqtisadi baxımdan mövcud əlaqələri sayəsində İspaniya Azərbaycanın yalnız Avropa ilə deyil, həm də Latın Amerikası və Şimali Afrika ilə əlaqələrinin genişlənməsi üçün platforma ola bilər.

*- Azərbaycanın Şərq və Qərbin kəsişməsindəki logistik mərkəz olaraq rolunu necə qiymətləndirirsiniz?*

- Azərbaycan coğrafi mövqeyi və xüsusilə Orta dəhliz çərçivəsində infrastruktur sahəsinə qoyulan mühüm investisiyalar sayəsində Şərq və Qərbin kəsişməsində strateji əhəmiyyətə malik bir logistik mərkəzdir. Bu dəhliz Asiya, Avropa və digər regionlar arasında ticarət və tranziti asanlaşdırır, Azərbaycan bu ərazilər arasında əlaqələrin qurulmasında mühüm rol oynayır. Azərbaycan Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Ticarət Limanı və Heydər Əliyev Beynəlxalq Aeroportunda genişlənmiş yükləmə terminalları da daxil olmaqla, öz nəqliyyat infrastrukturuna əhəmiyyətli sərmayələr qoyub ki, bu da onun tranzit yüklərini emal etmə qabiliyyətini artırır.

Bundan əlavə, Ələt Azad İqtisadi Zonası Azərbaycanın Avropa və Asiya arasında logistik zəncirlərdəki mövqeyini gücləndirir və tranzit ticarəti ilə məşğul olan bizneslər üçün əlverişli mühit yaradır. Yollar, limanlar və dəmir yolları sahəsində aparılan investisiyalar sayəsində müxtəlif nəqliyyat marşrutları təklif olunur.

*- Zəngəzur dəhlizi və Orta dəhliz kimi nəqliyyat dəhlizlərinin inkişafı ilə bağlı İspaniya biznesi üçün hansı imkanlar yaranır?*

- Zəngəzur dəhlizi və Orta dəhliz kimi nəqliyyat dəhlizlərinin inkişafı ilk növbədə İspaniya biznesi üçün logistika, infrastruktur və ticarətin dəstəklənməsi sahələrində mühüm imkanlar açır. Bu dəhlizlər Asiya və Avropanı birləşdirir, daha qısa tranzit müddətləri, ticarət və investisiyaların artırılması imkanları təklif edir. Nəticə olaraq bu nəqliyyat dəhlizlərinin inkişafı öz fəaliyyətlərini genişləndirmək və regionda artan ticarət və investisiya imkanlarından faydalanmaq istəyən İspaniya şirkətləri üçün perspektivli bir imkan təşkil edir. İspaniyanın logistika, infrastruktur və ticarətin dəstəklənməsi sahəsindəki təcrübəsi bu marşrutların tam potensialının həyata keçirilməsində mühüm rol oynaya bilər, iqtisadi artım və regional əlaqəliliyi təşviq edər.

## İranlı ekspert: "Rəşt-Astara dəmir yolu regionda logistika və ticarət əməliyyatlarının səmərəliliyini artıracaq"

Aprelin 28-də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian rəsmi səfərlə Azərbaycanın paytaxtı Bakıya gəlib. Səfər çərçivəsində o, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüş keçirib. Danışıqlar zamanı tərəflər ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi və regional, həmçinin qlobal səviyyədə əməkdaşlığın genişləndirilməsi istiqamətində qarşılıqlı iradəni təsdiqləyiblər. Birgə mətbuat konfransında çıxış edən Məsud Pezeşkian regionun aktual məsələlərinin həllində əlaqələndirilmiş səylərin əhəmiyyətini vurğulayıb və iki dost ölkə arasında münasibətlərin ardıcıl şəkildə möhkəmlənəcəyinə əminliyini ifadə edib. AZƏRTAC Yaxın Şərq siyasəti üzrə iranlı ekspert, tədqiqatçı Məhəmməd Xətibi ilə müsahibəni təqdim edir.



*- İran və Azərbaycan arasındakı iqtisadi münasibətlərin mövcud vəziyyətini necə qiymətləndirirsiniz? Hansı əməkdaşlıq sahələrini daha perspektivli hesab edirsiniz?*

- Bu gün İran və Azərbaycan arasındakı iqtisadi münasibətlər kifayət qədər yüksək səviyyədədir və ardıcıl şəkildə inkişaf edir. Bunu həm qarşılıqlı ticarət dövriyyəsinin həcmi, həm də son zamanlar dövlət başçıları - Məsud Pezeşkian və İlham Əliyev arasında keçirilən yüksəksəviyyəli görüşlər təsdiqləyir. Tərəflər qarşılıqlı faydaya əsaslanan əməkdaşlığın dərinləşdirilməsinə sadiqlik nümayiş etdirirlər. Bu əməkdaşlığın əsas istiqamətləri enerji, nəqliyyat infrastrukturu və sərhəd ticarətidir. Birgə enerji layihələrinin reallaşdırılması, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı və sərhədyanı ərazilərdə ticarətin genişləndirilməsi təkcə ikitərəfli iqtisadi əlaqələri möhkəmləndirməyəcək, eyni zamanda regionun sabitliyinə və davamlı inkişafına da əhəmiyyətli töhfə verəcək.

*- Sizcə, iki ölkə arasında tərəfdaşlıq münasibətlərinin genişlənməsi üçün hansı iqtisadi və ticarət təşəbbüsləri daha effektivdir?*

- "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi İran, Azərbaycan və daha geniş Avrasiya regionu arasında ticarətin inkişafı və nəqliyyat əlaqələrinin yaxşılaşdırılması üçün əsas təşəbbüslərdən biridir. Bu strateji marşrut Hind okeanı və körfəzi Rusiya, Şimali Avropa ilə birləşdirən mühüm tranzit arteriyası kimi çıxış edir. Ənənəvi dəniz yolları ilə müqayisədə nəqliyyatın vaxtını və xərcini əhəmiyyətli dərəcədə azaldır. İran üçün bu dəhliz onun regional ticarət mərkəzi kimi mövqeyini gücləndirir və Avrasiya bazarları ilə daha sıx iqtisadi inteqrasiyanı təşviq edir. Azərbaycan isə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizində İranla Rusiya arasında yükdaşımaları təmin edən tranzit ölkə kimi həlledici rol oynayır. Bu dəhliz iştirakçı ölkələrə ticarət tərəfdaşlıqlarını şaxələndirməyə, ənənəvi marşrutlardan asılılığı azaltmağa və logistika effektivliyini artırmağa imkan verir. Dəhliz boyunca infrastrukturun - o cümlədən dəmir yollarının genişləndirilməsi, avtomobil yollarının müasirləşdirilməsi və liman obyektlərinin təkmilləşdirilməsi, inkişafı onun iqtisadi üstünlüklərini daha da artıracaq.

*- İran energetika, kənd təsərrüfatı və informasiya texnologiyaları sahələrində Azərbaycanla birgə investisiya və texnoloji əməkdaşlıq perspektivlərini necə qiymətləndirir?*

- 2021-ci ilin noyabrında İran, Azərbaycan və Türkmənistan arasında ildə 2 milyard kubmetrə qədər qazın Türkmənistandan İran ərazisi vasitəsilə Azərbaycana nəqlini nəzərdə tutan üçtərəfli qaz razılaşması imzalanıb. Bu mexanizm çərçivəsində İran Türkmənistandan qaz alır və eyni həcmdə qazı Azərbaycana ötürür ki, bu da hər iki ölkənin sabit enerji təchizatına töhfə verir. İran və Azərbaycan ənənəvi olaraq elektrik enerjisi mübadiləsində də əməkdaşlıq edirlər ki, bu da mövsümi tələbat dalğalanmalarını effektiv idarə etməyə imkan verir. Belə mübadilələr enerji şəbəkələrinin sabit işləməsini və xüsusən də pik istehlak dövrlərində fasiləsiz elektrik təchizatını təmin edir. Məsələn, 2024-cü ilin ilk doqquz ayında İran Azərbaycanın Naxçıvan Muxtar Respublikasına 26,8 milyon kVt-saat, Azərbaycan isə İrana 27,9 milyon kVt-saat elektrik enerjisi ötürüb. "Qız Qalası" və "Xudafərin" SES-lərin istismara verilməsi iki ölkə arasında enerji əməkdaşlığının gücləndirilməsi istiqamətində mühüm addım olub. Bu layihələr təkcə enerji istehsalına deyil, həm də su ehtiyatlarının idarə olunmasına töhfə verir ki, bu da kənd təsərrüfatı və sənaye üçün xüsusilə vacibdir.

Kənd təsərrüfatı sahəsində birgə təşəbbüslər ərzaq təhlükəsizliyinin artırılmasına, ixrac imkanlarının genişləndirilməsinə və müasir aqrotexnologiyalar üzrə bilik mübadiləsinə xidmət edə bilər. Yüksək texnologiyalar sahəsində isə "ağıllı şəhərlər" və süni intellektə əsaslanan tətbiqləri əhatə edən birgə innovasiya layihələri regional əlaqəliliyin möhkəmləndirilməsinə, iqtisadi modernizasiyanın sürətlənməsinə şərait yarada bilər. Ümidverici istiqamətlərdən biri də bərpaolunan enerji sahəsidir - hər iki ölkə günəş və külək enerjisi layihələrinə birgə investisiyalar qoymaq imkanlarını nəzərdən keçirir. Bu, enerji təhlükəsizliyini möhkəmləndirəcək və qalıq yanacaqlardan asılılığın azalmasına kömək edəcək.

*- İran və Azərbaycan arasında yüksək texnologiyalar, istehsal və emal sahəsində birgə müəssisələrin yaradılması üçün hansı perspektivləri görürsünüz?*

- İran və Azərbaycan xüsusilə istehsal və emal sahələrində birgə sənaye müəssisələrinin yaradılması imkanlarını fəal şəkildə müzakirə edirlər. Bu təşəbbüslər hər iki ölkənin sənaye potensialının gücləndirilməsinə və texnoloji mübadilənin təşviqinə yönəlib. Azərbaycan-İran biznes-forumu çərçivəsində yüksək texnologiyalar sahəsində əməkdaşlıq imkanlarına xüsusi diqqət yetirilib. Bura "ağıllı logistika", rəqəmsal infrastruktur, istehsal proseslərinin avtomatlaşdırılması və qabaqcıl İT həllərinin tətbiqi kimi sahələr daxildir. Bu cür layihələr sənaye modernizasiyasını sürətləndirmək, yeni iş yerləri yaratmaq və məhsulların beynəlxalq bazarlarda rəqabət qabiliyyətini artırmaq baxımından mühüm rol oynaya bilər.

*- Hazırda İran və Azərbaycan hansı iri infrastruktur layihələrini birgə həyata keçirirlər? Azərbaycanla nəqliyyat əlaqələrinin aktivləşdirilməsi İran iqtisadiyyatı üçün nə kimi əhəmiyyət daşıyır?*

- İran və Azərbaycan "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əsas hissələrindən biri olan Astara yük terminalı layihəsini birgə reallaşdırırlar. Eyni zamanda 2028-ci ilə qədər tamamlanması planlaşdırılan Rəşt-Astara dəmir yolunun tikintisi davam edir. Bu layihə regionda logistika və ticarət əməliyyatlarının səmərəliliyini əhəmiyyətli dərəcədə artıracaq. İran ilə Azərbaycan arasında nəqliyyat əlaqələrinin genişləndirilməsi həm iqtisadi, həm də strateji baxımdan mühüm rol oynayır. Bu, ticarət dövriyyəsinin artmasına, qarşılıqlı əlaqənin güclənməsinə, tranzit üçün tələb olunan vaxt və xərclərin azalmasına xidmət edir. Nəqliyyat infrastrukturunun inkişafı həm Tehran, həm də Bakı üçün Avrasiya ticarətində əsas tranzit qovşaqları kimi mövqelərini möhkəmləndirməyə və regional iqtisadi danışıqlarda təsir imkanlarını artırmağa şərait yaradır. Logistikanın və tranzit marşrutlarının effektivliyinin artırılması xarici investisiyaların cəlb olunmasına, xüsusilə limanların, dəmir yolu şəbəkələrinin və "ağıllı logistika" sistemlərinin inkişafına təkan verir. Bu da hər iki ölkənin iqtisadiyyatının neft sektorundan kənar diversifikasiyasına töhfə verir.

*- İran və Azərbaycan öz coğrafi mövqelərindən tranzit əməkdaşlığını gücləndirmək üçün necə istifadə edə bilərlər? İran logistika və nəqliyyat sahəsində Azərbaycanla birgə layihələr üçün hansı yeni texnoloji həlləri təklif etməyə hazırdır?*

- Hər iki ölkə öz strateji coğrafi mövqeyindən istifadə edərək dəmir yolu, avtomobil və dəniz marşrutları ilə tranzit əməkdaşlığını genişləndirməkdə fəaldır. İran logistika proseslərini optimallaşdırmağa yönəlmiş bir sıra müasir texnoloji həllər təklif etməyə hazırdır. Xüsusilə "ağıllı logistika" sistemlərinin tətbiqi, o cümlədən avtomatlaşdırılmış yük izləmə sistemləri və rəqəmsal gömrük prosedurlarının həyata keçirilməsi barədə danışırıq. Bu tədbirlər ticarət əməliyyatlarını xeyli sadələşdirməyə, şəffaflığı artırmağa və çatdırılma müddətini qısaltmağa imkan verəcək.

*- Araz dəhlizi layihəsinin İranın və bütövlükdə regionun nəqliyyat sistemi üçün əhəmiyyəti nədən ibarətdir? Bu dəhlizin həyata keçirilməsi İran üçün hansı iqtisadi imkanlar açır?*

- Araz dəhlizi region ölkələrinin ərazi bütövlüyünü təmin etmək baxımından mühüm rol oynayır və bəzi digər təklif olunan tranzit marşrutlarından fərqli olaraq, geosiyasi mübahisələrdən kənardır. Dəhlizin İran ərazisindən keçməsi Azərbaycanın Tehranla davamlı diplomatik əlaqələr saxlamasına şərait yaradır, bu isə regional əməkdaşlığın möhkəmlənməsinə xidmət edir. Bu marşrut ticarət və yükdaşımaların xarici təzyiqlər və məcburi ərazi güzəştləri olmadan azad şəkildə həyata keçirilməsini təmin edir. Ümumilikdə Araz dəhlizi iştirakçı ölkələr üçün iqtisadi inkişaf, siyasi sabitlik və ərazi bütövlüyünün qorunması baxımından ən real və münaqişədən uzaq tranzit marşrutu kimi çıxış edir.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Avropa Şurası ölkəmizə təzyiq göstərmək cəhdindən çəkilməlidir

### Əvəzində diqqəti AŞ ölkələrində çoxsaylı problemlərə, siyasi təqiblərə, korrupsiyaya yönəltməlidir

Ermənistan Azərbaycan ərazilərini işğal etməyə başlayanda beynəlxalq hüquqdan, insan haqlarından, ədalətdən dəm vuran Avropa Şurasının səsi çıxmadı. Həmin dövrdə erməni vandallarının zülümlərindən, işgəncələrindən fəryad edən yalnız qarabağlılar və şərqi zəngəzurlular deyildi. 1980-ci illərin sonlarından başlayaraq, Ermənistanda azərbaycanlılara qarşı dəhşətli cinayətlər törədilirdi.



Ermənilər Qərbi Azərbaycan torpaqlarını həmin dövrdə münaqişə ocağına çevirdilər. Silahlı erməni quldurları azərbaycanlıların evlərinə hücum çəkir, onlara ağır işgəncələr verərək ya qətlə yetirir, ya da şikəst edirdilər. Ermənistan hökuməti azğınlaşmış erməniləri qətiyyən cəzalandırmır, cinayət məsuliyyətinə cəlb etmirdi. Çünki məqsədləri bir idi. Rəsmi İrəvan Ermənistanı azərbaycanlılarsız qoymaq niyyətində idi. Məqsədlərinə də çatdılar. Minlərlə azərbaycanlı qədim yurdundan, isti ocağından qovuldu.

Ermənistanın işğalçılıq siyasəti nəticəsində 1980-ci illərin axırları, 1990-cı illərin əvvəllərində Qarabağda və Şərqi Zəngəzurda dəhşətli hadisələr baş verdi. Erməni vandalları azərbaycanlılara dağ çəkdilər, qoca, uşaq, əlil demədən qarşılarına çıxan soydaşlarımızı ya qətlə yetirdilər, ya da əsir götürdülər. Qarabağda və Şərqi Zəngəzurda ermənilərin xarabaya çevirmədikləri bircə azərbaycanlı yurdu qalmadı. Evlərini qarət etdilər, yandırdılar, ocaqlarını söndürdülər. Ermənilər Xocalıda, Ağdabanda, Meşəlidə, Qaradağlıda, Başlıbeldə qətliamlar, soyqırımları törətdilər.

Abad yurdlarımızı erməni quldurları talan edəndə, müharibə meydanına çevirəndə, dinc, günahsız insanları qətlə yetirəndə, sağ qalanlar azğınlaşmış düşmənin zülmlərindən baş götürüb yurdundan qaçanda da Avropa Şurasının haqlını dəstəkləyən səsi-sədası çıxmadı.

Otuz ilə yaxın Ermənistan Qarabağı və Şərqi Zəngəzuru işğalı altında saxladı. Həmin ərazilərdə nəinki tikinti işləri aparmadı, təbiətini də məhv etdi, ekoloji terror həyata keçirdi. Ermənistan işğal müddətində Qarabağda və Şərqi Zəngəzurda səngərlər, hərbi istehkamlar qurdu. 1994-cü il mayın 12-də atəşkəs sazişi imzalansa da, işğalçı ölkənin silahlı qüvvələri Azərbaycan Ordusunun mövqelərini və yaşayış yerlərini intensiv olaraq iriçaplı silahlardan atəşə tutdu. Nəticədə, atəşkəs dövründə də əsgər və zabitlərimiz, mülki insanlarımız şəhid oldu və sağlamlığını itirdi. Yenə də Avropa Şurası haqqa, həqiqətə tərəfdarlığını nümayiş etdirmədi.

Ermənistan Birinci Qarabağ müharibəsində əsir və girov götürülmüş azərbaycanlıların taleyi barədə məlumat, Qarabağda və Şərqi Zəngəzurda basdırdığı minaların dəqiq xəritəsini verməkdən imtina etdi.

İşğalçı Ermənistanın silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində 2020-ci ilin sentyabrında İkinci Qarabağ müharibəsi başladı. Azərbaycan Ordusu vətən torpaqlarının azadlığı uğrunda döyüşlərdə zəfər çaldı. Qarabağı və Şərqi Zəngəzuru düşməndən azad etdi.

Ermənistanın cinayətkarlığının hədd-hüdudu olmayanda, Azərbaycan ərazilərini işğal altında saxlayanda ikili standartlar nümayiş etdirən bir sıra Qərb ölkələri və Avropa Şurası kimi təşkilatlar Azərbaycanın haqq savaşında qalib gələndə narahatlıqlarını gizlədə bilmədilər.

Azərbaycan isə öz gücü ilə ədaləti bərpa etdi. Azərbaycan Ordusu 2023-cü ilin sentyabrında antiterror əməliyyatları həyata keçirdi. Qarabağda qalan Ermənistan silahlı qüvvələrinin tör-töküntülərini və separatçıları məğlubiyyətə uğradaraq ölkəmizin tam suverenliyinə nail oldu.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, David İşxanyan, Davit Babayan, Levon Mnatsakanyan və digərləri bu gün məhkəmə qarşısında cavab verirlər. Məhkəmə prosesində onlar özləri də cinayətkar olduqlarını etiraf edirlər. Bunu şahidlərin ifadələri də təsdiqləyir. Ağır cinayətlər törətmiş belə şəxslərin məsuliyyətə cəlb olunmaları, qanun qarşısında cavab vermələri beynəlxalq hüquq çərçivəsindədir.

Təəssüf ki, ölkəmizin qanunla həyata keçirdiyi işlərə kölgə salmağa səy göstərənlər hələ də var. Belələri qərəzkarlığına yalandan don biçməyə çalışırlar. Lakin onların bütün cəhdlərini Azərbaycan faktlara əsaslanan, qətiyyətli mövqeyini əks etdirən cavabları ilə boşa çıxarır. Rəsmi Bakının Avropa Şurasının insan hüquqları üzrə komissarına verdiyi cavabı da bunu aydın göstərdi.

Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə Maykl O'Flahertinin Azərbaycan əleyhinə bəyanatını şərh edərkən bildirib: "Aprelin 29-da Avropa Şurasının (AŞ) insan hüquqları üzrə komissarı Maykl O'Flahertinin Azərbaycanda aparılan bəzi istintaq işləri, habelə bu yaxınlarda verilmiş məhkəmə qərarları ilə bağlı səsləndirdiyi qəbuledilməz, əsassız və tamamilə qərəzli bəyanatını qətiyyətlə rədd edirik".

Sözügedən bəyanatı Azərbaycanın daxili işlərinə və məhkəmə proseslərinə davam edən müdaxilə istiqamətində növbəti uğursuz cəhd adlandıran XİN-in rəsmisi vurğulayıb ki, milli qanunvericiliyə, beynəlxalq öhdəliklərə uyğun olaraq Azərbaycan Respublikasında insan hüquq və əsas azadlıqlarına təminat verilir və onlara tam hörmət edilir. Bununla yanaşı, sözügedən hüquq və azadlıqlar Azərbaycanın öz vəzifələrini yerinə yetirmək üçün müstəqil şəkildə fəaliyyət göstərən köklü məhkəmə institutları tərəfindən qorunur.

Ayxan Hacızadə diqqətə çatdırıb ki, Azərbaycanın öz suveren ərazilərində qanunun aliliyinə verdiyi təminat bəzi şəxslərə peşə fəaliyyətlərinə görə xüsusi imtiyazlar vermir, habelə onları ölkə qanunlarının tələblərinə əməl etməkdən azad etmir. Eyni zamanda insan hüquqları üzrə komissarın bəyanatında adıçəkilən şəxslərə qarşı müvafiq qanunvericiliyin tələblərinin kobud şəkildə pozulması ilə bağlı ittiham irəli sürülüb, cinayət-prosessual məcəlləyə ciddi riayət edilməklə müvafiq araşdırmalar aparılıb, onların məhkəmə qarşısında bütün hüquqları tam təmin edilib.

XİN-in mətbuat katibi daha sonra bildirib: "Biz Avropa Şurasının insan hüquqları üzrə ali komissarını Azərbaycanın müstəqil məhkəmə orqanlarında davam edən araşdırmalara müdaxilə etməkdən, habelə qəbuledilməz təzyiq göstərmək cəhdlərindən çəkinməyə, əvəzində isə diqqəti bir sıra digər AŞ ölkələrində insan hüquqları sahəsində mövcud çoxsaylı sistematik problemlərə, artan islamofobiyaya, miqrantlara və sığınacaq axtaran şəxslərə qarşı ləyaqəti alçaldan rəftara, siyasi təqiblərə, həbsxanalarda baş verən ölüm hallarına, Avropa institutlarında geniş yayılmış korrupsiyaya və s. fokuslanmağa çağırırıq".

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Yeni əməkdaşlıq mərhələsi

### Bu, Azərbaycanla Avropa İttifaqının əlaqələrinin inkişafına təkan verəcək

**Dövlətlərin və beynəlxalq təşkilatların qarşılıqlı münasibətləri yaranmış tarixi şəraitdən asılı olaraq müəyyən zamanlarda dəyişə və yaxud yenilənə bilər. Ölkəmiz bu gün demək olar ki, dünyanın inkişaf etmiş bütün dövlətləri və nüfuzlu beynəlxalq təşkilatları ilə qarşılıqlı iqtisadi və siyasi əməkdaşlıq edir. Bu əlaqələr gündən-günə inkişaf edir, dərinləşir və möhkəmlənir.**

Azərbaycanın qarşılıqlı əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlardan biri də Avropa İttifaqıdır. Ölkəmizlə Avropa İttifaqı (Aİ) arasında 1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi illər uzunu hər iki tərəf arasında siyasi, iqtisadi və hüquqi münasibətlərin əsasını təşkil edib. Lakin 1996-cı ildə imzalanmış sazişin əhatə dairəsi elə də geniş deyildi. Bu, daha çox postsovet məkanında yeni müstəqillik əldə etmiş dövlətlərlə Aİ-nin münasibətlərini tənzimləyən ticarət, bazar iqtisadiyyatı və siyasi dialoqa dair ümumi prinsipləri özündə birləşdirirdi. Ona görə də həmin çərçivə nə Azərbaycan - Aİ münasibətlərinin bugünkü səviyyəsini, nə də Avropanın Cənubi Qafqazda dəyişən maraqlarını tam əhatə edirdi.

Günümüzün daim dəyişən geosiyasi reallıqları, enerji təhlükəsizliyi çağırışları və diplomatik gündəm 1996-cı ildə imzalanmış sazişin yenilənməsini, dəyişilməsini tələb edirdi. Təəssüflər olsun ki, Avropa İttifaqı uzun illər öz maraqlarını üstün tutaraq Azərbaycanla münasibətlərini ikili standartlar üstündə qurmağa, regionun mürəkkəb reallıqlarına kifayət qədər dərindən nüfuz etmədən, daim inkişafda və tərəqqidə olan ölkəmizi öyrəşdikləri şablon təsəvvürləri çərçivəsində qiymətləndirməyə çalışdı.

Azərbaycan ötən illər ərzində uğurla apardığı daxili və xarici siyasəti ilə dünyada gedən mürəkkəb proseslərdə həmişə təşəbbüsü öz əlində saxladı. İkinci Qarabağ müharibəsindən sonra Bakı regiona əmin-amanlıq gətirəcək sülh gündəliyini beynəlxalq vasitəçilərin monopoliyasına vermədi, onu güclü, sarsılmaz diplomatik iradəsi və qətiyyəti ilə formalaşdırmağı bacardı. Azərbaycanın yalnız ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə kifayətlənmədiyini dostlara da, düşmənlərə də göstərdi. Azərbaycanın dünyada gedən proseslərə praqmatik yanaşması, zamanında zəruri addımlar atması onun beynəlxalq münasibətlər sistemində aktiv rol oynadığının bariz nümunəsi oldu.

Artıq Azərbaycan 1996-cı ildəki Azərbaycan deyil. Ötən illər ərzində Azərbaycan sarsılmaz, əbədi-əzəli dövlətçilik modelini qurub, milli maraqlarını qoruyub, yürütdüyü uğurlu xarici siyasət nəticəsində beynəlxalq aləmdə mövqeyini kifayət qədər möhkəmləndirib. 2020-ci ilin sentyabrında erməni təxribatı nəticəsində başlayan İkinci Qarabağ müharibəsində və ondan sonra uğurla həyata keçirilən lokal xarakterli antiterror əməlliyyatları nəticəsində ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib. Dünyada və regionda söz sahibinə çevrilib. Amma təəssüflər olsun ki, hələ də Avropa İttifaqının müəyyən dairələrində Azərbaycana qarşı olan əvvəlki birtərəfli yanaşmaların izləri qalmaqdadır. Lakin zaman və ondan doğan reallıqlar əvvəlki dəyər və yanaşmaları dəyişməyi zəruri edir. Getdikcə beynəlxalq aləmdə nüfuzu artan Azərbaycan regionda təkcə enerji resurslarının təminatçısı kimi deyil, həm də sabitliyin və iqtisadi əməkdaşlığın əsas aktoru kimi tanınır.

Bu günlərdə Avropadan Azərbaycana yeni bir münasibət sərgilənir. Hazırda Azərbaycanla Avropa İttifaqı arasında yeni bir mərhələnin başlanğıcı müşahidə olunur. Dünyada yaranmış geosiyasi şəraitin diktəsi hər iki tərəfi bərabərhüquqlu dialoqun inkişafına və tərəfdaşlığın möhkəmlənməsinə maraq göstərməyə səsləyir. Əvvəlki illərdə isti münasibətlərə əngəl yaradan amillər artıq yavaş-yavaş aradan qaldırılır, buzlar əriyir.

Avropa İttifaqı ölkəmizin regiondakı və dünyadakı rolunu, beynəlxalq enerji təhlükəsizliyinə verdiyi əvəzsiz töhfəni layiqincə qiymətləndirmək üçün yeni addımlar atır. Artıq Avropa İttifaqı Azərbaycanı regional sülh və sabitliyin əsas təminatçılarından biri kimi görür, ölkəmizin bu istiqamətdəki roluna yüksək dəyər verir. Reallıq onu göstərir ki, Azərbaycanla Aİ arasında münasibətlər niyyət bəyanatları səviyyəsindən xeyli irəli gedir.

Aprelin 25-də Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın ölkəmizə gəlişi doqquz ildən sonra Aİ ali nümayəndəsinin Azərbaycana ilk yüksəksəviyyəli səfəri oldu. Həmişə sülhün tərəfində olan Azərbaycan ona uzanan dostluq əlini sıxmağa hazırdır. Avropa İttifaqının ali nümayəndəsi Kaya Kallas Azərbaycanın sülh səylərinə daim dəstək verəcəyini bəyan etdi. Onun sözlərinə görə, Azərbaycan Aİ üçün olduqca mühüm tərəfdaşdır və xüsusən enerji təhlükəsizliyi sahəsində Bakı Avropanın etibarlı təchizatçılarından biridir. Ali qonaq həmçinin Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımı xüsusi vurğulayaraq minnətdarlığını bildirdi.

Azərbaycan Prezidenti İlham Əliyevin Kaya Kallası qəbul etməsi, ölkəmizin Aİ ilə münasibətlərində yeni mərhələnin başlanğıcı, strateji və hüquqi kontekstli bir dönüş nöqtəsi kimi qiymətləndirildi. İllərdən bəridir Avropada hökm sürən geosiyasi stereotiplərin, qərəzli yanaşmaların, ikili standartlar və regionla bağlı yanlış təsəvvürlərin bu görüşdən sonra aradan qaldırılması qənaəti yarandı. Onların yerini qarşılıqlı əməkdaşlığa, inkişafa, tərəqqiyə hesablanmış mütərəqqi baxışlar tutdu.

Azərbaycan Avropanın enerji təminatında böyük rol oynayır. Aİ ölkəmizin regional və geosiyasi əhəmiyyətini qəbul edir, Azərbaycanın Xəzər dənizi - Qara dəniz regionunda oynadığu rolu, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsindəki yerini yüksək qiymətləndirir. Azərbaycan Avropanın 12 ölkəsinə qaz verir və Avropada təchizatın coğrafiyasına görə birinci yerdədir. Bu qürurverici göstəricilər Azərbaycanın Avropada etibarlı tərəfdaş statusunu rəsmi olaraq təsdiqləyir. Əməkdaşlıq artıq təkcə təbii qazla məhdudlaşmır. Azərbaycanın "yaşıl enerji" sahəsində atdığı uğurlu addımlar onu ənənəvi enerji təchizatçısından bərpaolunan enerjidə də aparıcı rola malik olduğunu göstərir.

Azərbaycanla Avropa İttifaqı arasındakı qarşılıqlı əməkdaşlıq yalnız bu günün deyil, həm də gələcəyin inkişafını, tərəqqisini təmin edəcək. Yaxın gələcəkdə Azərbaycan-Aİ münasibətləri gündəlik əməkdaşlıqdan, strateji qərarların, qarşılıqlı öhdəliklərin və dəyərlərin paylaşılmasına əsaslanan bir müstəviyə keçəcək. Avropa İttifaqı ilə münasibətlərin yeni mərhələsi, atılan ilk uğurlu addımlar hər iki tərəfin təhlükəsizlik və qarşılıqlı əlaqələrinə mühüm töhfə verəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Bakı məhkəməsində Ermənistanın işğal siyasəti faktlarla ortaya qoyulur

**Bakıda keçirilən ədalət məhkəməsində diqqətçəkən mühüm məqamlardan biri təqsirləndirilən erməniəsilli şəxslərin xalqımıza qarşı törətdikləri çoxsaylı cinayət əməllərinin faktlarla, sübutlarla, dəlillərlə ortaya qoyulmasıdır.**

Bu, həm də onu göstərir ki, respublikamızın hüquq-mühafizə orqanları illər ərzində diqqətlə, yüksək peşəkarlıqla sistemli iş apararaq, torpaqlarımızın işğal altına düşdüyü ilk zamandan etibarən erməni faşistlərinin həyata keçirdikləri bütün müharibə cinayətlərinin faktlarını bir-bir toplamışlar - bir gün gələcək ərazilərimizin işğaldan azad ediləcəyinə, suverenliyimizin təmin olunacağına, Qarabağda yuva qurmuş quldur rejimin məhv ediləcəyinə və Azərbaycana qarşı işğalçı müharibə apararaq saysız hərbi cinayətlər törədən təcavüzkar Ermənistanın, milli nifrət zəminində azərbaycanlılara soyqırımı, qətliamlar yaşadan erməni faşistlərinin həyata keçirdikləri qanlı əməllərə görə ədalət mühakiməsinə çıxarılacağının, beynəlxalq hüquq qarşısında cavab verəcəyinin böyük inamı ilə.

Hazırda Bakıda keçirilən ədalət məhkəməsində erməni canilərinin qanlı əməlləri ilə bağlı ortaya qoyulan videoyazılar, qəzet, jurnal, televiziya materialları, sənədli ədəbiyyat, internetdə, sosial şəbəkələrdə yer almış çıxışlar, çəkilişlər, fotolar və sair kimi inkarolunmaz faktlar Azərbaycanın haqlı mövqeyini bir daha sübuta yetirir. Real faktlarla əsaslandırılan materiallar dünya ermənilərinin təcavüzkar Ermənistana havadarlıq edən Qərb dairələrinin ölkəmiz əleyhinə apardıqları qarayaxma kampaniyasını tərk-silah edir, fiaskoya uğradır. Ədalət məhkəməsində səsləndirilən hər bir təkzibedilməz fakt dünyada ayaq açıb yerimək istəyən erməni yalanlarına tutarlı zərbə olur, Azərbaycana olmazın böhtanlar yağdıran, saxta ittihamlar irəli sürən qərəzli Qərb təsisatlarının ağzına vurulmuş tərs şillə təsiri göstərir.

Sözügedən faktların Ermənistan üzərində göstərdiyi effekt isə bir ayrıdır və burada qorxu amili qırmızı xətt kimi keçir. Çünki işğalçı Ermənistan bilir ki, təqsirləndirilən erməniəsilli şəxslərin Bakı mühakiməsində təqdim olunan dəlillər mütləq bu qondarma dövləti beynəlxalq hüquq qarşısında cavab verməyə məcbur edəcək. Buna görədir ki, təcavüzkar ölkə beynəlxalq ictimaiyyəti çaşdırmaq üçün adıçəkilən məhkəmə ilə bağlı sistemli yalan və böhtan təbliğatı aparır.

### Şahid ifadələri, təqsirləndirilən şəxslərin etirafları

Beynəlxalq və milli qanunvericiliyə uyğun formada həyata keçirilən bu məhkəmə proseslərində Ermənistanın sabiq faşist rəhbərləri Levon Ter-Petrosyanın, Robert Koçaryanın, Serj Sarkisyanın cinayət əməlləri, özünü "sülh göyərçini" kimi təqdim edən hazırkı baş nazir Nikol Paşinyanın Azərbaycan əleyhinə fəaliyyətləri bir-bir gün üzünə çıxarılır. Törətdikləri müharibə cinayətlərini həm sözügedən məhkəmədə təqsirləndirilən erməniəsilli şəxslər özləri etiraf edirlər, həm də hüquq-mühafizə, prokurorluq orqanlarımızın topladıqları cinayət materialları bir-bir ortaya qoyur.

Ədalət məhkəməsində dindirilən zərərçəkmişlərin ifadəsi isə ən tutarlı dəlillər kimi erməni faşizminin çirkin simasını nümayiş etdirir.

Məsələn, məhkəmədə zərərçəkmiş şəxs Yaşar Əlməmmədov Xocalı soyqırımında iştirakı müəyyən edilmiş təqsirləndirilən şəxslərdən Bako Sahakyanı, Arkadi Qukasyanı və Madat Babayanı tanıdığını deyib: "Erməni hərbçilər, şəxsən Madat Babayan özü mənə işgəncə verib. Əsir olan vaxt Madat mənə yaxınlaşdı, "sən türksən" deyib təpiklədi, sonra təhqir etdi. Üstündəki süngü-bıçağı çıxarıb mənə sancdı..."

Təqsirləndirilən keçmiş quldur rejimin başçısı Arayik Harutyunyan Bakıda keçirilən məhkəmə prosesində verdiyi sərbəst ifadədə Ermənistanın ölkəmizə qarşı işğalçı və təcavüzkar siyasətini ifşa edərək, hərbi cinayətlərin əmrinin məhz Ermənistandan verildiyini deyib.



O, ifadəsində 2020-ci ilin yayında və iyunun sonunda "Qarabağ ordusu"nun təlimlərini müşahidə etdiyini bildirərək, təlimlərə Ermənistan ordusunun qərargah rəisi Onik Qasparyanın rəhbərlik etdiyini, habelə Azərbaycanın dərinliklərinə zərbələr endirilməsi barədə qərarların Ermənistan tərəfindən verildiyini deyib: "Qarabağ Müdafiə Ordusu"nun "komandanı" Ermənistanın Baş Qərargah rəisinə tabe idi".

Eləcə də digər təqsirləndirilən erməniəsilli şəxslər Birinci Qarabağ müharibəsi dövründə, ondan sonrakı müddətdə və İkinci Qarabağ savaşı dönəmində Ermənistan tərəfinin törətdiyi və özlərinin də iştirak etdiyi qanlı cinayət əməllərini təsdiqləyiblər.

### İşğal Ermənistan siyasi-hərbi rəhbərliyinin göstərişi ilə həyata keçirilib

Məhkəmədə təqdim olunan dəlillər Ermənistan tərəfindən Azərbaycana qarşı işğal siyasətinin həyata keçirildiyini bir daha sübut edir.

Məhkəmə prosesinin aprelin 28-də davam etdirilən baxış iclasında Şuşa rayonunun Malıbəyli və Quşçular kəndlərinin yandırılmasını, aramsız atəşə tutulmasını əks etdirən videomaterial nümayiş olunub. Nümayiş etdirilən növbəti videomateriallar Şuşa rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı barədə olub.

Dəlillərdən biri Şuşanın işğalı əməliyyatına rəhbərlik etmiş "Komandos" ləqəbli general-mayor Arkadi Ter-Tadevosyanın döyüş prosesi və orada iştirak etmiş şəxslər barədə çıxışlarının əks olunduğu videomateriallardan hissələr olub. Videomaterialda, həmçinin Şuşanın işğalına hərtərəfli hazırlıqdan bəhs edilib. Vurğulanıb ki, Şuşanın işğalına dair plana Vazgen Sarkisyan (Ermənistanın birinci müdafiə naziri - red.) razılıq verib. Döyüş əmrini isə Seyran Ohanyan hazırlayıb.

Dövlət ittihamını müdafiə edən prokurorlar deyiblər ki, tədqiq olunan bu və digər faktlar Şuşanın işğalına Ermənistan siyasi-hərbi rəhbərliyinin göstəriş verdiyini sübuta yetirir.

Ardınca Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanın Şuşa rayonunun işğalı ilə bağlı qeydlərinin yer aldığı videomaterial tədqiq edilib. S.Sarkisyan Şuşa əməliyyatının "əhəmiyyətinin" çox böyük olduğunu bildirərək deyib: "Bu əməliyyatın əhəmiyyəti o qədər böyük idi ki, orada Robert Köçəryan özü iştirak edirdi".

Təqsirləndirilən Arkadi Qukasyan dövlət ittihamçısının "Ermənistanın müdafiə naziri Vazgen Sarkisyanın 1999-cu ildə qondarma rejimin "qəhrəmanı" medalı ilə təltif edilməsi sizin tərəfinizdən olub?" sualına "bəli" cavabını verib".

İclasda Şuşanın işğalından sonra çəkilən və Arkadi Qukasyanın da olduğu foto nümayiş etdirilib.

Təqsirləndirilən şəxs dövlət ittihamçısının suallarına cavabında həmin fotonun Şuşanın işğalından sonra oraya səfər edərkən çəkildiyini, fotoda yanında dayanmış şəxslərin Zori Balayan və Oleq Yesayan olduğunu bildirib.

Qısa nümunələrini də gətirdiyimiz kimi, işğalçı müharibə aparmış Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi müharibə cinayətləri irili, xırdalı bütün detallarına qədər məhkəmədə nümayiş etdirilir.

Necə deyərlər, onilliklər boyu başını cəngəlliyə salaraq törətdiyi qanlı əməllərin heç kim tərəfindən görülmədiyini, izlənmədiyini hesab edən faşist siyasəti yürüdən Ermənistanın qarşısına Bakı məhkəməsində tutarlı faktlar qoyulur.

Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən böyük diqqət və səylə toplanmış bütün sübutlar, dəlillər və faktlar isə mütləq Ermənistanı beynəlxalq hüquq qarşısında cavab verməyə məcbur edəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# REGİONLAR

## Tovuzda "Heydər Əliyev Müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda tədbir keçirilib

**Tovuz Rayon İcra Hakmiyyətinin, Yeni Azərbaycan Partiyası və Ağsaqqallar Şurası rayon təşkilatlarının birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Ümummilli Lider Heydər Əliyev Müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda tədbir keçirilib.**

Tədbiri giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov açmışdır. Bildirmişdir ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizin hüquqi, demokratik və dünyəvi dövlət kimi inkişafının əsasını qoyub: "Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə bu siyasi xətt uğurla davam etdirilir və Konstitusiyanın prinsipləri ölkənin inkişaf strategiyasının əsasını təşkil edir. 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildömünə təsadüf edir. Bu qərar müstəqil Azərbaycanın gücünün, xalqımızın birliyinin və həmrəyliyinin ifadəsidir".

Digər çıxış edənlər də qeyd etmişlər ki, Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması olduqca mühüm və dövlətçilik tariximiz üçün strateji əhəmiyyət kəsb edən hadisədir. Bu qərar yalnız tarixi mərhələlərin qeyd olunması deyil, eyni zamanda milli yaddaşımızın təzələnməsi, hüquqi təfəkkürün möhkəmləndirilməsi və suverenliyimizin gələcək nəsillərə ötürülməsi istiqamətində atılmış mühüm addımdır.

## Fasadlar yenilənir, dam örtükləri dəyişdirilir, yollar təmir olunur

**Gəncədə III MDB Oyunlarına genişmiqyaslı hazırlıq işləri sürətlə həyata keçirilir. Məlumdur ki, bu mötəbər tədbirin keçirilməsi üçün ölkəmizdə bir neçə şəhər seçilsə də, əsas oyunlar Gəncədə keçiriləcək.**



Hazırda Atatürk prospektində, Gəncəçay Park-Bulvar Kompleksində, Fikrət Əmirov adına parkda, Nizami kinoteatrının qarşısında yerləşən və Nizami parkı kimi tanınan ərazidə, həmçinin digər yerlərdə genişmiqyaslı təmir-bərpa işləri aparılır. O sıradan prospekt boyunca yerləşən çoxmənzilli və fərdi yaşayış evlərinin fasadları yenilənir, dam örtükləri dəyişdirilir, istirahət məkanlarında əsaslı yenidənqurma işləri həyata keçirilir. Eyni zamanda bu ərazilərdə yollar təmir olunur və yeni asfalt örtüyü salınır.

Xatırladaq ki, III MDB Oyunları 28 sentyabr - 8 oktyabrda Gəncə, Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Xankəndi şəhərlərində keçiriləcək.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

### Neftçala xəbərləri

## Liderlik bacarığı təlimlərdən başlayır

**"Regional İnkişaf" İctimai Birliyinin "Neftçala gəncləri üçün liderlik məktəbi" layihəsi çərçivəsində təlimlər keçirilib.**

Təlimin ilk günündə iştirakçılarla tanışlıq görüşü olub, gənclərə proqram barədə ətraflı məlumat verilib, məqsəd və gözlənilən nəticələrdən danışılıb, layihə ilə bağlı suallar cavablandırılıb.

Sonra "Liderlik məktəbi"nin təlimçisi Tofiq Sadıxov iştirakçılara "Nitq və ünsiyyət bacarıqları" mövzusunda natiqlik, ritorika anlayışlarını şərh edərək, özünütəqdimetmə prosesində nələrə diqqət edilməli olduğundan və dinləyici qruplarının xüsusiyyətlərindən danışıb. Gənclər natiqlik və ritorikanın fərqini, təqdimetmə bacarıqlarını müzakirə edib, təlimçi tərəfindən bu bacarıqlarını daha da inkişaf etdirmək barədə tövsiyələr alıblar.



Təlimin ikinci günündə liderlik mövzusuna həsr olunmuş sessiya keçirilib. Sessiyada Tofiq Sadıxov iştirakçılara liderliyin əsas anlayışları, effektiv liderin xüsusiyyətləri, komanda idarəçiliyi və qərarvermə prosesində liderin rolu haqqında ətraflı məlumat verib. Sessiya zamanı interaktiv müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb və müxtəlif situasiya tapşırıqları vasitəsilə mövzunu daha dərindən mənimsəyiblər.

"Neftçala gəncləri üçün liderlik məktəbi"nə müraciət edən 190 gənc arasında 26 nəfər müsahibədən uğurla keçərək iştirakçı hüququ qazanıb. Layihə gənclərin liderlik və komanda ilə işləmək bacarıqlarını inkişaf etdirmək, onların yeni bilik və təcrübələr qazanmasına dəstək vermək, effektiv kommunikasiya və yaradıcı düşüncə kimi keyfiyyətlərə yiyələnmələrinə imkan yaratmaq məqsədilə həyata keçirilir.

## 27 komanda 3 suala cavab axtarıb

**Neftçalada rayonun idarə, müəssisə və təşkilatlarının komandaları arasında "Nə? Harada? Nə zaman?" intellektual oyunu formatında bilik müsabiqəsi keçirilib.**



Bilik yarışında hər birində 5 üzv, ümumilikdə 135 nəfər olmaqla 27 komanda iştirak edib. Gərgin mübarizə şəraitində keçən yarışda I yerə Neftçala Rayon Polis Şöbəsinin "Bütöv Azərbaycan", II yerə Boyat kənd İnzibati ərazi dairəsi üzrə nümayəndəliyinin "Boyat", III yerə Aşağı Surra kənd İnzibati ərazi dairəsi üzrə nümayəndəliyinin "Surralılar" komandaları çıxıblar.

Qalib komandalar Neftçala Rayon İcra Hakimiyyəti və Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsi tərəfindən diplom, medal və kubokla təltif olunublar.

*S.CAVADOV,*
*"Azərbaycan"*

## Tütün ziyanlı olsa da...

### tütünçülük gəlirli və əməktutumlu sahədir

**Ölkədə həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin nəticəsidir ki, qeyri-neft sektorunda aqrar sektorun payı tədricən artır, əksər növ kənd təsərrüfatı məhsullarının istehsalında müsbət göstəricilərə nail olunur. Xüsusən ənənəvi kənd təsərrüfatı məhsullarının istehsalına maraq çoxalır. Belə sahələrdən biri də tütünçülükdür.**

Azərbaycanda ikinci texniki bitki sayılan tütünçülük Goranboyda sürətlə inkişaf edir. Hazırda rayonda tütünçülüyə marağı daha da artırmaq, emal müəssisələri yaratmaq və tütünçülüklə məşğul olanların daha çox gəlir əldə etmələri üçün əlverişli şərait var. Artıq bir neçə ildir ki, rayonun Qarqucaq, Zeyvə, Şəfəq, Yenikənd və Qaraçinar kəndlərində ümumilikdə 8 hektar sahədə tütün becərilir. Keçən il həmin sahələrdən 14,7 ton məhsul yığılmışdır ki, bu da əvvəlki ilin göstəricisindən xeyli çox idi. Belə ki, ötən mövsüm hər hektardan 1,5 ton olmaqla ümumilikdə 14,7 ton quru tütün təhvil verilmişdir. Tütünçülərin builki hədəfləri isə daha yüksəkdir.

Rayonda tütünçülük sahəsində zəngin təcrübə toplamış onlarla fermer var. Onlardan biri Şəfəq kəndinin sakini Səməd Yaqubovdur. Fermer son illər bu sahədə yüksək göstəricilər əldə edir. 9 ildir ki, tütün əkən və hər il bol məhsul əldə edən Zeyvə kəndinin sakini Pərviz Nəsirovun da bu sahədə uğurları çoxdur. Deyir ki, tütünçülük insanların maddi vəziyyətinin yaxşılaşmasına böyük dəstəkdir: "Lakin onun mütərəqqi üsullarla becərilməsi və qurudulması üçün yaxşı şərait olmalıdır. Rayonda bütün bu işlərə yüksək səviyyədə diqqət göstərilir".

Qeyd edək ki, tütünçülüyün inkişafı məqsədilə rayonun Aşağı Ağcakənd qəsəbəsi ərazisində 2,45 hektar sahədə tütün toxumunun əkilməsi üçün 14 istixana qurulması nəzərdə tutulur. Hazırda həmin istixananın 6-da işlər başa çatmışdır. Bu istixanalarda becərilən şitil toxumları xaricdən gətirilir və torf gübrə qarışığı ilə əkilir. Toxumların əkilməsinə 40 nəfərə yaxın rayon sakini cəlb edilmişdir. Digər istixanalar hazır olanda daha 180 nəfər işlə təmin olunacaq.



*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Sorağı əsrlərdən, səsi Masallıdan gəlir

### Xalq sənətkarlığı özündə həmçinin bu yerlərin tarixini yaşadır

**Masallı ölkəmizin qədim yaşayış məskənlərindəndir. Tarixi mənbələrdə 15-20 min il əvvəl bu ərazidə insan yaşayışı olduğu göstərilir. Qədim insanlar öz tələbatlarını təmin etmək üçün düşünüb-daşınmış, ətraflarında olanlardan istifadə edib öz ehtiyaclarını ödəmişlər.**

Sonralar çalalıq ərazilərdə bitən daladan toxuduqları həsir, zənbil, baş geyimi, gildən hazırladıqları nehrə, bardaq, meşə ağaclarından düzəltdikləri beşik, sandıq və digər əşyaları buğda və arpaya, əyin-başa dəyişmişlər. Zaman keçdikcə əhali bu sahədə bacarıqlarını genişləndirmiş və onu xalq sənətkarlığına çevirmişlər.

### HƏSİRÇİLİK

həmin sənət növlərindən biridir. Həsirçilikdə əsas material kimi qamış və daladan istifadə olunur. Əllə toxunan həsirlər evlərin, çardaqların, yaylaq evlərinin döşəməsinə salınır. Həsirlər divar bəzəyi kimi də tətbiq edilir. Onların yüngül, elastik və hava keçirici olması istidən qorunmaq və təbii sərinlik yaratmaq baxımından çox əlverişlidir. Amma həsirtoxuma sənəti ustalıq və diqqət tələb edir. Ustalar materialı əvvəlcə günəşdə qurudur, sonra isə toxumaq üçün lazımi formaya salırlar. Müxtəlif ölçülü və naxışlı həsirlər hazırlamaqdan ötrü müxtəlif toxuma texnikalarından istifadə edilir.

Bu sənətlə həm qadınlar, həm də kişilər məşğul olur. Son illər həsirçilik sahəsinə yerli turizm və eko-dizayn tələbləri artdığı üçün bu sənət yenidən aktuallaşmışdır. Həsirlər indi həm məişətdə, həm də suvenir və dekorativ məhsul kimi istifadə olunmaqla bazarda öz yerini tapmaqdadır. O üzdən Masallının Musaküçə kəndində yaşayan əksər ailələr gündəlik qazanclarını həsir toxumaqla çıxarırlar. Kənddə 30 ildən çoxdur həsir toxuyan Ağayevlər ailəsi kimi. Bu sənət onlara babalarından miras qalıb. İşinin mahir ustası olan Əlibala Ağayev cənub bölgəsinin rütubətli təbiətinə görə həsirə böyük tələbatın olduğunu deyir. Toxuduqları həsirləri Bakı və əsasən, ətraf rayonlardan gələn müştərilərə satırlar. Sifarişlər daha çox müxtəlif çeşiddə olan zənbillərə və papaqlaradır. Ə.Ağayev deyir: "Ata-babadan bu işlə məşğuluq. Müxtəlif formada zənbillər toxuyuruq, misal üçün, zənbillər var, yumru, çiyindən asılma. Qapaqlı zənbillər, uşaqlar üçün zənbillər, moruq yığmaq üçün səbətlər. Demək olar ki, bizə necə sifarişlər verirlərsə, biz onu toxuya bilərik".

Musaküçə kəndində bu işlə il boyu məşğul olurlar. Əlibala Ağayevin sözlərinə görə, həsirlərin ölçüsü fərqli olduğu kimi, toxunuşu da zövqə görədir: "Məxsusi sifarişlər olanda həsir müxtəlif həndəsi fiqurlarla bəzədilir. Bu ölçülərə görə də qiymətlər dəyişir. Həsir çantalar uzunmüddətlidir, möhkəmdir, yükgötürmə qabiliyyəti də çoxdur, tez cırılmır. İçindəki məhsulları da yaxşı saxlayır, xarab olmaqdan qoruyur, həm də içi görünmür. Həsir quru yerdə saxlanılanda 10 il qalır".

Masallıda

### SANDIQÇILIQ

da indiyəcən yaşadılan xalq sənəti növlərindəndir. Seyfəddin Əzizov bu sənətlə məşğul olan azsaylı insanlardandır. Cavandır. 1988-ci il fevralın 11-də Masallının Ərkivan qəsəbəsində sənətkar ailəsində anadan olub. Sənəti atasından bütün incəliklərinə qədər öyrənib. 16 yaşından bu sənətlə məşğuldur. Artıq 20 ilə yaxındır sərbəst işləyir.









Bildirir ki, düzəldilən hər bir sandıq zəhmət, səbir və diqqət tələb edir: "Sandıq hazırlayarkən hər bir xırdalığa fikir verməlisən. Əks halda sandığın ölçüləri düz gəlməz və zəhmətin boşa gedər. Bu sənət bir növ rəssamlıqla dülgərliyin sintezidir. Cehizlik sandıqların hazırlanması üçün iki gün vaxt sərf olunur. Kiçikölçülü sandıqları isə gün yarıma hazırlamaq mümkündür. Ancaq həmin sandıqların üzərinə müxtəlif təsvirlər, əsasən bayrağımız, gerbimiz, ölkəmizin xəritəsi və s. çəkilərsə, əlavə bir gün də lazım olur".

Seyfəddin Əzizov vurğulayır ki, cehizlik sandıqlara tələbat azaldığı üçün daha çox suvenir sandıqlar düzəltməyə üstünlük verir: "Masallı rayonu turizm bölgəsi olduğu üçün yerli və xarici qonaqlar bura tez-tez gəlirlər. Turistlər xüsusən suvenir sandıqlara maraq göstərirlər. Mən Masallıda və Bakıda bir çox sərgi və tədbirlərdə iştirak etmişəm. Bundan başqa, sosial şəbəkədə öz işlərimi nümayiş etdirirəm. Bu vasitələrlə əl işlərimlə tanış olanlar əlaqə yaradıb sifariş verirlər".

Həmsöhbətim ata-babasından miras qalan bu sənətin gələcəkdə də yaşadılmasını istəyir. Buna görə də oğlu Zamana da sənətinin sirlərini öyrədir.

### MİSGƏRLİK

Boradigah qəsəbə sakini Taleh Ağayev üçün təkcə qədim xalq sənəti deyil, həm də qazanc yeridir. Onun kiçik emalatxanasında misdən hazırlanmış müxtəlif məişət və bəzək əşyaları, suvenirlər göz oxşayır. Bura sanki kiçik bir muzeydir.

T.Ağayev Azərbaycanda misgərlik sənətinin daha çox inkişaf etdiyi İsmayıllı rayonunun Lahıc qəsəbəsində anadan olub. 50 il əvvəl ailəsi Masallıya köçüb. O, uşaq yaşlarından atası usta Nurəddinə kömək edib. Ailədə dörd qardaş olsalar da, hazırda atasının yolunu təkcə T.Ağayev davam etdirir. O, misdən müxtəlif məişət əşyaları hazırlamaqla bərabər, onların təmiri ilə də məşğul olur. Əvvəllər mis qablara tələbatın çox olduğunu deyən usta sifarişlərin sayının azaldığını bildirsə də, nikbindir: "Son vaxtlar bölgəmizdə mis qazanlara və samovarlara tələbat artıb. Ən çox gəlin köçən qızlar üçün misdən hazırlanmış bəzəkli məişət əşyaları sifarişi alıram. Müştərilərimin çoxu yerli sakinlərdir. Bununla belə, xarici turistlərdən də sifarişlərim olur".

Misgərliklə məşğul olan usta əvvəlcə xəyalında canlandırdığı hər hansı bir təsvirin eskizini misin üzərində çəkir, sonra isə çəkiclə döyərək onu gözəl sənət əsərinə çevirir. Rayonda bu sənəti inkişaf etdirmək, öz ailə biznesini genişləndirmək üçün T.Ağayev Masallı şəhərindəki "ASAN həyat" kompleksində yerləşən "ABAD" publik hüquqi şəxsin 1 saylı Regional Mərkəzinin xidmətlərindən də yararlanır. Onun misdən hazırladığı məişət və bəzək əşyaları, suvenirlər dəfələrlə rayonda və Bakıda keçirilən sərgilərdə nümayiş etdirilib və böyük marağa səbəb olub.

Gildən müxtəlif məişət qablarının hazırlanması ilə xarakterizə olunan

### DULUSÇULUQ

Azərbaycanda ən qədim istehsal sahələrindən biri olmaqla, öz əhəmiyyətini günümüzə qədər qoruyub saxlayıb. Arxeoloji tədqiqatlar təsdiqləyir ki, bu sənət Neolit dövrünün yadigarıdır.

Müasir dövrdə bu qədim peşəni yaşadan sənətkarlardan biri Ərkivan kənd sakini Cəsarət Nuriyevdir. O, birəsrlik ailə peşəsini davam etdirərək 50 ilə yaxındır ki, dulusçuluqla məşğuldur. Deyir ki, əşyalar əsasən əllə və ya xüsusi ayaqla fırlanan torna alətləri ilə formalaşdırılır, sonra isə qurudularaq xüsusi ocaqlarda bişirilir. Cəsarət ustanın sözlərinə görə, düzəldilən hər bir qab və fiqur diqqət və zəhmət tələb edir. Hazırda o, məişətdə istifadə olunan müxtəlif növ saxsı qablar hazırlayıb satmaqla məşğuldur. Ailəsini bu peşə ilə dolandıran usta əsasən dolça, piti qabları, dibçək, güldan, küp və qazanlar hazırlayır. C. Nuriyevin əl işləri müxtəlif festivallarda nümayiş olunub. 2004-cü ildə Rusiyanın Yekaterinburq şəhərində keçirilən Palçıq Günü yarışmasında qalib gəlib.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*





# Mədəniyyət





3 May Beynəlxalq Söz və Mətbuat Azadlığı Günüdür

# Milli mətbuatımızın tarixi ənənələri, yüksək mənəvi dəyərləri qorunmalıdır

**Dünya yaranandan insanlar sözə yüksək dəyər veriblər, zaman-zaman onu layiqincə qiymətləndiriblər. Sözün kəsəri həmişə qılıncdan iti olub. Elə buna görə də söz xiridarlarına, şairlərə, yazıçılara, jurnalistlərə həmişə hörmətlə yanaşıblar. İnsanlar həyatlarının ən çətin anlarında sözə tapınıblar, ona güvəniblər, ondan təsəlli alıblar. Söz adamları həmişə cəmiyyətin aparıcı gücü hesab olunublar. Buna görə də bütün dövrlərdə sözün və mətbuatın üzünə qapılar geniş açılıb. Söz və mətbuat azadlığı bütün zamanlarda cəmiyyətdə demokratiyanın meyarı hesab olunub. Bu gün bir çox beynəlxalq qurumlar ölkələrdə söz və mətbuat azadlığının inkişafını diqqət mərkəzində saxlayır, ona qayğı göstərirlər.**




1991-ci ildə UNESCO-nun Baş Konfransı "Dünyada mətbuat azadlığının təmin edilməsinə yardım haqqında" qətnamə qəbul edib. Baş konfrans azad, plüralist və müstəqil mətbuatın istənilən demokratik cəmiyyətin mühüm komponenti olduğunu tanıyıb. Qəbul olunan bəyannamə və qətnamələrə dəstək olan BMT Baş Məclisi 1993-cü ildə mayın 3-nü Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü elan edib. Həmin gündən bizi 32 illik zaman məsafəsi ayırır. 32 ildir ki, mayın 3-ü yaşadığımız dünyada senzuranın yolverilməzliyi, həbs olunmuş mətbuat işçilərinin azad olunması, təzyiqlərə məruz qalan jurnalistlərə qarşı bu hərəkətləri edənlərin cəzalandırılması ilə bağlı müzakirələr aparılır, müvafiq qərarlar qəbul edilir.

Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü demokratik proseslərin inkişaf etdiyi, fikir və söz azadlığına böyük önəm verildiyi ölkələrdə, o cümlədən Azərbaycanda da fəal şəkildə dəstəklənir. Dövlətimiz ölkədə insan hüquqlarının müdafiəsinə, söz və mətbuat azadlığı kimi vacib məsələlərə böyük diqqət və önəm verir. Azərbaycan dövləti azad sözün cəmiyyət həyatında üstün yer tutması, sərbəst şəkildə yayılması üçün həmişə zəruri addımlar atıb və atmaqdadır. Uzun və şərəfli bir yol keçmiş milli mətbuatımıza müstəqillik dövründə daim diqqət və qayğı göstərilib. Qürurverici haldır ki, həmin diqqət və qayğı bu gün də uğurla davam etməkdədir.

Müstəqillik dövründə milli mətbuatımızın inkişafı, ölkəmizdə söz azadlığının bərqərar olması Ulu Öndər Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında demokratik dəyərlərə hesablanmış medianın yaranması, formalaşması və möhkəmləndirilməsi üçün müvafiq tədbirlər həyata keçirildi. Kütləvi İnformasiya Vasitələrinin inkişafında əldə olunmuş bütün uğurlarda Ulu Öndər Heydər Əliyevin imzası var. Ümummilli Lider Heydər Əliyev sözə, mətbuata yüksək dəyər verərək demişdir: "Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir. O, həyatın güzgüsü, həqiqətin carçısı olmalıdır, insanları yüksək ideallar uğrunda mübarizəyə səsləməli və səfərbər etməlidir".

Ölkəmizin müharibə şəraitində yaşamasına baxmayaraq, Ümummilli Lider Heydər Əliyev əvvəlcə hərbi senzuranı, 1998-ci ilin avqustunda isə, bütövlükdə, KİV üzərində dövlət senzurasını ləğv etdi. Ulu Öndər 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" fərmanı ilə ölkədəki kütləvi informasiya vasitələri üzərindən illərdən bəri davam edən senzuranı götürdü. Dövlət başçısının imzaladığı bu fərman kütləvi infromasiya vasitələrinin inkişafına böyük töhfələr verdi.

Ümummilli Lider Heydər Əliyevin milli mətbuatımıza göstərdiyi diqqət və qayğı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2005-ci il mayın 31-də milli mətbuatımızın 130 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Prezidentinin sərəncamı bu sahəyə olan diqqət və qayğının bariz nümunəsi idi. Dövlətimizin başçısının 2008-ci il 31 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" mətbuat-dövlət münasibətlərinin tənzimlənməsi istiqamətlərini və dövlətin bu sahədəki siyasətini tam mənada ifadə edən baza rolunu oynadı. 2009-cu il aprelin 3-də həmin sənəd əsasında "Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" dövlətimizin başçısının fərmanı bu istiqamətdə atılmış çox mütərəqqi addım kimi qiymətləndirildi. 2016-cı il iyulun 21-də dövlətimizin başçısı Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrılması haqqında sərəncam imzaladı. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə maliyyə yardımının ayrılması haqqında" 16 iyul 2018-ci il tarixli sərəncamı da dövlətimiz tərəfindən mətbuata xüsusi diqqətin və göstərilən qayğının bir nümunəsi oldu.

Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə mətbuatın inkişafından, söz azadlığından bəhs edərək demişdir: "Azərbaycanda media azadlığı təmin edilir. Azərbaycanda heç bir senzura yoxdur, azad internet, yüzlərlə media orqanı fəaliyyət göstərir… Azərbaycanda azad cəmiyyət var, insanlar tam azad və sərbəst şəkildə yaşayırlar, qururlar, yaradırlar, o cümlədən media nümayəndələri də".

Ölkə mətbuatının inkişafının daha dolğun və hərtərəfli təmin olunması məqsədilə Milli Məclis "Kütləvi informasiya vasitələri haqqında", "Məlumat azadlığı haqqında", "Əməliyyat axtarış fəaliyyəti haqqında", "Kəşfiyyat və əkskəşfiyyat fəaliyyəti haqqında", "İnformasiya əldə etmək azadlığı haqqında" və başqa qanunlara bir sıra vacib mütərəqqi dəyişikliklər etmişdir.

Yaşadığımız indiki texnologiyaların inkişafı dövründə Azərbaycan mətbuatı beynəlxalq informasiya şəbəkəsinin bir hissəsi kimi fəaliyyət göstərir. Mətbuat işçiləri həm ölkədə, həm də onun hüdudlarından kənarda baş verən ictimai, siyasi, mədəni hadisələri obyektiv şəkildə işıqlandırır, analiz edir, şərh verir.

Jurnalistlərin peşə fəaliyyəti və mətbuatın inkişafı üçün ölkəmizdə hərtərəfli şərait yaradılıb. Mətbuatın inkişafına göstərilən bu qayğı və diqqət jurnalistlərin üzərinə böyük məsuliyyət də qoyur. Jurnalist hər şeydən əvvəl obyektiv olmalı, işinə, vəzifəsinə vicdanla və məsuliyyətlə yanaşmalıdır.

Cəmiyyətdəki uğur və nöqsanlar ictimaiyyətə obyektiv şəkildə, mətbuat haqqında qəbul olunmuş müvafiq qanun və prinsipləri pozmadan çatdırılmalıdır. Mətbuat və söz azadlığının müqəddəs dəyərlərinə hörmətlə yanaşılmalıdır. Unutmayaq ki, mətbuatımızın demokratik inkişafı hər bir qələm və söz adamından asılıdır. Ayrı-ayrılıqda hər birimiz, ümumilikdə hamımız mətbuatımızın inkişafına, tərəqqisinə dəyərli töhfələr verməli, qələmimizlə, qılıncdan kəsərli sözümüzlə dövlətimizə, xalqımıza və vətənimizə layiqincə xidmət etməliyik. Milli mətbuatımızın tarixi ənənələrini, yüksək mənəvi dəyərlərini həmişə qorumalıyıq. Bu, hər şeydən əvvəl bizim vətəndaşlıq borcumuzdur.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Milli sərvətimiz

# Ana dilimizə dövlət qayğısı

**Azərbaycan dili türk dilləri ailəsinin ən zəngin və ifadəli dillərindən biri olaraq, xalqımızın tarix boyu qoruyub yaşatdığı ən qiymətli sərvətdir. Bu dil təkcə ünsiyyət vasitəsi deyil, həm də milli kimliyimizin əsas daşıyıcısıdır.**




Azərbaycan dili əsrlər boyunca xalqımızın mədəni inkişafına və cəmiyyətin formalaşmasına mühüm töhfə vermişdir. Dil insanları bir-biri ilə bağlayan, tarixi irsi gələcək nəsillərə ötürən güclü vasitədir.

Zəngin leksik fonduna, ahəngdar səslər sisteminə və geniş ifadə imkanlarına malik olan Azərbaycan dili təkcə gündəlik ünsiyyətdə deyil, elmi, bədii və diplomatik sahələrdə də öz əhəmiyyətini sübut etmişdir. Dilimizin inkişafı, xalqımızın sosial-iqtisadi və mədəni tərəqqisi ilə paralel olaraq daha da genişlənmiş, onun tətbiq sahələri artırılmışdır. Bu dilin gücü ilə diplomatik sənədlər hazırlanmış, yüksəksəviyyəli bədii və publisistik əsərlər qələmə alınmışdır.

Azərbaycan dili öz keçmişindən gələcəyə uzanan bir körpüdür və bu gün ana dilimizin qorunması, inkişafı dövlət siyasətinin əsas prioritetidir. Azərbaycan dilinə göstərilən qayğı onun zənginliyini yaşatmaq və nəsillər boyunca inkişafını təmin etmək məqsədi daşıyır. Ümummilli Lider Heydər Əliyev Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi üçün tarixi addımlar atmışdır. Onun qətiyyəti ilə Azərbaycan dili 1978-ci ildə qəbul edilən Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasına dövlət dili olaraq daxil edilmişdir. Bu, SSRİ dönəmində Azərbaycan dilinin varlığına yönəlmiş təzyiqlərə baxmayaraq, onun qorunub saxlanılması istiqamətində mühüm bir addım idi.

Heydər Əliyev hər zaman vurğulayırdı: "Xalqı xalq edən, milləti millət edən ana dilidir. Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalıdır və bu dili sevməlidir". Müstəqillik qazandıqdan sonra Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan dilinin dövlət dili kimi statusu daha da möhkəmləndi və hüquqi baxımdan qorundu.

Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit edilmişdir. Konstitusiyanın 21-ci maddəsində qeyd olunur: "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir". Bu, ana dilimizə göstərilən dövlət qayğısının ən mühüm hüquqi təminatıdır. Azərbaycan dövlətinin dil siyasəti yalnız ölkə daxilində deyil, həm də beynəlxalq arenada dilimizin mövqeyinin gücləndirilməsinə yönəlib. Xaricdə yaşayan azərbaycanlıların dilimizi qoruması və gənc nəsillərə ötürməsi istiqamətində dövlət əhəmiyyətli iş aparır. Onun yaşadılması və gələcək nəsillərə ötürülməsi milli siyasətin əsas istiqamətlərindən biridir.

Azərbaycan dilinin tədrisi bütün təhsil müəssisələrində əsas fənn kimi yer alır. Eyni zamanda dilçilik sahəsində elmi araşdırmaların aparılması, akademik nəşrlərin hazırlanması və mütəxəssislərin yetişdirilməsi üçün ciddi proqramlar həyata keçirilir. Ana dilimizin zənginliyini qorumaq və onu daha geniş yaymaq məqsədilə ədəbiyyatın, daha dəqiq desək, poeziyanın və milli yaradıcılığın inkişafına dövlət tərəfindən xüsusi dəstək verilir. Tarixi və müasir əsərlərin nəşri, onların geniş auditoriyaya təqdim olunması bu sahədə əsas fəaliyyət istiqamətlərindəndir.

Azərbaycan dilinin elmi əsaslarla qorunmasını və düzgün istifadəsini təmin etmək məqsədilə müvafiq qurumlar fəaliyyət göstərir. Bu institutlar dilimizin qrammatik və leksik inkişafına yönəlik yeni yanaşmalar irəli sürür, araşdırmalar aparır və onun standartlaşdırılması istiqamətində vacib işlər görürlər.

Dilimizin təbliği əsasən kütləvi informasiya vasitələrində geniş şəkildə həyata keçirilir. Televiziya kanalları, qəzetlər, jurnallar və onlayn platformalar vasitəsilə Azərbaycan dilində yayımlar təşkil edilir, keyfiyyətli və informativ materiallar hazırlanır.

Məktəblərdə, ali təhsil ocaqlarında, mədəniyyət mərkəzlərində və diaspor fəaliyyətlərində də ana dilinin təbliği geniş vüsət alıb. Dövlət tərəfindən dərsliklərin nəşri, uşaq ədəbiyyatının yayılması və multimedia resurslarının hazırlanması ilə dilimizin həm qrammatik, həm də mənəvi aspektdə yaşadılması və inkişafı təmin edilir. Ümummilli Lider Heydər Əliyevin dilimizə olan diqqət və qayğısı onun irsinin əhəmiyyətli bir hissəsidir. O, dilimizi təkcə qoruyub saxlamaqla kifayətlənməmiş, onu inkişaf etdirmək, zənginləşdirmək və gələcək nəsillərə əmanət etmək üçün çalışmışdır. Ulu Öndərin irəli sürdüyü milli ideologiya sayəsində Azərbaycan dili bugünkü dövlətçiliyimizin və milli birliyimizin təməl daşına çevrilib.

Azərbaycan dilinə dövlət qayğısı xalqımızın milli kimliyinin qorunması və inkişaf etdirilməsi üçün ən mühüm vasitələrdən biridir. Bu qayğı tariximizə ehtiramımızın və gələcək nəsillərə olan məsuliyyətimizin təzahürüdür.

***Mətanət ƏMRAHOVA,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# Ənənə davam edir - bu dəfə Beynəlxalq Xalça Forumu ilə

**Bakı Biznes Mərkəzində "Xalçaçılıqda ənənələr və yeniliklər" adlı Beynəlxalq Xalça Forumu keçirilib. Qonaqlar əvvəlcə foyedə "Xalça sənətində Heydər Əliyevin əbədi irsi" adlı fotosərgi ilə tanış olublar.**




"Azərxalça" ASC-nin İdarə Heyətinin sədri, Əməkdar incəsənət xadimi Emin Məmmədov bütün qonaqları salamlayaraq qeyd etdi ki, forum xalça sənayesinin aparıcı mütəxəssislərini, dizaynerləri, istehsalçıları və tədqiqatçıları bir araya gətirib: "Biz artıq ənənəvi olaraq mayın əvvəlində görüşürük, çünki Prezident İlham Əliyev tərəfindən 2016-cı ildə imzalanan sərəncama görə, Azərbaycanda mayın 5-i xüsusi olaraq Xalçaçı Günü kimi qeyd olunur. Çox şadıq ki, belə bir bayram ərəfəsində biz artıq ənənəvi olaraq festival keçiririk. Keçən il biz Milli Xalça Festivalı təşkil etdik. O gözəl uğurun davamı olaraq bu il Beynəlxalq Xalça Festivalına start verdik. Festivala müxtəlif ölkələrdən qonaqlar dəvət olunub. Hər birinizi İçərişəhərdə maraqlı və zəngin proqramlı festival gözləyir".

Tədbirdə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Rüfət Mahmud diqqətə çatdırdı ki, xalça sadəcə bir əşya deyil, o, bir millətin yaddaşı, duyğusu, kimliyi və tarixidir: "Hər düyünündə bir nağıl, hər naxışında bir sirr gizlənir. Xalça əllə toxunsa da, ürəklə danışır". O, Azərbaycan xalçaçılıq sənətinin əsrlər boyunca dünya mədəniyyətinə öz töhfəsini verdiyini, bu gün də canlı şəkildə yaşamaqda davam etdiyini vurğuladı.

Sonra İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktorunun müavini Tural Hacılı və RF Tatarıstan Respublikasının mədəniyyət sahəsində innovasiyaların tətbiqi və ənənələrin qorunması üzrə Resurs Mərkəzinin direktoru Alsu Miftaxova forumun işinə uğurlar arzuladılar. Bu tədbirin bizə yalnız zəngin xalça ənənəmizi nümayiş etdirmək üçün yox, həm də digər xalqların bu sahədəki mirası ilə tanış olmaq, təcrübə və sənət mübadiləsi aparmaq üçün bir fürsət yaratdığını diqqətə çatdırdılar.

Sonra forum işini plenar sessiyalarla davam etdirdi.

Qeyd edək ki, "Xalçaçılıqda ənənələr və yeniliklər" forumu Beynəlxalq Xalça Festivalı çərçivəsində keçirilib. "Azərxalça" ASC və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşkilatçılığı, AZPROMO-nun dəstəyi ilə düzənlənən festivalda 10-dan çox ölkədən 200-ə yaxın qonaq iştirak edib.

Beynəlxalq Xalça Forumunda bildirildi ki, İçərişəhərdə mayın 4-dək Beynəlxalq Xalça Festivalı keçiriləcək. Tədbirin təşkil olunmasında əsas məqsəd Azərbaycan xalçaçılıq sənətini dünya müstəvisində tanıtmaq, onun zəngin irsini və gələcək inkişaf perspektivlərini nümayiş etdirmək, dünya xalçaçılarının təcrübə və bacarıqlarından bəhrələnməkdir. Festivalın proqramında zəngin və rəngarəngliyi ilə bütün yaş qruplarından olan qonaqların maraqları nəzərə alınıb.

İçərişəhərin UNESCO Ümumdünya İrs Siyahısına daxil edilməsinin 25, Azərbaycanın ənənəvi xalçaçılıq sənətinin UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilməsinin 15 illiyi ilə üst-üstə düşən builki Beynəlxalq Xalça Festivalı çərçivəsində ziyarətçiləri sehrli əyləncə proqramı - rəngarəng konsertlər silsiləsi, açıq hava kinoteatrı və yerli sənətkarların iştirak etdiyi müxtəlif yarmarkalar gözləyir.

"Azərxalça" ASC-nin 14 emalatxanasından dəvət olunmuş 28 toxucu qadın, emal prosesinin gözəlliyini nümayiş etdirən geniş emal komandası və yaradıcı qrupun üzvləri festivala baş çəkən hər kəslə xalçaçılığın sirlərini bölüşəcəklər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# *Xalq artisti:* "Türk ölkələrinin xoreoqrafiya mədəniyyətini yaxınlaşdırmaq vacib amildir"

"Türk ölkələrinin xoreoqrafiya mədəniyyətini bir araya gətirmək, onları dialoq platforması çərçivəsində birləşdirmək, ortaq keçmişi, dili və dini olan xalqlarımızın mədəni irsini, adət-ənənələrini qoruyub saxlamaq və gələcək nəsillərə çatdırmaq vacib amildir".

Bu sözləri Bakı Xoreoqrafiya Akademiyasının beynəlxalq əlaqələr üzrə prorektoru, Xalq artisti Təranə Muradova Ankarada AZƏRTAC-ın müxbiri ilə söhbətində deyib.

O, aprelin 28-dən mayın 2-dək Türkiyənin paytaxtında Türk Dünyası Dövlət Balet Məktəblərinin Ankara Festivalını təşkil edən Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) fəaliyyətini yüksək qiymətləndirib.



Hacettepe Universitetinin nəzdindəki Ankara Dövlət Konservatoriyasının konsert zalının səhnəsində keçirilən festivalın repertuarında həm dünya baletinin klassik əsərləri, həm də milli rəqslər yer alıb. Gənc istedadların, o cümlədən Azərbaycandan olanların çıxışları Türkiyədə balet sənətini sevənlərin böyük marağına səbəb olub.

T.Muradova bildirib ki, festival proqramı çərçivəsində Ankarada, TÜRKSOY-un binasında Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın balet məktəblərinin nümayəndələrinin iştirakı ilə konfrans da keçirilib.

# "Sənətkarın dostu" layihəsinin növbəti qonağı Xalq artisti Salman Qəmbərov olub

Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) təşkilatçılığı, Bakı şəhər Mədəniyyət Baş İdarəsinin dəstəyi ilə "Sənətkarın dostu" layihəsi çərçivəsində Xalq artisti, Rəşid Behbudov adına Dövlət Mahnı Teatrının bədii rəhbəri Salman Qəmbərov ilə görüş keçirilib.



MEMİM-dən bildirilib ki, Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbində keçirilən tədbirdə çıxış edən MEMİM-in direktor vəzifəsini icra edən, sənətşünaslıq üzrə fəlsəfə doktoru Vüqar Hümbətov layihənin gənc istedadların inkişafındakı önəmindən söz açıb, ustad dərsi formatında keçirilən layihənin uşaq və gənclərin yaradıcılığının stimullaşdırılması məqsədilə ötən ilin iyun ayından başlayaraq icra olunduğunu vurğulayıb.

Bəstəkar, caz pianoçu Salman Qəmbərov caz ifaçılığı sənətinin tədrisi, konsert yaradıcılığı, caz ifaçılarımızın beynəlxalq arenada uğurları, istedadlı gənclərin fəaliyyətinin stimullaşdırılması mövzularında söhbət edib.

3 May Beynəlxalq Günəş Günüdür

# Qızıl şüalardan "yaşıl enerji"yə

**Planetimizin ekoloji tarazlığını tənzimləyən Günəş ən böyük potensiala malik bərpaolunan enerji mənbəyidir. Ən təhlükəsiz enerji mənbələrindən biri olan Günəş enerjisi ətraf mühiti çirkləndirmir, radioaktiv tullantıların yaranmasına səbəb olmur, ən əsası isə bütün dünyada elektrik stansiyalarına bərabər miqdarda enerji verə bilir.**



İnsanları bərpaolunan enerji mənbələrindən istifadəyə təşviq etmək məqsədilə 1978-ci ildən başlayaraq, demək olar ki, dünyanın bütün ölkələrində mayın 3-ü Beynəlxalq Günəş Günü kimi qeyd edilir.

Azərbaycanda da təbii ehtiyatlardan səmərəli istifadə məsələlərinə, təbii mühitin qorunub-saxlanmasına, ekoloji problemlərə diqqətlə yanaşılır və bu istiqamətdə müvafiq işlər görülür. Ulu Öndər Heydər Əliyev bununla bağlı demişdir: "...Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq üzərimizə düşən başlıca vəzifələrdəndir..."

## Ölkəmizdə günəşli saatların miqdarı il ərzində 2400-3200 saat təşkil edir

Ölkəmiz bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik fiziki-coğrafi mövqeyə sahibdir. Azərbaycanda günəşli saatların miqdarı il ərzində 2400-3200 saat təşkil edir. Ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt-dir. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı isə Günəş enerjisi üzrə 23 min MVt həcmində qiymətləndirilir.

Enerji resursları ilə zəngin olmasına baxmayaraq, bərpaolunan enerji mənbələrindən istifadə hər zaman dövlətimizin prioritet məsələlərindən olub. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin təməl hədəflərindən biri də ölkəmizdə bərpaolunan enerji mənbələrindən istifadənin gücləndirilməsidir. Prezidentin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də iqlim dəyişikliyi və onunla mübarizə istiqamətində, eləcə də ölkəmizdə "yaşıl enerji" məkanı prinsiplərinə əsaslanan bərpaolunan enerjidən iqtisadiyyatın bütün sahələrində tətbiqi məsələləri öz əksini tapıb.

Ölkəmizin sosial-iqtisadi inkişafı üzrə prioritetlərə uyğun olaraq, bərpaolunan enerji mənbələrindən istifadə, "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsi, ölkəmiz üçün yeni olan pilot layihələrin reallaşdırılması daim diqqətdə saxlanılır. Buna nümunə olaraq açılış mərasimi ötən ilin iyulunda həyata keçirilən su hövzəsi üzərində istismara verilən günəş elektrik qurğusunu nümunə göstərmək olar. "Üzən günəş panelləri sisteminin inkişafına dair bilik mübadiləsi və texniki yardım" layihəsi çərçivəsində Böyükşor gölü üzərində qurulan Günəş enerjisi qurğusunun ümumi gücü 100 kVt-dir. O, illik 160 min kilovat-saatdan çox elektrik enerjisi istehsalı üçün nəzərdə tutulub.

## Şəfəq, Şəms, Üfüq...

Yeraltı və yerüstü təbii sərvətlərlə zəngin olan Qarabağ və Şərqi Zəngəzur işğaldan azad edildikdən qısa müddət sonra bu ərazilərdə bərpa və yenidənqurma işləri geniş vüsət alıb. Artıq bir sıra yaşayış məskənləri "ağıllı" şəhər və kənd layihələri əsasında qurulub, dağılmış ekosistem bərpa edilib.

Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan enerji istehsalı üçün olduqca geniş imkanlar mövcuddur. Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru "yaşıl enerji" zonası elan edib və 2022-2026-cı illər üzrə tədbirlər planı təsdiqlənib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

Mütəxəssislərin son hesablamalarına görə, sözügedən ərazilərdə 10 qiqavat həcmində günəş və külək enerjisi potensialı mövcuddur. Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonları texniki potensialı 7200 meqavatdan çox olan günəş enerjisindən istifadə üçün əlverişli şəraitə malikdir.

Ötən il Cəbrayıl rayonunda 240 MVt gücündə Şəfəq Günəş-Elektrik Stansiyasının təməli qoyulub. Bu stansiya işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən ilk sənaye miqyaslı günəş enerjisi və ən böyük birbaşa xarici investisiya layihəsidir. Layihə 3 iyun 2021-ci il tarixində Energetika Nazirliyi ilə BP arasında imzalanmış İcra Müqaviləsi əsasında həyata keçirilir. Şəfəq GES-də illik, təxminən 500 milyon kilovat-saat elektrik enerjisi istehsalı gözlənilir ki, bu da ildə 120-150 milyon kubmetr təbii qaza qənaət, 260-330 min ton karbon emissiyasının azaldılması deməkdir. Virtual Enerji Ötürülməsi Mexanizmi çərçivəsində stansiyada istehsal olunan enerji Cəbrayılda mövcud elektrik şəbəkəsinə ötürüləcək və eyni miqdarda enerji Səngəçal terminalına veriləcək. Tikintisinə bu il start veriləcək stansiyanın ərazisi artıq minalardan təmizlənib.

Aprelin 4-də Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası nazirlərin 11-ci iclası və Yaşıl Enerji Məşvərət Şurası nazirlərin 3-cü iclası çərçivəsində Cəbrayılda 50 MVt gücündə Üfüq Günəş-Elektrik Stansiyası (GES), 50 MVt gücündə Şəms GES layihələri üzrə İnvestisiya və Naxçıvanda 30 MVt gücündə GES layihəsi üzrə İcra Müqaviləsi imzalanıb. "Yaşıl enerji zona"larının inkişafı baxımından mühüm əhəmiyyət kəsb edən layihələrin reallaşması nəticəsində ümumilikdə illik 268 mln. kVt elektrik enerjisi istehsalı gözlənilir ki, bu da 59 mln. kubmetr qaza qənaət edilməsinə və 128 min ton karbon emissiyasının azaldılmasına imkan yaradacaq.

Dövlətimiz tərəfindən həyata keçirilən bu təşəbbüslər Azərbaycanı bərpaolunan enerjinin inkişafı və ixracında lider mövqeyə yüksəldəcək, gələcəyimizin daha dayanıqlı və möhkəm təməllər üzərində qurulmasına mühüm töhfələr verəcək.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Hava dəyişkən buludlu olacaq



Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin axşam bəzi yerlərdə yağış yağacağı gözlənilir. Ayın 3-dən 4-nə keçən gecə isə yarımadanın bəzi yerlərində qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi gündüz arabir güclənəcək.

Havanın temperaturu gecə 12-15°, gündüz 17-22° isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-80 faiz, gündüz 55-65 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 9-13°, gündüz 19-24° isti, dağlarda gecə 2-7°, gündüz 7-12° isti olacaq.

# Xəzərin dayazlaşması Aktau limanındakı tankerlərə problemlər yaradır

Xəzər dənizinin dayazlaşması Aktau Beynəlxalq Dəniz Ticarət Limanının işinə mənfi təsir göstərməyə başlayıb.

AZƏRTAC "Kazinform"a istinadla xəbər verir ki, yük gəmilərinin və neft tankerlərinin limana təhlükəsiz daxil olması üçün onlar artıq tam yox, 10 faiz daha az yüklənməlidir.

Aktau liman departamentinin rəhbəri Yerbolat Tlepiyevin izah etdiyi kimi, 6500 ton üçün nəzərdə tutulmuş quru yük gəmiləri indiki şəraitdə 5500 tondan artıq yük götürə bilməz. Tankerlərdə də vəziyyət oxşardır. Belə ki, yükgötürmə qabiliyyəti 6800 ton olan tanker cəmi 6500 ton yüklənir, 12000 tona qədər tutumlu gəmilər isə cəmi 9-10000 ton yük qəbul edir. Əks halda, tam yüklənən gəmilərin gövdəsinin aşağı hissəsi dənizin dibinə toxunmağa başlayır.

Yerbolat Tlepiyev vurğulayıb ki, ilin sonuna qədər dərinləşdirmə işləri aparılmazsa və suyun səviyyəsi aşağı düşməkdə davam edərsə, gəmiçilik səmərəsiz olacaq.

Qazaxıstanın nəqliyyat naziri Marat Karabayev bildirib ki, problemin həlli üçün Aktau limanının sularında dərinləşdirmə işlərinə başlanılacaq. Analoji tədbirlər ötən il Kurık limanında uğurla həyata keçirilib. Nəqliyyat naziri bildirib: "Mayda dərinləşdirmə işlərinə başlamağı planlaşdırırıq. İlin sonunadək işlərin bir hissəsini yekunlaşdıracağıq. Gələn il ikinci mərhələni də həyata keçirəcəyik. Bu işlər gəmiləri tam yükləməyə imkan verir. Dənizin dibindən çıxarılan qum dayaz yerlərə töküləcək hündürlüyü 2 metr artırır. Bunun sayəsində 171 hektar əlavə torpaq sahəsi yaranacaq və burada terminalın tikintisi planı həyata keçiriləcək".


OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Cənubi Qafqazda sülhün və əməkdaşlığın qurucusu
Tarix yaradan şəxsiyyət
K.B.Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru təyin edilməsi haqqında
Azərbaycan-Çin münasibətləri yeni mərhələdə: daha möhkəm dostluğa və daha güclü strateji tərəfdaşlığa doğru
Ermənistan silahlı qüvvələrinin Qaradağlı kəndini işğal etməsi, azərbaycanlıları vəhşicəsinə qətlə yetirməsi, işgəncə verməsi ilə bağlı sənədlər məhkəmədə tədqiq olunub
Dövlət Komissiyası: Xocalıda kütləvi məzarlıq aşkarlanıb
Pakistan Hindistanı təxribatlardan çəkindirməyə çalışır
azerbaijan-news.az

# Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (**Tel.: (012) 539-59-33**) zəng vura bilərsiniz.*


## *"Tehran Times":*

# MAQATE dezinformasiya yayır

**Rəsmi "Tehran Times" qəzeti Beynəlxalq Atom Enerjisi Agentliyinin (MAQATE) baş direktoru Rafael Mariano Qrossini İranın nüvə proqramı ilə bağlı ABŞ tərəfinə yanlış məlumat və hesabatlar ötürməkdə ittiham edib.**



Nəşrin yazdığına görə, Qrossi Böyük Britaniya, Fransa və Almaniyanın təzyiqi ilə hərəkət edib və bu, İranla ABŞ arasında nüvə danışıqlarının təxirə salınmasına səbəb olub. Məqalədə yazılıb: "Qrossi Amerika tərəfinə təhrif olunmuş məlumat və hesabatlar təqdim etməklə İranın nüvə fəaliyyətinin dinc xarakter daşıması ilə bağlı bəyanatlarının reallığa uyğun gəlmədiyi görüntüsü yaratmağa çalışır. Aydındır ki, o, İran və ABŞ arasında danışıqlara buraxılmaq üçün bütün mümkün vasitələrə əl atır".

Martın əvvəlində ABŞ Prezidenti Donald Tramp İran lideri Ayətullah Əli Xamneyiyə təhdidləri ehtiva edən məktub göndərərək nüvə proqramı ilə bağlı birbaşa danışıqlar təklif etmişdi. İran Oman vasitəsilə Amerika liderinə cavab məktubu göndərib.

Məktub mübadiləsindən sonra Tehran və Vaşinqton aprelin 12-də Omanda dolayı danışıqlar aparıb, aprelin 19-da isə Omanın vasitəçi qismində çıxış etdiyi başqa bir görüş İtaliyanın paytaxtı Romada keçirilib. Hər iki tərəf danışıqlarda irəliləyiş əldə etdiklərini bildirib.

Danışıqların növbəti turu da mayın 3-də Romada keçirilməli idi. Lakin Omanın xarici işlər naziri Bədr bin Həməd əl-Busaidi görüşün logistik səbəblərə görə təxirə salındığını bildirib.

ABŞ İrana qarşı "maksimum təzyiq" kampaniyası çərçivəsində dünən yeni sanksiyalar elan edib. İran neftinin satışı ilə məşğul olan 7 şirkət məhdudiyyətlərə məruz qalıb. Onlardan dördü BƏƏ-də, biri Türkiyədə qeydiyyatdan keçib.

ABŞ-nin müdafiə naziri Pit Heqset məsələ ilə əlaqədar deyib: "Biz sizin husiləri necə dəstəklədiyinizi görürük. Biz sizin nə etdiyinizi bilirik. Siz ABŞ ordusunun nəyə qadir olduğunu bilirsiniz. Sizə xəbərdarlıq edilib. Cavab bizim seçdiyimiz vaxt və ərazidə veriləcək".

Buna cavab olaraq İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqai davam edən danışıqlarda ABŞ-ni ziddiyyətli hərəkətlərdə və təxribat xarakterli bəyanatlarda ittiham edib.

"ABŞ İranla müharibəyə can atmır, sadəcə, onun nüvə silahına malik olmasının qarşısını almaq istəyir". Bunu isə ABŞ Dövlət katibi Marko Rubio mayın 2-də "Fox News" telekanalına müsahibəsində deyib. Dövlət katibi vurğulayıb: "Prezident Tramp müharibə istəmir. Heç birimiz istəmirik. Amma biz İranın nüvə silahına malik olduğu bir dünyada yaşaya bilmərik. Əgər İran məsələlərin həlli ilə bağlı diplomatiyanı seçərsə, irəliyə doğru aydın bir yolu var".

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Fransanın bütün metallurgiya sənayesi mayın 13-də Parisdə yürüşə çağırılıb

**Bütün Fransa metallurgiya sənayesini mayın 13-də Parisə yürüş etməyə çağırıram.**

AZƏRTAC xəbər verir ki, bu çağırışı Fransanın şimalındakı Nord departamentində əsas liman şəhəri olan Dunkerkdə yerləşən "ArcelorMittal" şirkətinin Ümumi Əmək Konfederasiyasının (CGT) baş katibi Qaetan Lökok bəyan edib. O, Fransada, xüsusilə də Dunkerkdə 600 iş yerinin ixtisar edilməsinə etiraz etmək üçün mayın 13-də Parisə toplaşaraq nümayiş etməyə çağırıb.

"Səsimizi ucaltmalıyıq. Bütün Fransanın polad və metal sənayesini mayın 13-də Parisə yürüş etməyə çağırıram. Əgər 5, 10, 20 avtobusu, ailələri, təqaüdçüləri səfərbər etməli olsaq belə, bunu edəcəyik. Parisə gedəcəyik və nə edə biləcəyimizi göstərəcəyik. Biz döyüşə girməmişik, müharibəyə girmişik. Bilirik ki, bu, aylarla davam edəcək", - deyə Q.Lökok bildirib. O əlavə edib ki, Dunkerkdə "ArcelorMittal" zavodunun bağlanması bütün şimali Fransa iqtisadiyyatını çökdürəcək.

1 May - Beynəlxalq Əmək Günündə şəhərdə "ArcelorMittal" zavodunun işçiləri, yüzlərlə sakin iş yerlərinin ixtisar edilməsinə qarşı olmaq üçün yürüş ediblər. Qırmızı jilet geyinmiş nümayişçilər liman şəhərində etirazlarını səsləndiriblər.

## ALLAH RƏHMƏT ELƏSİN!

İsaxan Vəliyev, Hacı Nərimanoğlu və Abbas Əliyev Bakı Dövlət Universitetinin Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, dosent Xatirə Hüseynovaya anası

**HƏQİQƏT QAZİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti publik hüquqi şəxsin rəhbərliyi və kollektivi Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Aparat rəhbəri Fuad Quliyevə anası

**SOLMAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3528
Sifariş 872

Qiyməti 60 qəpik